# KƏRBƏLA STATİSTİKASI

Əsgər Nəsirayi






# KƏRBƏLA STATİSTİKASI

Müəllif: Əsgər Nəsirayi
Tərcümə edən: İlahiyyatçı Camir Ağayev

Tbilisi 2017



**Müəllif:**

Əsgər Nəsirayi

**Tərcümə edən:**

İlahiyyatçı Camir Ağayev

**Kompüter dizaynı:**

Elvin Bayramov

***Gürcüstan Müsəlmanları İdarəsi***

# ÖN SÖZ

İmam Hüseynin (ə) babası kainatın ən xeyirlisi və üstünü olan həzrət Məhəmməd (s), atası ədalət simvoluna çevrilmiş Əmirəl-möminin (ə), anası bütün dünya və cənnət xanımlarının üstünü olan Fatimeyi-Zəhradır (ə). O həzrət vəhy evində dünyaya gəlmiş, vəhyin nazil olduğu şəxsin nəfəsi ilə nəfəs almış və vəhy sayəsində tərbiyə edilən insanlardan tərbiyə almışdır. Allahın Rəsulu (s) "Hüseyni sevən məni sevmişdir." deməklə imam Hüseynin (ə) Allah yanındakı, uca məqamını insanlara çatdırdı.

Hər hansı bir şəxsi sevmək üçün ilk öncə onu tanımaq lazımdır. İnsan tanımadığı birini sevə bilməz. Əlinizdəki "KƏRBƏLA STATİSTİKASI" adlı bu kitab, Peyğəbərin (s) sevimli nəvəsi imam Hüseyni (ə) və onun uğrunda canını qurban verənləri tanımaq üçün bir vasitədir. Bu kitabda, imam Hüseynin (ə) Mədinədən hərəkət etdiyi gündən, Kərbəlaya qədər olduğu yerlər, görüşdüyü insanlar, imama qoşulanlar, Kərbəlada şəhidləri, Kərbəlaya qədər yol boyu məntəqələr, Kərbəlada baş verənlər, Kərbəladan Kufəyə, Kufədən də Şama qədər aparılan əsirlər və onların qarşılaşdığı hadisələr barədə məlumat verilmişdir.

Aşura statistikasındakı bir sıra fərqli fikir və rəqəmlər imam Hüseynin (ə) qiyamında mahiyyətcə elə də əhəmiyyət kəsb etmir. Çünki tarix boyu aşuranın hədəfləri ilə mübarizə aparılmış, onu aradan qaldırmaq üçün hər bir yola əl atılmışdır. Bu da fərqli tarixi yazıların yaranmasına səbəb olmuşdur. Kitabda izlənilən ən əsas məsələ, imam Hüseynin (ə) hədəf və məqsədlərinin daima yaşadılması və dirçəldilməsinə çalışmaqdır. Müəllif və tərcüməçi ən dəqiq statistik məlumatları sizə təqdim etməyə çalışmışdır. Kitabla bağlı təklif və iradlarınızı bizə ünvanlaya bilərsiniz.

Allah-taaladan bütün insanlara imam Hüseyn (ə) sevgisinə yiyələnməyi diləyirik.

Tərcüməçi: İlahiyyatçı Camir Ağayev.

# İMAM HÜSEYNƏ (Ə) MATƏM SAXLAMAĞIN SAVABI

İmam Sadiq (ə) Zürarəyə buyurdu: "Ey Zürarə! Səma 40 gün imam Hüseyn (ə) üçün qan ağladı. Yer 40 gün zülmətə qərq olmaqla ağladı və günəş qızartı və rənginin solğunluğu ilə imam Hüseynə (ə) matəm tutdu."[1]

Davud Riqqi belə nəql etmişdir:

İmam Sadiqin (ə) yanında idim. Həzrət su istədi. Sudan içdikdən sonra gözlərindən yaş axdı. Sonra mənə buyurdu: "Ey Davud! Allah imam Hüseynin (ə) qatilinə lənət eləsin. Hər kəs su içdikdən sonra imam Hüseyni (ə) xatırlayıb onun qatilinə lənət deyərsə, Allah-taala ona 100000 savab yazar, 100000 günahını təmizləyər, dərəcəsini 100000 dəfə artırar, 100000 qul azad etməyin savabını onun üçün yazar. Eləcə də, qiyamətdə Allah-taala onu ürəyi sərin halda və xoşhal edərək məhşur edər."[2]

İmam Hüseyni (ə) və o həzrətin müsibətini xatırlamaq imanın artmasına, ilahi eşqə nail olmağa və həyatda böyük xoşbəxtliyə səbəb olur. Ona görə də, imam Hüseynin (ə) müsibətini xatırlamaq, o həzrəti ziyarət etmək, onun üçün əzadarlıq məclisləri təşkil etmək məsumlar tərəfindən təkidlə bəyan olunmuş və onunla bağlı saysız fəzilətlər qeyd olunmuşdur.

Şeyx Səduqun "Səvabul-əmal" kitabında Əhli-beyt (ə) şairi Əbu Əmmarə belə nəql etmişdir: "İmam Sadiq (ə) mənə buyurdu: "Mənim üçün şeir oxu." Mən o həzrət üçün şeir oxudum. O həzrət ağladı. Yenə də şeir oxudum. O həzrət ağladı. And olsun Allaha, mən şeir oxuyurdum və o həzrət də ağlayırdı. Sonra evdən də ağlamaq səsini eşitdim. Sonra imam Sadiq (ə) mənə buyurdu: "Ey Əbu Əmmarə, hər kəs imam Hüseyn (ə) barədə şeir oxuyub 50 nəfəri

---

[1] "Biharul-ənvar", c. 45, səh. 206.
[2] "Nəfəsul-məhmum", səh. 40.

ağladarsa, mütləq cənnətlik olar. Hər kəs imam Hüseyn (ə) barədə şeir oxuyub 40 nəfəri ağladarsa, mütləq cənnətlik olar. Hər kəs imam Hüseyn (ə) barədə şeir oxuyub 30 nəfəri ağladarsa, mütləq cənnətlik olar. Hər kəs imam Hüseyn (ə) barədə şeir oxuyub 20 nəfəri ağladarsa, mütləq cənnətlik olar. Hər kəs imam Hüseyn (ə) barədə şeir oxuyub 10 nəfəri ağladarsa, mütləq cənnətlik olar. Hər kəs imam Hüseyn (ə) barədə şeir oxuyub 1 nəfəri ağladarsa, mütləq cənnətlik olar. Hər kəs imam Hüseyn (ə) barədə şeir oxuyuarsa və özü ağlayarsa, mütləq cənnətlik olar. Hər kəs imam Hüseyn (ə) barədə şeir oxuyub özünü ağlayanlara oxşadarsa, mütləq cənnətlik olar."[1]

Seyid bin Tavusun "Əl-Məlhuf" kitabında imam Səccadın (ə) xadimlərinin birindən belə nəql olunmuşdur: "Günlərin birində imam Səccad (ə) səhraya getdi. Mən də onun arxasınca hərəkət etdim. Sonra o həzrət bir daşın üstündə səcdəyə getdi. Mən o həzrətin ah-nalələrini eşidirdim. O həzrət 1000 dəfə bu zikri dedi: "La ilahə illəllahu həqqən həqqa, la ilahə illəllahu təəbbudən və riqqa, la ilahə illəllahu imanən və təsdiqa." Sonra səcdədən qalxdı. O həzrətin gözlərindən yaş axırdı. O həzrətə dedim: Ey mənim mövlam, bu müsibətləri unutmağının və göz yaşlarının sonu çatmamışdırmı?"

Həzrət buyurdu: "Vay olsun sənə, həzrət Yəqub (ə) özü də peyğəmbər idi, atası da. Onun 12 oğlu var idi. Allah taala onlardan birini qeybə çəkdi. Onun saçları qüssədən ağardı. Qəm-qüssədən beli əyildi. Qəm-qüssədən gözlərini əldən verdi. Halbuki, oğlu diri idi. Mən isə gördüm ki, atam, qardaşım və yaxın qohumlarımdan 17 nəfəri necə qətlə yetirildilər və torpaqlar üstə düşdülər. Belə isə mənim qəm-qüssəm necə azala bilər?!"[2]

---

[1] "Səvabul-əmal", səh. 109, hədis: 2.
[2] Seyid bin Tavus, "Ahi Suzan bər Məzare Şəhidan", "Əl-Luhuf əla qətlət-tufuf" kitabının tərcüməsi, səh.293.

“Kamiluz-ziyarat” kitabında Harun bin Xaricə imam Sadiqdən (ə) belə nəql etmişdir: “İmam Hüseyn (ə) qətlə yetiriləndə, hətta meşələr də o həzrət üçün ağladılar. Allah taala o həzrət üçün 4000 pərişan mələklər ayırmışdır ki, qiyamətə qədər onlar o həzrətə ağlayacaqlar.”[1]

Əzadarlıq məclisləri əsasən 3 hədəf uğrunda qurulmalıdır:

1- Allah-taalanın razılığını əldə etmək məqsədi ilə;

2- Aşura qiyamını, tarixi və onun təhlilini doğru şəkildə insanlara çatdırmaq üçün;

3- Əhli-beytə (ə) saf məhəbbəti nümayiş etdirmək və şəhidlik ruhiyyəsini dirçəltmək üçün.

Təşkil olunmuş hər bir əzadarlıq məclisi bu üç hədəfdən uzaq düşərsə, mənəviyyatın süqut etməsi deməkdir.

## İMAM HÜSEYNİN (Ə) QİYAMININ KÖKLƏRİ MÜAVİYƏDƏN SONRA YEZİDİN HAKİMİYYƏTİ[2]

Müaviyə iyirmi illik hakimiyyətinin sonunda qərara gəldi ki, öz işində təcrübəli insanlardan sayılan Müğeyrə bin Şöbəni[3] işdən

---

[1] Məhəmməd Reyşəhri, “Şəhadətnameye imam Hüseyn (ə)”,

[2] Tarixçilər Müaviyənin yaşı barədə ixtilafdadırlar. Bəzilərinin yazdığına görə onun 75, bəzilərinə görə 82 və digərlərinin nəzərincə isə 92 yaşı olmuşdur.

[3] Birinci xəlifə Əbu Bəkrin dövründə Qüreyşlərin xilafətdə mühüm yer tutmalarına baxmayaraq, Müğeyə özü üçün mühüm mövqe qazana bilməmişdi. Amma qazılar sırasında onun da adı var idi. Ömərin zamanında isə ona böyük bir vəzifə verildi. Belə ki, Ömər ona tamamilə etimad etdiyi üçün onu Bəsrənin hakimi etdi. Müğeyrə Bəsrədə əxlaqsızlığa yol verərək zinaya mürtəkib oldu. Onun zina etməsinə dair kifayət qədər şahidlər olsa da, Ömər onu daşqalaq etmədi, yalnız işdən azad etməklə kifayətləndi. Mötəbər mənbələrə əsasən, Müğeyrə çoxlu sayda qadınla evlənmiş və onlara talaq vermişdi. Ona görə də, bu işdə ondan öndə olan kimsə yox idi. Bəzi mənbələrdə 300 qadın, bəzilərində 700 və bəzilərində isə 1000 qadını alıb boşaması qeyd olunmuşdur. Müğeyrə hicri-qəməri tarixi ilə 21-ci ildə, miladi tarixi ilə 642-ci ildə Kufəyə hakim seçildi. İkinci xəlifə Ömər bin Xəttabı qətlə yetirən Əbu Lölö Müğeyrənin qulu idi. Üçüncü xəlifə Osmanın zamanında Müğeyrə

kənarlaşdırsın. Müğeyrə Müaviyənin fikrini öyrəndi və Yezidin yanına gedərək dedi: Nə üçün atan səni özünə vəliəhd (canişin) təyin etmir? Sən bu iş üçün hamıdan layiqlisən və mən sənə kömək edəcəyəm.

Yezid atası ilə söhbət edib vəliəhdliyinə razılıq aldı. Beləliklə, Müğeyrə Yezid üçün insanlardan beyət alırdı və öz vəzifəsində qalmalı oldu. O, bu işə Kufə və Bəsrədən başladı.

Müaviyə hicrətin 56-cı ilində Kufədə Müğeyrəyə və Mədinədə Mərvan bin Həkəmə, Səid bin Asa və Abdullah bin Amirə məktub yazaraq Yezidin vəliəhdliyindən danışdı. Müğeyrənin, sayı 10-40 nəfər arasında olan Kufədəki nümayəndələri onun oğlu Ürvənin başçılığı ilə 100 (bəzilərinin yazdığına görə isə 30000) dirhəm almaqla, məktubları çatdırdılar.[1]

Müaviyə Yezidin vəliəhdliyinə beyət almaq üçün hicrətin 56-cı ilində 1000 nəfər atlı ilə Mədinəyə gəldi. O, 3 nəfərlə, yəni Abdullah

---

tamamilə işsiz idi. İmam Əlinin (ə) zamanında isə o, Taifə qayıtdı və qərara gəldi ki uzaqdan müsəlmanların işlərindən xəbərdar olsun. Hicrətin 40-cı, miladın 660-cı ilində imam Əlinin (ə) hakimiyyəti aradan getmişdi və ölkələr, şəhərlər bir-birləri ilə çəkişmədə idi. Müğeyrə bu dövrdə Müaviyənin adından bir məktub düzəldərək özünü Müaviyə tərəfindən "həccə rəhbərlik edən" adlandırdı və bu məsuliyyəti öhdəsinə aldı. O, Müaviyənin xilafəti dövründə mühüm vəzifələri ələ keçirdi. Belə ki, Bəni-Üməyyə Müğeyrə kimilərin zirəkliyinə ehtiyaclı idilər. Hicrətin 40-cı, miladın 661-ci ilində Müaviyə tərəfindən Kufəyə hakim seçildi. Bu dövrdə Müğeyrə şiə və xəvariclərin qiyamı ilə qarşılaşmışdı. Müğeyrə öz siyasəti sayəsində sülh bərqərar edərək özünü qorudu və şiələrin şiddətli qiyamının qarşısını aldı. Müğeyrə altmış ilə yaxın yaşamışdı və həmişə çalışırdı ki, yumşaqlıq siyasəti ilə öz mövqeyini qoruyub saxlasın. O, öz işlərini beləliklə davam etdirirdi. Müğeyrə cəmiyyətdə bir sıra qarşıdurmalar yaratmaqla Müaviyəni həmişə özündən asılı etmişdi. Digər bir tərəfdən də, məsələlərə diqqətlə nəzarət edir və öz yerinə Ziyad bin Übəyyəni canişin seçmək üçün zəmin yaradırdı. O, hətta Yezidin canişinliyini də məsləhət gördü ki, Müaviyə onun haqqında şəkkə düşməsin. İraqda sakitlik yarandıqdan sonra, Müğeyrə oranı ələ keçirtdi və Müaviyənin zahirdə onunla bir problemi yox idi. Ona görə də, ömrünün sonuna qədər Kufənin hakimliyində qaldı. Müğeyrənin ölümünün hicrətin 48-51 və miladın 668-671-ci illərində olduğu deyilmişdir. O, 70 yaşında ikən Taun xəstəliyindən ölmüşdür.

[1] Məhəmməd Rza Səngəri, "Ayine dər Kərbəlast", səh.31.

bin Zübeyr, Abdullah bin Ömər və İmam Hüseynlə (ə) kəskin şəkildə davrandı. Çünki onlar Yezidlə beyət etməkdən boyun qaçırır və onun vəliəhdliyi ilə müxalif idilər.[1]

Hicrətin 59-cu ilində Müaviyənin ölümündən bir il əvvəl imam Hüseyn (ə) həccə getdi. O həzrət tabeindən olan 700 nəfərə xütbə oxuyaraq Müaviyənin cinayətlərindən danışdı.[2]

Müaviyə həftənin üçüncü günü ölümündən bir gün əvvəl Şamın böyüklərindən sayılan 700 nəfərlə görüş keçirərək Yezidin xilafətinə təkid etdi. O, dördüncü gün, hicrətin 60-cı ilində, rəcəb ayının 15-i 77 və bəzilərinin dediyinə əsasən, 80 yaşında ikən dünyasını dəyişdi.[3]

Müaviyənin ölümündən sonra hicrətin 60-cı ili, Rəcəb ayında Yezidlə beyət olundu. Yezid hicrətin 26-cı ilində dünyaya gəlmişdi. Bununla da ona beyət olunan zaman onun 34 yaşı var idi.[4]

## AŞURA QİYAMININ BAŞLANĞICI

"Mucəmul-buldan" kitabının yazdığına əsasən, imam Hüseyn (ə), Yezidin beyətindən imtina etdiyi gündən, Aşura gününə qədər 175 gün çəkdi.

12 gün Mədinədə,

4 ay 10 gün Məkkədə,

23 gün Məkkə ilə Kərbəla arası olan yol və 8 gün də Kərbəlada qaldı. Məhərrəm ayının ikisindən onuncu günə qədər.

Müvaiyənin ölümündən 10 gün sonra, Yezid Mədinənin hakimi Vəlid bin Ütbə bin Əbu Süfyana məktub yazaraq 3 nəfərdən, yəni imam Hüseyn (ə), Abdullah bin Zübeyr və Abdullah bin Ömərdən

---

[1] Həmin mənbə, səh.33.
[2] Həmin mənbə.
[3] Həmin mənbə.
[4] Məhəmməd Məhəmmədi Reyşəhri, "Şəhadətnameye imam Hüseyn (ə)", səh.203.

beyət almasını tələb etdi. Əks təqdirdə isə onların öldürülməsini istədi.

İmam Hüseyn (ə) qohumlarından bir qrupunun silahlanıb Məkkəyə tərəf hərəkət etməsini istədi. O həzrət buyurdu: “Burada amanda deyilik. Məni elə bir işə məcbur etmək istəyirlər ki, onu heç cür qəbul edə bilmərəm. Elə isə mənə kömək edin.”[1]

İmam cəddi Peyğəmbərin (s) qəbrinin kənarında 2 rükət namaz qılaraq o həzrəti ziyarət edib Məkkəyə doğru hərəkət etdi.

İmam Zilhiccə ayının 8, tərviyə günündə[2] və bəzilərinin dediyinə əsasən, Müslim bin Əqilin şəhid olduğu Ərəfə günündə[3] Məkkədən Kərbəlaya tərəf hərəkət etdi.

## İMAM HÜSEYNİN (Ə) MƏDİNƏDƏN ÇIXMASININ SƏBƏBİ

Məkkə və Mədinə xalqı arasında hökm sürən siyasətin nəticəsində, kufəlilər qədər Əhli-beytsevər insanlar yox idi. Əhli-sünnə alimi İbni Əbil-Hədid Əbu Əmr Nəhdidən belə nəql etmişdir: “İmam Səccad (ə) buyurdu: “Məkkə və Mədinədə bizi sevən 20 nəfər də tapılmır.”[4]

Kufədə isə Əhli-beytsevər insaların sayı çox idi. Ona görə də, bin Ziyad insanları imam Hüseynlə (ə) müharibəyə məcbur edərkən hər 1000 nəfərdən 300 və ya 400 nəfəri qəbul edir, qalanları isə yolda qaçıb-gizlənir və imama qarşı bu müharibədən imtina edirdilər.[5]

---

[1] Həmin mənbə, səh.41.
[2] Şeyx Abbasi, “Nəfəsul-məhmum”, səh.156.
[3] Həmin mənbə, səh.142.
[4] Məhəmməd Məhəmmədi Reyşəhri, “Şəhadətnameye imam Hüseyn (ə)”, səh.86.
[5] Həmin mənbə, səh. 87.

# İMAM HÜSEYNİN (Ə) QİYAMA ÜSTÜNLÜK VERMƏSİ

Vəlid bin Ütbə imam Hüseynin (ə) Məkkədən çıxmasından xəbər tutdu. O, Həbib bin Həsini 80 nəfərlə imamın ardınca göndərdi. Həbib Mədinə küçələrinin birində imamı tapdı. Onlar danışıq yolu ilə imamı qaytara bildilər. İmam Hüseyn (ə) hicrətin 60-cı ilində Rəcəb ayının 27-si, şənbə günü axşam, Peyğəmbərin (s) qəbrinin kənarında namaz və münacatla öz qiyamını başladı. O həzrət ardıcıl olaraq iki gecədə Peyğəmbəri (s) yuxuda gördü. Allahın Rəsulu (s) da onun qiyam etməsini dəstəklədi.[1]

Mədinədən hərəkət edərkən imamın (ə) tərəfdarlarının sayı 228 nəfər idi. Öz yaxınlarından isə bacısı xanım Zeynəb (ə) və qardaşları olmaqla yanaşı, 21 nəfər onunla birgə idilər.[2]

O həzrətin səfər üçün hazırlığı belə idi. Ümumilikdə, 250 dəvə ilə səfərə çıxdılar. Bu dəvələrdən 40-ı kəcavəli idi, 7-si çadırları daşımaq üçün, 40-ı qab-qaşıq və zəruri məişət vasitələrini, 30-u su daşımaq üçün, 12-si parça, zəfəran, ətir, geyimlər, dirhəm və dinarın aparılması, 50-si qadın və uşaqların daşınması və 48-i isə digər şeyləri daşımaq üçün nəzərdə tutulmuşdu.[3]

İmam Hüseyn (ə) Qeys bin Səd İbadəyə dedi ki, 200 kişi ilə onların arxasınca hərəkət etsinlər.

[1] Məhəmməd Rza Səngəri, “Ayine dər Kərbəlast”, səh. 43.
[2] Məhəmməd Məhəmmədi Reyşəhri, “Şəhadətnameye imam Hüseyn (ə)”, səh.221.
[3] Həmin mənbə, səh.49.

## İMAM HÜSEYNİN (Ə) ÖZÜNƏ AİD TƏDARÜKÜ

1) Peyğəmbərdən (s) ona irs çatmış “Mürtəciz” adında 1 at;
2) 1 Qılınc;
3) 1 Zireh;
4) 1 Əmmamə;
5) Çəliyə oxşar 1 silahı həzrət özü üçün tədarük etdi.

Onlar Məkkə ilə Mədinə arasında 70 fərsəng (təqribən, 400 km) yolu getməli idilər.

Kufədə 89 yaşlı Süleyman bin Surəd Xuzai imam Hüseynin (ə) dəvətinə zəmin yaratdı. Kufə camaatı imam Hüseynə (ə) çoxlu məktub yazdı. İmamın Mədinədən Məkkəyə doğru hərəkətindən 37 gün sonra, yol əsnasında məktublar imama çatdırıldı. Ramazan ayının 12-si, təqribən, 50 məktub da göndərildi. Ramazan ayının 13-ündə də, 50 məktub gəldi. Bu 3 ay ərzində 150, bəzilərinin dediyinə əsasən isə daha da çox məktub göndərildi.[1] Ümumilikdə, sayı 12000 və ya, 18000-40000 arasında olan məktub göndərildi.

İmam Hüseynin (ə) Məkkəyə getməkdə 4 məqsədi var idi:

1) Kəbəni ziyarət etmək;
2) Camaatla görüş keçirmək;
3) Xanım Xədicənin (ə) qəbrini ziyarət etmək;
4) Həcc mövsümündə xütbə etməklə insanları ayıltmaq.

İmam Hüseyn (ə) 125, ya da 130 gün Məkkədə qaldı. Şaban ayı, mübarək Ramazan ayı, Şəvval, Zilqədə ayı və Zilhiccə ayından 8 gün olmaqla Məkkədə qaldı.

İmam Hüseynin (ə) Məkkədən İraqa doğru hərəkəti Ömər bin Səd bin Asın Məkkəyə əmir təyin olunmasına təsadüf edir. O, Yezidin əmrinə əsasən Məkkənin hakimi olmuş və böyük bir qoşunla Məkkəyə gəlmişdi. Yezid Ömər bin Səid bin Asa 23 göstəriş vermişdi.

---

[1] Həmin mənbə, səh.50.

Onlardan biri də bu idi ki, əgər imam Hüseyn (ə) onunla qarşı-qarşıya durarsa, onu qətlə yetirsin.[1]

Göndərilmiş məktublarda Kufənin Şəbəs bin Rəbi, Süleyman bin Surəd, Müsəyyib bin Nəcbə və s. kimi görkəmli şəxslərinin adları var idi. Onlar imamdan istəmişdilər ki, insanları öz beyətinə dəvət etsin, Kufəyə gəlsin və Yezidi hakimiyyətdən uzaqlaşdırsın. İmam Hüseyn (ə) də Kufə camaatının israrlı dəvəti qarşısında bir iş görmək qərarına gəldi. Kufənin vəziyyətini dəqiq şəkildə dəyərləndirmək, insanların istəklərini araşdırmaq və qiyamın hədəfləri üçün lazım olan bir sıra mühüm işləri görməkdən ötrü imamdan əvvəl bir nəfərin Kufəyə göndərilməsi zəruri bir məsələ idi. Bununla da o həzrət Kufə və oranın əhalisi barədə dəqiq xəbərlər əldə etmiş olacaqdı.

## MÜSLİM BİN ƏQİLİN QİYAMI

İmam Hüseyn (ə) bu gizli əməliyyat üçün əmisi oğlu Müslim bin Əqili ən ləyaqətli şəxs hesab etdi. Müslimin 40 yaşı vardı. Müslimdə 3 mühüm xüsusiyyət var idi.

1) O, uzaqgörən və siyasətçil bir şəxs idi;
2) Təqvalı və dindar idi.
3) İmam Hüseynin (ə) yaxın qohumu və o həzrətin etimad etdiyi bir insan idi.

İmam Hüseyn (ə) Müslimi çağırtdırıb buyurdu: "Get Kufəyə, insanlara diqqət elə. Əgər onların qəlbləri ilə dilləri eyni olarsa, məktublarda yazdıqları kimi müttəfiqdirlərsə və qiyamı onlarla birgə yerinə yetirmək olarsa, bunu mənə xəbər ver." O həzrət sonra Müslimə belə vəsiyyət etdi: "Təqvalı ol, insanlarla mehribançılıqla davran. İşlərini gizli saxla. İnsanlar bir-birləri ilə müttəfiq olduğu və ixtilafı olmadığı təqdirdə mənə xəbər elə."

[1] Məhəmməd Rza Səngəri, "Ayine dər Kərbəlast", səh. 180.

İmam Hüseyn (ə) aldığı sonuncu məktubdan 3 gün sonra, Müslim bin Əqili bir nümayəndə kimi Kufəyə göndərdi. Əvvəlcə Müslimlə birgə 3 nümayəndə təyin etdi. Qeys bin Müsəhhir Seydavi, Əmmarə bin Əbd Səluli və Əbdürrəhman bin Abdullah Ərhəbini Müslimə qoşdu.[1]

Müslim Mədinədə Peyğəmbərin (s) məscidində 3 gecə oyaq qalaraq ibadətlə məşğul oldu.[2]

## MÜSLİM BİN ƏQİL KİMDİR?

İmam Hüseynin (ə) əmisi Əqilin oğullarından 9 nəfəri, o həzrətlə birlikdə qiyam edərək şəhid oldular. Onlardan ən şücaətlisi Müslim idi. Bu böyük fəzilət Peyğəmbərin (s) hədisində də gəlmişdir. İmam Əli (ə) Əqilin mədhində Peyğəmbərin (s) belə buyurduğunu nəql etmişdir: "Mən Əqili iki şeyə görə sevirəm; Onun özünə görə və bir də Əbu Talibin onu sevdiyinə görə."

Məşhur nəzəriyyəyə əsasən Əqilin 11 oğlu var idi və hamısı Kərbəlada şəhid oldu. Müslimin yaşını 36-42 olduğunu demişlər.

İmam Hüseyn (ə) onu Kufəyə göndərərkən ona 5 tapşırıq verdi:

1) Təqvalı olmaq;
2) Təqiyyə (işlərini gizlətmək) və ehtiyatlı olmaq;
3) İnsanlarla xoşrəftar olmaq;
4) İmam Hüseynin (ə) gəlişini insanlara çatdırmaq;
5) Kufədə ən əmin insanın evində məskunlaşmaq.

Müslim bin Əqil Ramazan ayının 15-i Məkkədən çıxıb Mədinəyə getdi. O, Peyğəmbər (s) məscidində namaz qılıb yaxınları ilə vidalaşdı. Müslim Məkkədən Kufəyə hərəkət edərkən iki bələdçi götürdü. O, ardıcıl olaraq iki gün hərəkət etdi. İki yol bələdçisi

[1] Məhəmməd Fazil, "Aşura", səh.376.
[2] Həmin mənbə, səh.377.

susuzluqdan dünyasını dəyişdi. Müslim Qeys bin Müsəhhir Seydavi və Əmmarə bin Abdullah Ərhəbi ilə birgə yolun dözülməz çətinliklərinə baxmayaraq, 20 gündən sonra özünü Kufəyə çatdırdı. Onlar Məkkədən Kufəyə 30 günlük, təqribən 1400 km olan yolu bütün çətinlikləri ilə yanaşı 20 günə getdilər.[1]

Müslim bin Əqil Şəvval aynın 5-i Kufəyə çatdı. Bir rəvayətə görə Muxtarın, başqa bir rəvayətə görə isə Müslim bin Övsəcə Əsədinin mənzilində məskunlaşdı. Şiələr ora gediş-gəliş edirdilər. Müslim imamın məktubunu oxuduqda, onların hamısı ağladı.

Tarixi mənbələrdə Müslimə beyət edənlərin sayı 12000, 18000, 24000, 25000, 40000 və hətta 80000 kimi qeyd edilmişdir. 18000 nəfərin beyət etməsi daha məşhurdur. Çünki Müslim imama məktub yazdı ki, 18000 nəfər mənə beyət etmişdir, məktubumu aldıqda Kufəyə tərəf hərəkət edin. Halbuki, kufəlilər imama yazmışdılar: "100000 nəfər Yezidlə vuruşmağa hazırdır, elə isə yubanmadan gəlin."[2]

İbn Ziyadın Kufəyə gələrək insanları qorxutması ilə insalar Müslimin ətrafından dağıldılar və o, tək qaldı. Sonra isə "Təvəh" adlı bir qadının evinə sığındı.

Müslim 4000 nəfərlə qiyam edərək bin Ziyadı öz qəsrində mühasirə edib tutmaq istədi. Lakin qəsrə yaxınlaşdıqda, 4000 nəfərdən 300 nəfər qaldı. Bin Ziyadın qəsrində isə 30 keşikçi və 20 nəfər də qohumları və qəbilə başçıları vardı.

İbn Ziyad qəbilə başçılarını qorxutmaqla qəsrin üstünə çıxartdı. Onlar da öz adamlarını qorxudub qəsrin ətrafından kənarlaşdırdılar. Hava qaraldı. Müslim məğrib namazını 30 nəfərlə qıldı. Namazdan sonra isə 10 nəfər qaldı. Məsciddən çıxdıqdan sonra isə o, artıq

---

[1] Məhəmməd Rza Səngəri, "Ayine dər Kərbəlast", səh. 184, Məhəmməd Məhəmmədi Reyşəhri, "Şəhadətnameye imam Hüseyn (ə)", səh.237.
[2] Şeyx Müfid, "Əl-İrşad", səh.38; Seyid Əli Xamenei, "Afetab dər Musaf", səh.51.

Kufənin küçələrində tək qalmışdı.[1] O, dar küçələrdə hərəkət edərkən, dalanı olmayan bir küçədə məcburən "Təvəh" adlı bir qadının evinə daxil oldu.

Təvəhin oğlu Müslimin onların evində olmasından xəbər tutub bin Ziyadın vədə verdiyi mükafatı almaq üçün onun yerini bin Ziyadın adamlarına çatdırdı. Müslimi tutmaq üçün 70 nəfər Təvəhin evinə hücum edərək evi mühasirəyə aldı. Böyük qarşıdurmadan sonra Müslimi tutub bin Ziyadın Qəsrinə apardılar.

Bir rəvayətə görə, Müslim onlarla vuruşaraq 42 nəfərini öldürdü.[2]

## MÜSLİM BİN ƏQİLİN ŞƏHADƏTİ

Müslim bin Əqil şəhadətindən əvvəl 3 şeyi vəsiyyət etdi;

1) 1000 dirhəm borcu ödənilsin;

2) Qətlə yetirildikdən sonra, Müslimin bədənini müslə etməsin (qulaq, burnu və s. kəsilməsin) deyə, İbni Ziyada verməsinlər.

3) Bir nəfər kufəlilərin vəfasızlığını imam Hüseynə (ə) xəbər versin. Müslim bu vəsiyyəti gizlində Ömər bin Sədə dedi və əhd-peyman bağladı ki, bu xəbəri imam Hüseynə (ə) çatdırsın. Ömər bin Səd bu sirri İbni Ziyada açıb dedi və İbni Ziyad Müslimi darul-imarənin (hökumət binasının) üstündə qətlə yetirdi.

Müslim şəhadətdən əvvəl Allahdan bağışlanmaq diləyirdi. Onu Bükeyr bin Həmran qətlə yetirdi. O, əvvəl Müslimin başını kəsib qəsr-

---

[1] Bir rəvayətə görə, beyət edən 30000 nəfərdən 4000 nəfəri Müslimin qiyamında hazır idilər. Müslim 4000 nəfərlə həm mühasirəni davam etdirməyi, həm də Kufədə digər işləri həyata keçirməyi nəzərdə tutmuşdu. Çünki Kufədə əks təbliğat aparanlar da vardı. Böyük Kufə şəhərində iki şəxsin –Müslim və BİN Ziyadın – tərəfdarları da bir-birləri ilə çəkişmədə idi. Müslim məğrib namazını 30 nəfərlə qıldı. Namazdan sonra isə 10 nəfər qaldı. Məsciddən çıxdıqdan sonra isə o, artıq Kufənin küçələrində bir nəfəri də tapmırdı ki, ona yol göstərsin.

[2] "Nəfəsul-məhmum", səh.96.

dən aşağa atdı. Sonra isə onun mübarək bədənini yerə tulladı. Müslim Kərbəla qiyamının ilk şəhidi idi ki, Zilhiccə ayının 9-u, Ərəfə günündə şəhadətə yetişdi.

## MÜSLİMİN MƏŞHUR KÖMƏKÇİLƏRİ

Müslimin Kufədə vəfalı köməkçiləri də var idi ki, şəhid oldular.

1) Hani bin Ürvə.

Onun 83, bəzilərinin dediyinə əsasən isə 90 yaşı var idi. O, öz evini Müslimin sığınacağı etmişdi. O, Peyğəmbərin (s) səhabəsi, imam Əlinin (ə) "Cəməl", "Nəhrəvan" və "Siffeyn" döyüşlərində vəfalı köməkçilərindən, Quran təfsirçisi, çoxlu hədislər hafizi və 1000 nəfər silahlının komandanı idi.

Müslimdən sonra Hanini bazara aparıb boynunu vurdular. Hani qəsrdə əsir olduğu vaxtda, 4000 nəfər zirehlənmiş və 8000 nəfər piyada qoşunu da onu axtarırdı və onun tabeçiliyində idi. Digər bir rəvayətə görə isə, onun ardıcıllarının sayı 30000 idi. Lakin belə bir şəraitdə qorxduqları üçün ona kömək edə bilmədilər.[1]

Hani 89 yaşında ikən şəhid oldu. O, Peyğəmbəri (s) görənlərdən idi. İbni Ziyad Müslim və Haninin kəsik başlarını Yezidə göndərdi. Yezid onun bu işinə görə İbni Ziyada təşəkkür etdi. Müslim bin Əqil hicrətin 60-cı ilində, zilhiccənin 9-u, çərşənbə günü şəhid oldu. Elə bu gündə imam Hüseyn (ə) Məkkədən İraqa tərəf hərəkət etdi.

Müslim Bəni-Haşimdən olan ilk şəxs idi ki, başı kəsildi və bədəni dar ağacından asıldı. Kərbəla qiyamında kəsilmiş başlardan ilk baş idi ki, Şama göndərildi.

Müslim və Haninin şəhadət xəbəri imama çatdıqda imam "inna lillah və inna iləyhi raciun" deyərək hər ikisinə Allah-taaladan rəhmət dilədi.

---

[1] Həmin mənbə, səh.100.

2) Əbdül Əla bin Yezid. O, Quran qarisi, subay və 25 yaşlı bir gənc idi.

3) Abdullah bin Yəqtur. O, Əhli-beyt (ə) aşiqi, şücaətli, ayıq və 57 yaşlı bir insan idi.

4) Qeys bin Müsəhhir Seydavi. O, kufəlilərin Məkkədə imama göndərdikləri ilk nümayəndə idi. Sonra imamın Kufəyə göndərdiyi nümayəndəsi oldu. İmam Hüseyni (ə) mədh edərək Ziyad ailəsinə lənət deməklə şəhid oldu.

5) Abbas bin Codə Cədəli. O, dindar, cəngavər və 50 yaşlı idi.

6) Abdullah bin Haris Tufili. 52 yaşı var idi. O, dünyaya gələrkən Peyğəmbər (s) ona dua etdi və uzun müddət Mədinənin qazisi olmuş, ravi və fəqih idi.

7) Abdullah bin Əmr bin Üzeyr Kəndi. 45 yaşı var idi. İbni Ziyad onu tutmaq üçün 10000 dinar pul ayırmışdı.

8) Əmmarə bin Təlxəb Əzdi. 30 yaşı var idi. O, şücaətli, saf niyyətli və xoşsöz idi.

9) Hənzələ bin Mərvə Həmdani. O, Müslim və Haninin mübarək bədənlərinin yerlə süründüyünü görüb İbni Ziyadın adamları ilə vuruşdu. 14 nəfəri öldürərək özü də şəhid oldu. Onun 25 yaşı var idi. O, Müslimin qiyamının son şəhidi idi.[1]

## MÜSLİMİN İKİ BALASI

"Muntəhəl-amal" kitabının yazdığına əsasən, Müslimin 5 övladı var idi;

1- Abdullah. O, imam Əlinin (ə) qızı Rüqəyyədən dünyaya gəlmişdi. 26 yaşı var idi və Kərbəlada həzrət Əli Əkbərdən (ə) sonra şəhid oldu;

2- Məhəmməd. Onun anası Ümmü Vələd idi. O, Abdullahdan sonra şəhid oldu;

---

[1] Məhəmməd Rza Səngəri, "Ayine dər Kərbəlast", səh. 70-77.

3- 13 yaşlı qızı. O, xanım Zeynəblə (ə) yanaşı əsirlərin sırasında idi.
4- Məhəmməd;
5- İbrahim.

Şeyx Abbas Qumi Şeyx Müfiddən nəql edərək Məhəmməd və İbrahimin şəhadətini belə nəql etmişdir: "Məhəmməd və İbrahim Müslimin şəhadətindən sonra İbni Ziyadın adamları tərəfindən tutulub zindana düşdülər. Bir il zindanda qaldılar. Zindanban onları tanıyıb azad etdi. Onlar qorxularından çöllərdə didərgin oldular. İbni Ziyad elan etdi ki, onlardan birinin başını gətirənə 1000 dirhəm ənam verəcəkdir. Onlar qoca qadının evinə sığındılar. Qadının kürəkəni onları tanıyıb, boyunlarını vurmaq üçün evdən çölə apardı. Onlar şəhadətdən əvvəl 4 rəkət namaz qılıb belə dua etdilər: "Ya Həyyu Ya Qəyyum, Ya Həlim. Ya Əhkəməl-hakimin, uhkum bəynəna və bəynəhu bilhəq."

O zalım onların başını kəsərək İbni Ziyadın hüzuruna apardı. Hadisəni onlara danışdı. İbni Ziyad ixtiyarsız 3 dəfə ayağa qalxdı və onların o duasına görə əmr verdi ki, uşaqların şəhid olduğu yerdə o zalım qatilin boynunu vursunlar. Onların qəbrləri Kərbəlanın 5 fərsəxliyindədir.[1] Mərhum Şeyx Abbas Qumi "Nəfəsul-məhmum" kitabında yazmışdır: "Daha doğrusu budur ki, onlar, zindandan deyil, əsirlər karvanından qaçmışdılar."[2]

---

[1] Hər fərsəx təqribən 6 km-dir.
[2] Şeyx Abbas Qumi, "Muntəhəl-amal", səh.371-374; "Nəfəsul-məhmum"un tərcüməsi, səh. 136-142.

## İMAM HÜSEYNİN (Ə) MƏKKƏDƏN KƏRBƏLAYA SƏFƏRİ

Ən dəqiq məlumata görə, imam Hüseyn (ə) 4 ay 5 gün Məkkədə qaldıqdan sonra, hicrətin 60-cı ili, Zilhiccənin 8-ində, tərviyə günü, Müslimin Kufədə qiyam etdiyi gün, Kərbəlaya tərəf hərəkət etmişdir.

İmam Hüseyn (ə) təkcə ümrə əməllərini yerinə yetirməklə Məkkədən Kərbəlaya tərəf hərəkət etdi. İmam Hüseyn (ə) Məkkədən Kərbəlaya qədər 36 mənzildən keçdi. Onlar 25 gün ərzində 1447 km yol getdilər.[1]

### MƏKKƏDƏN HƏRƏKƏT EDƏRKƏN İMAMLA BİRLİKDƏ OLANLAR

İmam Hüseyn (ə) Məkkədən Kərbəlaya tərəf hərəkət edərkən aşağada qeyd edilən insanlar o həzrətlə birgə idilər:

1) Kufədən imama məktub gətirənlərdən 7 nəfər.
2) Bəsrədən 9 nəfər. Bunar Məkkədə imama qoşulmuşdular.
3) Öz ailəsindən 16 nəfər. 82 nəfər isə digər qohum və dostlarından idi. Ümumilikdə, onların sayı 124 nəfər idi. Əlbəttə, digər rəqəmləri yazan tarixi mənbələr də vardır.

### İMAM HÜSEYNİN (Ə) QARDAŞLARI

İmam Əlinin (ə) oğlanlarından 10 nəfər imamın qiyamında iştirak etdilər. İmam Əlinin (ə) Ümmül-Bənindən olan 4 oğlu:

1) Abbas (Əbulfəzl) (ə);
2) Osman;
3) Cəfər;
4) Abdullah bin Əli (ə).

Ümmül-Bənin Mədinədə qalmışdı.

İmam Əlinin (ə) Leyla binti Məsuddan olan 3 oğlu;

1) Məhəmməd;

---

[1] “Mucəmul-buldan” kitabında yazılmışdır: “İmam Hüseyn (ə) Məkkədən Kərbəlaya qədər 18 mənzildən keçdi.”

2) Əsğər;

3) Əbu Bəkr.

Leyla binti Məsud da Kərbəlada idi.

İmam Əlinin (ə) Ümmü Həbib Səhba Sələbiyyədən olan 1 oğlu. Ömər bin Əli (ə). Onun anası Kərbəlada idi.

İmam Əlinin (ə) Əsma binti Ümeysdən olan "Əvn bin Əli" adlı oğlu. Əsma da Ümmül-Bənin kimi Mədinədə qalmışdı.

İmam Əlinin (ə) Əmamədən olan Məhəmməd Əvsət adlı 1 oğlu. Bu qadın da Kərbəlada idi. İmam Əlinin (ə) bu 10 oğlu Kərbəlada şəhid oldu.[1]

## İMAM HÜSEYNİN (Ə) ƏMİSİ OĞLANLARI

İmam Hüseynin (ə) əmisi Cəfər bin Əbu Talibin övladlarından 5 nəfəri Kərbəlada şəhid oldu. Onların adları belədir:

1) Əvn əl-Əkbər bin Abdullah. O, xanım Zeynəbin (ə) oğlu idi.

2) Məhəmməd bin Abdullah. Bəzi tarixçilər onu da xanım Zeynəbin (ə) oğlu hesab etmişlər.

3) Abdullah bin Abdullah.

4) Əvn bin Cəfər. Bu Əsma binti Ümeysin oğlu idi.

5) Qasim bin Məhəmməd.

Onların hamısı Kərbəlada şəhid oldular.

İmam Hüseynin (ə) əmisi Əqilin övladlarından da 12 nəfəri Kərbəlada hazır idi.

1) Cəfər;

2) Əbdürrəhman;

3) Abdullah;

4) Məhəmməd bin Müslim;

5) Məhəmməd bin Əbu Səid;

[1] Məhəmməd Rza Səngəri, "Ayine dər Kərbəlast", səh. 91.

6) Abdullah əl-Əsğər;
7) Musa bin Əqil;
8) Əhməd bin Əqil;
9) Məhəmməd əl-Əsğər;
10. İbrahim bin Müslim;
11. Müslim bin Əqil;
12. Adı mənbəələrdə yazılmamışdır.

Onların 9 nəfəri Kərbəlada şəhid oldu. 6 nəfərinin anası Kərbəlada idi.

## İMAM HƏSƏNİN (Ə) ÖVLADLARI

İmam Hüseynin (ə) qardaşı imam Həsənin (ə) övladlarından 16 nəfər Kərbəlada iştirak etdi. Onların adı belədir:

1) Həsən bin Həsən Müsənna; O, Kərbəlada yaralandı. Məhərrəm ayının 11-ci günündə onun sağ olduğunu gördülər. O, qoşun tərəfindən əfv edildi və Kufəyə aparıldı. Sonralar imam Hüseynin (ə) qızı Fatimə ilə evləndi.
2) Əmr bin Həsən;
3) Qasim bin Həsən; O da Kərbəlada şəhid oldu.
4) Abdullah bin Həsən;
5) Əhməd bin Həsən;
6) Ümmül-Həsən (yaxud Ümmül-Hüseyn). Abdullah bin Həsən, Əhməd bin Həsən və Ümmül-Həsənin anası da Kərbəlada idi. Ümmül-Həsən düşmənin atları ayağı altında qalaraq şəhid oldu.
7) Məhəmməd bin Həsən (ə);
8) Cəfər bin Həsən (ə); Onların anası Abbas bin Əbdülmütəllibin qızı Ümmü Gülsüm idi;
9) Əbu Bəkr bin Həsən (ə). Onun da anası Kərbəlada idi;
10) Zeyd bin Həsən (ə);
11) Əbdürrəhman bin Həsən (ə);

12) Ümmül-Hüseyn Sani. Bu 3 nəfərin də anası Kərbəlada idi;

13) Hüseyn bin Həsən;

14) Təlhə bin Həsən;

15) Fatimə binti Həsən (ə). Bu xanım imam Baqirin (ə) anasıdır.[1] Bu 3 nəfərin də anası Kərbəlada idi.[2]

## İMAM HÜSEYNİN (Ə) ÖZ ÖVLADLARI

İmam Hüseynin (ə) öz övladlarından 10 nəfər Kərbəlada idi.

1) Əli Əkbər (ə). Anası Leyla idi. Əli Əkbərin 27 yaşı vardı;

2) Əli bin Hüseyn (imam Səccad (ə), onun anası Şəhrəbanu idi. Həzrət Kərbəlada olarkən 23 yaşında idi. Bəziləri imam Səccadı (ə) Əli Əkbərdən böyük hesab etmişər. Çünki imamın ailəsi və uşaqları da Kərbəlada idi.

3) Cəfər. Anası Quzaiyyə idi;

4) Məhəmməd;

5) Abdullah. Onların anası İmriul-Qeysin qızı Rübab idi;

6) Əli Əsğər (ə). Onun anası bəzilərinin dediyinə əsasən, Şəhrəbanu və bəzilərinin nəzərincə isə Leyla idi;

7) Zeynəb;

8) Fatimə. Anası Ümmü İshaq idi;

9) Səkinə. Anası Rübab idi;

10) Rüqəyyə.

---

[1] Qeyd: İmam Baqir (ə) atası və anası ilə birgə Kərbəlada olub. (Tərcüməçi).

[2] Məhəmməd Rza Səngəri, "Ayine dər Kərbəlast", səh. 95

## İMAM HÜSEYNLƏ (Ə) BİRLİKDƏ MƏKKƏDƏN KUFƏYƏ SƏFƏR EDƏNLƏRİN ÜMUMİ SİYAHISI

| | | |
|---|---|---|
| 1 | İmam Hüseynin (ə) övladları | 10 nəfər |
| 2 | İmam Əlinin (ə) həyat yoldaşları | 8 nəfər |
| 3 | Digər xanımlar, (xidmətçilər) | 9 nəfər |
| 4 | Qullar | 18 nəfər |
| 5 | Cəfər bin Əbu Talibin övladları | 5 nəfər |
| 6 | Əqil bin Əbu Talibin övladları | 12 nəfər |
| 7 | İmam Həsənin (ə) həyat yoldaşları | 5 nəfər |
| 8 | İmam Həsənin (ə) övladları | 16 nəfər: 4 qız, 12 oğlan |
| 9 | Bəni-Haşim qadınları | 14 nəfər |
| 10 | Kufəlilər | 7 nəfər |
| 11 | Bəsrəlilər | 9 nəfər |
| 12 | İmam Hüseynin (ə) qardaşları | 9 nəfər |
| 13 | Həzrətlə birlikdə olanların ümumi sayı | 124 nəfər |

124 nəfərdən 44-ü qadın idi. Onlar Məkkədən hərəkət edənlər idi. Yol boyu imama qoşulanlar da oldu.

İmam Hüseyn (ə) onların hər birinə 10 dinar pul, bir dəvə və səfər ləvazimatlarından verdi.[1]

## İMAMIN YAXINLARINDAN SƏFƏRƏ ÇIXMAYANLAR

İmam Hüseynin (ə) yaxınlarında 3 nəfər o həzrətlə qiyamda iştirak etmədi. Bu, çoxları üçün sual doğurub şübhəyə səbəb olan bir məsələdir.

1) Məhəmməd Hənəfiyyə. O, xəstə olduğu üçü imamla birlikdə qiyam etmədi və imam (ə) ona tapşırıq verdi ki, Mədinədə baş verənləri ona çatdırsın. Həmçinin, imam (ə) qiyamının hədəflərini ona açıqlayaraq vəsiyyətini etdi. İmam Hüseyn (ə) Mədinədən Məkkəyə getməmişdən öncə, Məhəmməd Hənəfiyyəyə vəsiyyət edərək qiyamındakı hədəflərini belə açıqladı:

بِسْمِ اللهِ الرَّحْمَنِ الرَّحِيمِ

هَذَا مَا أَوْصَى بِهِ الْحُسَيْنُ بْنُ عَلِيِّ بْنِ أَبِىطَالِبٍ إِلَى أَخِيهِ مُحَمَّدٍ الْمَعْرُوفِ بِابْنِ الْحَنَفِيَّه: إِنَّ الْحُسَيْنَ بْنَ عَلِيِّ يَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللهُ، وَحْدَهُ لاَ شَرِيكَ لَهُ. وَأَنَّ مُحَمَّدًا صَلَّى اللهُ عَلَيْهِ وَءَالِهِ عَبْدُهُ وَرَسُولُهُ، جَاَءَ بِالْحَقِّ مِنْ عِنْدِ الْحَقِّ. وَأَنَّ الْجَنَّه وَالنَّارَ حَقٌّ. وَأَنَّ السَّاعَه ءَاتِيَه لاَ رَيْبَ فِيهَا. وَأَنَّ اللهَ يَبْعَثُ مَنْ فِى الْقُبُورِ. إِنِّى لَمْ أَخْرُجْ أَشِرًا وَلاَبَطِرًا وَلاَمُفْسِدًا وَلاَظَالِمًا وَإِنَّمَا خَرَجْتُ لِطَلَبِ الاْءِصْلاَحِ فِى أُمَّه جَدِّى مُحَمَّدٍ صَلَّى اللهُ عَلَيْهِ وَءَالِهِ؛ أُرِيدُ أَنْ ءَامُرَ بِالْمَعْرُوفِ وَأَنْهَى عَنِ الْمُنْكَرِ، وَأَسِيرَ بِسِيرَه جَدِّى وَسِيرَه أَبِى عَلِيِّ بْنِ أَبِى طَالِبٍ عليهالسلام. فَمَنْ قَبِلَنِى بِقَبُولِ الْحَقِّ فَاللهُ أَوْلَى بِالْحَقِّ، وَمَنْ رَدَّ عَلَيَّ هَذَا أَصْبِرُ حَتَّى يَقْضِيَ اللهُ بَيْنِى وَبَيْنَ الْقَوْمِ بِالْحَقِّ؛ وَهُوَ خَيْرُ الْحَاكِمِينَ. وَ هَذِهِ وَصِيَّتِى إِلَيْكَ يَا أَخِى؛ وَمَا تَوْفِيقِى إِلاَّ بِاللهِ، عَلَيْهِ تَوَكَّلْتُ وَإِلَيْهِ أُنِيبُ. وَالسَّلاَمُ عَلَيْكَ وَعَلَى مَنِ اتَّبَعَ الْهُدَى. وَلاَ حَوْلَ وَلاَ قُوَّه إِلاَّ بِاللهِ الْعَلِيِّ الْعَظِيمِ.

*Rəhman və Rəhim olan Allahın adı ilə.*

*Bu, Hüseyn bin Əlinin (ə) qardaşı Məhəmməd bin Hənəfiyyəyə vəsiyyətidir. Həqiqətən, Hüseyn (ə) Allahın birliyinə və Peyğəmbərin risalətinə, peyğəmbərliyinə şəhadət verir. Şəhadət verir ki, cənnət və cəhənnəm haqdır və qiyamətdə şəkk-şübhə yoxdur və Allah-taala bütün*

---

[1] Məhəmməd Rza Səngəri, “Ayine dər Kərbəlast”, səh. 89-95

*ölüləri dirildəcəkdir. Yezidin əleyhinə qiyam etməkdə məqsədim əbəs yerə, yer üzündə fəsad törətmək və özünü göstərmək məqsədi ilə deyildir. Mən cəddim peyğəmbərin ümmətinin işlərini islah etmək, əmr be məruf və nəhy əz münkər, (yaxşılığa dəvət və pislikdən çəkindirmək) üçün qiyam edirəm. Qiyam edirəm ki, atam Əli bin Əbu Talib və cəddim peyğəmbərin sünnəsi ilə hərəkət edim, əməl edim. Mənim dəvətimi qəbul edən kəsi Allah da qəbul edər. Hər kəs qəbul etməsə, Allah onunla mənim aramda hökm edən zamana qədər səbr edəcəyəm. O, çox gözəl hökm edəndir. Ey mənim qardaşım (Məhəmməd hənəfiyyə), bu, mənim sənə olan vəsiyyətimdir. Əsil yardım edən odur, ona təvəkkül edirəm və ona doğru qayıdıram.*[1]

2) Abdullah bin Abbas bin Əbdülmütəllib. Bu şəxs kor idi və ona görə də imamla birlikdə qiyam edə bilmədi.

3) Xanım Zeynəbin (ə) həyat yoldaşı Abdullah bin Cəfər. Onun da gözləri görmürdü. Abdullahın iki oğlu Kərbəlada şəhid oldu.

## İMAM HÜSEYNİN (Ə) YOLBOYU DAYANDIĞI MƏNTƏQƏLƏR

Məkkədən Kərbəlaya qədər olan yolda çoxlu məntəqələr var idi ki, səfər edənlər orada dayanaraq istirahət edirdilər. İmamın karvanı 36 məntəqədən keçərək Kərbəlaya çatdı. İmam Hüseyn (ə) 36 məntəqədən 26-da dayanmışdır.

[1] Müqərrəm, "Məqtəlul-Hüseyn", səh.156. Xarəzmi, "Məqtəl", c.1, səh.188, Əvalim, "Məqtəl", səh.54.

# MƏNTƏQƏLƏRDƏ BAŞ VERMİŞ HADİSƏLƏR

| MƏNTƏQƏNİN ADI | HADİSƏLƏR |
|---|---|
| Bəni-Amir bağı | Tanınmış şair Fərəzdəq imamla görüşdü ancaq o həzrətə qoşulmadı |
| Tənim | 1- İmam Hüseyn (ə) bu məntəqədə Büheyr bin Risanın karvanı ilə qarşılaşdı. Büheyr Yezidin xəlifəliyini təbrik etmək üçün bir karvan yükü ona aparırdı. İmam karvanı müsadirə etdi. İnsanları isə azad etdi ki, ya getsinlər, ya da imama qoşulsunlar.<br>2- Abdullah bin Ömərin imamla görüşü. O, 3 dəfə təbərrük məqsədi ilə imamın qarnını öpdü. O, imamın məzlumiyyəti üçün göz yaşı axıtdı, amma imamla birlikdə qiyam etməkdən çəkindi. |
| Ətiq vadisi | İmam Hüseyn (ə) bu məntəqədə xanım Zeynəbin (ə) yoldaşı Abdullah bin Cəfərlə görüşdü və xanım Zeynbəin (ə) iki oğlu Əvn və Məhəmməd onlara qoşuldu. |
| Zati-İrq | İmam Hüseyn (ə) bu məntəqədə iki gün dayandı. Çünki buranın həm havası yaxşı idi, həm də əhalisi çox idi. Bu məntəqədən Məkkəyə qədər 92 km-dir. |
| Şəquq | Bu məntəqədə Müslim bin Əqilin və Hani bin Ürvənin şəhadət xəbəri imama çatdı. |
| Zərud | Bu məntəqədə bir dəstə insan imamdan ayrıldı. Züheyr bin Qeyn bu məntəqədə imama qoşuldu. |
| Sələbiyyə | 1- Məsihi Vəhəbin ailəsi imamla görüşdü və onlar imama qoşuldular. |

| | |
|---|---|
| | 2- Müslim bin Əqilin və Hani bin Ürvənin şəhadət xəbəri ikinci dəfə imama çatdı.<br>3- İmam Müslimin ailəsinə onlardan ayrılması üçün izn verdi, ancaq onlar getmədilər. |
| Zubalə | 1- İmamın süd qardaşı Abdullah bin Yəqturun şəhadət xəbəri imama çatdı.<br>2- Müslim bin Əqilin və Hani bin Ürvənin şəhadətinin təfərrüatı imama çatdırıldı.<br>3- Başqa bir qrup imamdan ayrıldı.<br>4- Məhəmməd bin Əşəs Müslim tərəfindən gələrək Kufəlilərin vəfasızlığından xəbər verdi. |
| Vaqisə | İmam Hüseyn (ə) susuzlara su verilməsini əmr etdi. Buradan Kufəyə qədər 3 günlük yol idi. |
| Şəraf | 1- İmam Hüseyn (ə) Hürrün qoşunu ilə qarşılaşdı. Buradan Kufəyə qədər iki məntəqə qalmışdı. Hürrün qoşununun sayı 1000 nəfər idi. İmam onlara su verdi. Onlar namazlarını imamla qıldılar.<br>2- Hürr imama mane olduğu üçün imamın yolu Kufədən Kərbəlaya tərəf dəyişdi. |
| Üzəyb | Bu dayanacağın gözəl havası var idi və ora otlaq idi. Burada 7 nəfər imama qoşuldu. Tərmah səfər yükünü Məkkəyə çatdırmaq üçün imamdan izn istədi və getdi. Ancaq qayıtdıqda, artıq imam və onun kömçiləri şəhid olmuşdular. |
| Kərbəla (Bəni-Muqatil Qəsri) | 1- İmam Hüseyn (ə) Məhərrəm ayının 2-si, həftənin dördüncü günü Kərbəlaya çatdı. Buradan Məkkəyə qədər 430 km-dir. Bu məntəqə tikan və zərərli həşəratlarla dolu və nahamar yer idi.<br>2- İmam Hüseyn (ə) Kərbəlaya daxil olarkən o torpağı öpdü və buyurdu: “Bu, bizim |

| | |
|---|---|
| | şəhid olacağımız torpaqdır."<br>3- İmam atlardan 7-sini dəyişdi. Daha başqa yerə getmədilər. O həzrət Peyğəmbərin (s) libasını geyinərək Kərbəla torpağına daxil oldu.<br>4- İbn Ziyad Hürrə məktub yazıb imamla kəskin rəftar etməsini əmr etdi. Hürr məktubu imama göstərib dedi: "Burada qalmaqdan başqa, çarəniz yoxdur. Elə isə hamılıqla atlardan və dəvələrdən aşağı enin." |

## İMAM HÜSEYN (Ə) KƏRBƏLADA

### MƏHƏRRƏM AYINDA BAŞ VERƏNLƏR

**1-Cİ GÜN**

İmamın karvanı Kərbəla yolunda Bəni-Muqatil Qəsri deyilən mətəqəyə çatdı. Burada Hürr imama mane oldu.

**2-Cİ GÜN**

İmam (ə) Məhərrəm ayının 2-ci günü Kərbəlaya çatdı. O həzrətin köməkçiləri 45 atlıdan və 100 piyadadan ibarət idi.[1]

Kərbəlanın 10 adı vardır:

- Kərbəla;
- Əmura;
- Əqər;
- Nəvavis;
- Ğaziriyyə;
- Zuhəsm;
- Mariyə;
- Təff;
- Şatiul-Furat;

[1] "Şəhadətnameye imam Hüseyn (ə)", səh.398.

- Hair.

Kərbəladan Əlqəməyə qədər təqribən 600 metrdir.

İmam Hüseyn (ə) Kərbəlaya daxil olduqdan sonra, Neynəva və Ğaziriyyənin 36 km-lik ərazininin 4 tərəfini Bəni-Səd qəbiləsindən 60000 dirhəmə aldı. Sonra onlara sədəqə verərək buyurdu və şərt kəsdi ki: “Gələcəkdə mənim qəbrimin zairlərini qarşılayın və onlara 3 gün yemək verin.”

İmam Sadiq (ə) Kərbəla torpağının ərazisinin hər tərəfinin 6.4 km olduğunu deyirdi.[1]

**3-CÜ GÜN**

İbn Ziyad imama Məktub yazaraq onu ölümü seçmək, yaxud Yezidə beyət etmək arasında azad buraxdı. İmam onun cavabında buyurdu: “Sənin cavabın Allah-taalanın sənə vədə verdiyi əzabdır.”

Ömər bin Səd 4000 qoşunla Kərbəlaya daxil oldu. Sonra onların sayı 5000 nəfərə çatdı. İmam Kərbəla ərazisinin digər bir hissəsinin pulunu verib aldı.

**4-CÜ GÜN**

Ömər bin Səd Yezidə məktub yazaraq nə edəcəyini soruşdu. Yezid imam Hüseyndən (ə) beyət almasına israr etdi.

Kufənin 37 yaşlı hakimi Übeydullah bin Ziyad Kufədə kəskin şəkildə xütbə oxuyaraq imama kömək etməkdən çəkindirdi və o həzrətə kömək etmək istəyənləri ölümlə hədələdi.

Kufənin qazısı Şüreyh imam Hüseynin (ə) qanının halal olmasına dair fətva verdi. Əmr verildi ki, Kufənin bütün gediş-gəliş yolları bağlansın.

**5-Cİ GÜN**

Ömər bin Sədin qoşununa əlavə 4000 nəfər də qoşuldu və ümumilikdə, onların sayı 10000 nəfər oldu.

---

[1] Məhəmməd Rza Səngəri, “Ayine dər Kərbəlast”, səh. 143.

İbn Ziyad Əmr bin Həccacın komandanlığı ilə 5000 nəfər qoşun göndərərək İbni Ziyada yazdı ki, imam Hüseynlə (ə) daha da kəskin rəftar edilsin və suyun yolları bağlansın. Bu qoşun Məhərrəmin 6-cı günü Kərbəlaya çatdı.

İmam Hüseyn (ə) Həbib bin Məzahiri Kərbəladan 6 km aralıda yerləşən Bəni-Səd qəbiləsinin yanına göndərdi. Onlardan 90 nəfər imama kömək məqsədi ilə hazır oldular. Onların imama yardım məsələsi Ömər bin Sədə çatdırıldı. Ona görə də, Bəni-Səd qəbiləsini Kərbəladan uzaqlaşdırmaq üçün Əzrəq adında bir nəfərə 4000 qoşun verərək Bəni-Sədə tərəf yolladı. Bəni-Səd qəbiləsinin adamları da oradan uzaqlaşdılar.

**6-CI GÜN**

Yazırlar ki, Ömər bin Sədin əmri ilə Şəbəs bin Rəbiy 3000 nəfərlə Fərat çayını mühasirə etdi. Ömər bin Sədin qoşunu ilə Bəni-Səd qəbiləsi arasında baş vermiş döyüş nəticəsində bir qrup insan şəhid oldu.

İmam Hüseyn (ə) Ömər bin Sədlə xeyməlerəin arasında danışıqlar apardı.

Yezid ordunun maddı vəsaitini təmin etmək üçün İbni Ziyada 4000 dinar və 200000 dirhəm yolladı.

Kufə camaatı 300-400 nəfərlik karvanda imam Hüseynlə (ə) müharibə etmək üçün Kərbəlaya yollandı. 6-cı günə qədər onların sayı 2000 nəfər oldu və Kərbəlaya çatdılar.

**7-Cİ GÜN**

Übeydullah bin Ziyad imam Hüseynlə (ə) vuruşmaq üçün çoxlu sayda qoşun göndərib o həzrəti  hər tərfədən mühasirəyə aldıqdan sonra, Ömər bin Sədə məktub yazdı ki, su ilə imam Hüseyn (ə) arasında fasilə yaratsın və onların su içməsinə mane olsun. Bu hadisə imamın şəhadətindən 3 gün əvvəl baş verdi. İbni Ziyad Hücr bin Hürrün komanadanlığı ilə 4000 nəfəri, Şəbəs bin Rəbinin komandanlığı ilə də 1000 nəfəri – ümumilikdə, 5000 nəfər – suyun

qarşısını almaq üçün Ğaziriyyəyə yolladı. Əmr bin Həccacı da 500 nəfərdən ibarət qoşunla Fərat çayı üçün ayırdı ki, imam və onun köməkçiləri su əldə edə bilməsinlər.

Səkkizinci gecədə Kufədən imama kömək üçün gələn Həbib bin Məzahir Ömər Sədin 400 nəfərlik əsgəri ilə qarşılaşdı. Onların arasında döyüş baş verdi və Həbib çox çətinliklə özünü imama çatdıra bildi.

İmam Hüseyn (ə) su yolunun bağlanmasını və uşaqların susuzluğunu gördükdə, qadınların xeyməsinin arxasında qiblə səmtinə 19 addım ataraq əlindəki dirəklə yeri qazdı və təmiz su yerdən qaynadı. Hamısı o sudan içdilər. Sonra o su yerə çəkildi.

Həzrət Abbas (Əbulfəzl) (ə) imamın göstərişi ilə Əli Əkbər (ə) və 30 atlı, 20 piyada əsgərlə Fərata tərəf yollandı və 20 Məşk doldurub gətirdilər.[1]

**8-Cİ GÜN**

İmam Hüseyn (ə) əsla müharibəyə razı deyildi və çox çalışırdı ki, bu döyüş baş tutmasın. Ona görə də, iki qoşun arasında danışıq və müzakirə üçün bir xeymə quruldu. Hər iki tərəf 20 nəfərlik qoşunla öz rəhbərini mühafizə edirdi.

İmam (ə) Ömər bin Sədi hidayət etmək üçün 4 məsləhət verdi:

1- Həzrət buyurdu ki, bunları burax və mənə qoşul. Bu halda Allah və Rəsuluna (s) daha da yaxın olarsan. Ömər bin Səd dedi: Qorxuram evimi dağıtsınlar.

2- İmam buyurdu: “Mən onu sənin üçün düzəldərəm.” Ömər bin Səd dedi: “Qorxuram əkin sahələrimi əlimdən alsınlar.”

3- İmam buyurdu: “Mən ondan yaxşısını hicazda sənə verərəm.” Ömər Səd dedi: “Ailə-uşağıma zərər dəyməsindən qorxuram.”

---

[1] Məhəmməd Rza Səngəri, “Ayine dər Kərbəlast”, səh. 151-163, “Şəhadətnameye imam Hüseyn (ə)”, səh.422.

4- İmam buyurdu: "Mən onların salamat qalmasına zaminəm." Ömər bin Səd sakit qalaraq bir şey deməd. İmam (ə) ona nifrin etdi və buyurdu: "Sənə nə olmuşdur? Allah səni yatağında öldürsün və qiyamətdə bağışlamasın və ümidvaram İraqın buğdasından azca da yeməyəcəksən."

Ömər bin Səd bu görüşün nəticəsini İbni Ziyada xəbər verdi. İbni Ziyad onu danlayaraq, əmr verdi ki, imam Hüseyn (ə) və onun köməkçiləri ilə Yezidə beyət etmədikləri təqdirdə müharibə etsin.

## 9-CU GÜN

9-cu gündə 6 mühüm hadisə baş verdi:

1- İmam Hüseynin (ə) xeymələri mühasirə olundu;

2- Həzrət Əbulfəzl (ə) tərəfindən Şimrin yazdığı amannamə rədd edildi;

3- İmam Hüseyn (ə) müharibənin təxirə salınmasını tələb etdi;

4- İmam Hüseyn (ə) xütbə oxudu və köməkçilər öz vəfadarlıqlarını elan etdilər;

5- İmam Hüseynin (ə) xeymələrinin ətrafında xəndək qazıldı;

6- İmam Hüseyn (ə) və köməkçiləri şəhadət qüslü verdilər. İmam Hüseyn (ə) həzrət Əli Əkbəri 30 nəfər atlı və 20 nəfər piyada ilə Fərat çayından su gətirmək üçün göndərdi. Onlar su gətirdikdən sonra imam səhabələrinə buyurdu: Qalxın ayağa, su için, dəstəmaz alın, qüsl edin, libaslarınızı yuyun, çünki onlar sizin kəfənlərinizdir.[1]

## 10-CU GÜN

Aşura günü, şəhadət günü, qanların axıdılması günüdür. Bu gündə imam və onun köməkçilərinin başına gələn hadisələrin statistikasını yazacağıq.

[1] Şeyx Səduq, "Əmali", səh.221, 30-cu məclis.

## DÜŞMƏN QOŞUNUNUN SAYI VƏ ONLARIN KOMANDİRLƏRİNİN STATİSTİKASI

| QOŞUN | KOMANDİR | SAYI |
|---|---|---|
| 1 | HÜRR BİN YEZİD RİYAHİ | 1000 NƏFƏR |
| 2 | KƏB BİN TƏLHƏ | 3000 NƏFƏR |
| 3 | ÖMƏR BİN SƏD | 4000 NƏFƏR |
| 4 | ŞİMR BİN ZİLCÖVŞƏN | 4000 NƏFƏR |
| 5 | YEZİD BİN RİKAB KƏLBİ | 2000 NƏFƏR |
| 6 | HƏSİN BİN NƏMİR | 4000 NƏFƏR |
| 7 | MÜZAYİR BİN RÜHEYNƏ | 3000 NƏFƏR |
| 8 | NƏSR BİN HƏRBƏ | 2000 NƏFƏR |
| 9 | ŞƏBƏS BİN RƏBİİ | 1000 NƏFƏR |

Məqtəllərdə yazıldığına əsasən, düşmən ordusunun maksimum sayı 35000 nəfərdir. Kərbəlada Ömər bin Sədin qoşunun sayının 4000, 4500, 20000, 22000, 28000, 30000, 31000 və 35000 olduğu yazılmışdır. Şiə mənbələrində qeyd edilən ən məşhur nəzəriyyəyə əsasən, düşmən qoşununun sayı 30000 olmuşdur.[1]

[1] Şeyx Səduq, "Əmali", səh.464, Məhəmməd Fazil Astarabadi, "Aşura", səh.628.

## TASUA VƏ AŞURANIN STATİSTİKASI

Doqquzuncu gün Şimr öz köməkçiləri ilə İbni Ziyadın yazdığı məktubla zöhrdən sonra Kərbəlaya gəldi. Məktubda belə yazılmışdı: "Əgər Ömər bin Səd müharibə etməzsə, sən ordunun rəhbəri olub döyüşü başla."

Ona görə də, Ömər bin Səd imamla döyüşməyi qəbul edərək tasuanın qürubunda döyüş təbllərini çaldırdı. İmam (ə) doqquzuncu günü zöhrdən sonra, həzrət Əbulfəzl və Əli Əkbərin (ə) vasitəsilə apardığı danışıqlarla, 4 əməli – Namaz qəlmaq, Dua etmək, İstiğfar və Quran tilavət etmək – yerinə yetirmək üçün, Aşura gecəsini möhlət aldı.

İmam Hüseyn (ə) həzrət Əbulfəzli (ə) düşmən ordusunun yanına göndərərək buyurdu: "De ki, bu gecəni təxirə salsınlar. Biz bu gecəni namaz, dua, istiğfar və ibadətlə keçirək. Allah da bilir ki, mən namazı, Quran tilavətini, dua və istiğfar etməyi sevirəm."[1]

## AŞURA GECƏSİNDƏ BAŞ VERƏNLƏR

İmam Hüseyn (ə) köməkçilərini bir yerə toplayaraq onlara höccəti tamamladı. Həzrət onları getmək və qalmaqda azad buraxdı, onlar isə vəfadarlıqlarını bildirdilər.

Səid bin Abdullah dedi: "70 dəfə öldürülsəm, diri-diri yandırılsam və külüm havaya sovrulsa da, ölümü dadmayınca səndən əl çəkmərəm."

Züheyr bin Qeyn dedi: "Əgər 1000 dəfə də öldürülsəm, yenə də canımı sənə qurban edərəm."

Məhəmməd bin Bəşir Həzrəmi dedi: "Əgər səhranın vəhşi heyvanları məni parçalasalar, yenə səndən əl çəkmərəm." Onun oğlu Rey şəhərində əsir olmuşdu. Ona görə də, imam 1000 dinar

---

[1] "Muntəhəl-amal", "Nəfəsul-məhmum" və digər kitablar.

dəyərində 5 dəst paltar göndərdi və buyurdu: “Bunları övladının azadlığı üçün göndər.”

Yezidin qoşunu imama üç şeyi təklif etdi, lakin imam onları rədd etdi:

1- Mədinəyə qayıtmaq;
2- Digər yerlərə getmək;
3- Düşmənə təslim olmaq.

Ona görə də, düşmən imamla müharibə etmək qərarına gəldi.

Bu gecə düşmən ordusundan 32 nəfər imama qoşuldu.[1] İmamın qoşunundakılar özlərinin cənnətə getmək üçün hazır olduğunu görür və bir-birləri ilə zarafatlaşırdı.

İmamın köməkçilərindən olan Büheyr su yolunun açılması üçün Ömər Sədlə danışığa getmişdi. Ömər bin Səd ona dedi: “Hüseyni öldürə bilsəm, 70000 nəfərə komandanlıq edəcəyəm.”[2]

## ÖMƏR BİN SƏD

Ömər bin Səd əvvəl Qəzvində deyləmilərlə müharibə etmək üçün 4000 qoşunla göndərilməliydi, lakin İbni Ziyad onu geri çağırtdırıb imamla müharibə etmək üçün həvəsləndirdi. İbni Ziyad çoxlu sayda insanı müxtəlif komandirlərin rəhbərliyi altında Ömər Sədlə birgə Kərbəlaya yolladı. Onun ordusunun sayı 22000 piyada və atlıdan ibarət idi.[3]

Ən məşhur nəzəriyyəyə əsasən, Ömər bin Səd 4000 nəfərlə su yolunu bağlayaraq imamın sudan istifadəsinə qadağa qoydu. Ömər bin Səd 500 nəfər oxatanı imamın qoşununa hücum etmək üşçün hazır etdi.

---

[1] Seyyid bin Tavus, “Əl-Luhuf”, səh.57.
[2] “Ayine dər Kərbəlast”, səh.177-197.
[3] “Şəhadətnameye İmam Hüseyn (ə)”, səh.409-426.

## ŞİMR BİN ZİLCÖVŞƏN

Şimr 4000 nəfərlə Ömər bin Sədə qoşuldu və onların sayı 9000 nəfərə çatdı. Sonra Zeyd Kəlbi 2000 nəfərlə, daha sonra Həsin Səkuni 4000 nəfərlə, daha sonra Musəb Mazini 3000 nəfərlə və daha sonra isə Həsr bin Hərbə 2000 nəfərlə Sədə qoşuldular.

## AŞURA SÜBHÜNÜN HADİSƏLƏRİ

Aşura sübhü həzrət Əli Əkbərin (ə) azanı və imamın namazı ilə başladı. Onlar namazı birlikdə qıldılar.[1]

| | |
|---|---|
| Zaman | Hicrətin 60-cı ili, Məhərrəm ayının 10 |
| Hava | Hava günlü və buludsuz idi |
| Sübh azanı | 4:41 sübh vaxtı |
| Günün çıxması | 6:30 |
| Günün batması | 17:31 |
| Gündüzün uzunluğu | 11 saat 28 dəqiqə |
| İmamın köməkçilərinin sayı | 145 nəfər, onlardan 45 nəfəri atlı idi |
| Düşmənin ordusunun sayı | Təqribən 33000 nəfər |
| Qoşunun müqayisəsi | İmamın ordusundan hər bir nəfər üçün düşməndən 227 nəfər |
| İmamın ordusnun şüarı | Ya Məhəmməd! (s) |

[1] "Ayine dər Kərbəlast", səh.177-197.

| | |
|---|---|
| Düşmən ordusunun şüarı | Ya xiyələllah ədrikni (Ey Allah ordusu qalxın ayağa.) |
| Haqq ordusnun ali komandanı | İmam Hüseyn (ə) |
| Bayraqdar | Həzrət Əbülfəzl (ə) |
| Sol cinahın komandanı | Həbib bin Məzahir |
| Sağ cinahın komandanı | Züheyr bin Qeyn |
| Düşmən ordusnun komandanı | Ömər bin Səd |
| Piyada qoşununun komandanı | Şəbəs bin Rəbi |
| Bayraqdar | Ömər Sədin qulu Düreyd |
| Atlı qoşununun komandanı | Ürvət bin Qeys |
| Sol sütunun komandanı | Şimr bin Zilcövşən |
| Sağ sütunun komandanı | Əmr bin Həccac Zübeydi |

İmam Hüseyn (ə) Peyğəmbərin (s) "Mürtəciz" adında atını və bir nüsxə Quranını gətirmişdi.

İmam Hüseyn (ə) sübh namazı vaxtı öz səhabələrinə moizə etdi. Onlar 32 atlı və 40 piyada idilər.[1]

İmam Hüseynin (ə) köməkçilərinin sayı barədə müxtəlif rəqəmlər, o cümlədən, 82, 114, 145, 170, 600 və digər rəqəmlər də deyilmişdir. Rəqəmlərin müxtəlifliyi imama qoşulanların çoxalıb azalmasına görə idi.

---

[1] "Məqtəlul-Hüseyn (ə)", "Ənsabul-əşraf" və digər məqtəllər.

Kərbəla şəhidlərinin sayının isə imam Hüseyndən (ə) əlavə, 154 nəfər olduğu deyilir. Onlardan 72 nəfəri imam, Peyğəmbər (s) və həzrət Əlinin (ə) ailəsindən idilər. Ən dəqiq statistikaya əsasən, imamın səhabələri 154 nəfərdən çox idi. 72 nəfər imamın qarşısında düşmənlə təkbətək vuruşmuşdu və yerdə qalanlar isə başı kəsilmiş şəhidlərin sırasında idi.

Oxatanların və döyüş meydanının şəhidlərinin statistikası isə 155 nəfərdir.[1]

## İMAM HÜSEYNİN (Ə) NİFRİNLƏRİ

O HƏZRƏT KƏRBƏLADA BİR NEÇƏ NƏFƏRƏ QARĞIŞ ETDİ:

1- İbn Xəvrə Dəşti. İmam Hüseyn (ə) xeymələrin arxasında xəndək qazdırıb alov yandıranda, İbni Xəvrə imamı məsxərə edərək belə dedi: "Ey Hüseyn (ə), müjdə olsun sənə ki, cəhənnəm odunnan əvvəl dünya alovuna tələsmisən."

İmam (ə) buyurdu: "İlahi, cəhənnəm alovundan əvvəl onu dünya alovunda yandır!"

Bu an İbni Xəvrənin atı hərəkət edərək onu alovun içinə atdı. İmamın köməkçiləri bu hala sevindilər.

2- Təmim bin Həsin Xəzari. İmamın xeymələrinə yaxınlaşıb dedi: "Fərat suyunu görürsüzmü necə dalğalanır? ... And olsun Allaha ki, qoymaram ondan bir qurtum içəsiniz."

İmam buyurdu: "O və onun atası cəhənnəm əhlidirlər. İlahi, bu gün onu susuzluqla öldür. Az bir zamanda susuzluq ona güc gəldi, atdan yerə düşdü və atların ayağı altda qalaraq öldü." Bəziləri isə deyirlər ki, nə qədər su içirdisə qaytarırdı, beləliklə, susuzluqdan öldü.

3- Məhəmməd bin Əşəs Kindi. O, imamı məsxərə edərək dedi: "Ey Hüseyn (ə), sənin Peyğəmbərlə (ə) fəxr etməyə nəyin vardır ki, başqalarında yoxdur?"

---

[1] "Şəhadətnameye imam Hüseyn (ə)", səh.650.

İmam (ə) buyurdu: "İlahi, onun zillət və alçaqlığını mənə göstər." Az keçmədi ki, qoşundan aralanaraq ayaqyoluna getdi. O halda qara bir əqrəb onu çaldı və elə öz nəcasəti içində ödü."[1]

## AŞURANIN İLK ŞƏHİDLƏRİ

Aşura günü müharibə əvvəl Ömər bin Sədin, sonra isə onun oxatanlarının imama tərəf ox atmaları ilə səhər saat doqquzda başladı. Düşmənin oxatanları 500-1000 nəfər idi.

Tarixçi İbni Əsəm Kufi atılan oxların nəticəsində şəhid olanların sayının 50 nəfər və Kufə və Bəsrədən olduqlarını demişdir.

İbn Şəhr Aşub isə onların sayının 28 nəfər olduğunu qeyd etmişdir.

Bəziləri ox atılması nəticəsində heç kəsin şəhid olmadığını yazsalar da, həqiqət budur ki, imamın köməkçilərinin sayı 72 nəfərdən çox olmuşdur. O dövrdə müharibələrdə qarşı tərəfin ruhiyyəsini zəiflətmək üçün əvvəl oxatanlar ox atırdılar. Burada da Ömər bin Səd əvvəlcə ox atır, sonra isə onun qoşunu ox ataraq müharibəni başlayır.[2] İmam Hüseyn (ə) da onlara cavab olaraq ox atmaq əmrini verir.

## OX ATILAN ZAMAN ŞƏHİD OLANLARIN ADLARI VƏ SİYAHISI

| | | | |
|---|---|---|---|
| 1 | Əbdürrəhman bin Əbdi Rəbi Ənsari | 70 yaş | Mədinədən gəldi |
| 2 | Kənanə bin Ətiq | 70 yaş | Məhərrəmin 9-cu günü gəldi |
| 3 | Cəblət bin Əli Şeybani | 50 yaş | Məhərrəmin 8-ci günü gəldi |

[1] "Ayine dər Kərbəlast", səh.177-199.
[2] Mürtəza Mütəhhəri, "Həmaseyi Huseyni", c.3, səh.166 və digər məqtəllər.

| | | | |
|---|---|---|---|
| 4 | İmran bin Kəb Əşcəyi | 50 yaş | Məhərrəmin əvvəlində gəldi |
| 5 | Muni bin Ziyad | 40 yaş | Məhərrəmin əvvəlində gəldi |
| 6 | Əqəbə bin Səlt Cühəni | 65 yaş | Mədinədən gəldi |
| 7 | Məcmə bin Ziyad Cühəni | 50 yaş | Məkkə Kərbəla yolunda imama qoşuldu |
| 8 | Əbbad bin Mühacir | 55 yaş | Xüzeymiyyə məntəqəsində imama qoşuldu. |
| 9 | Süleyman bin Süleyman Əzdi. | 50 yaş | Məhərrəmin 7-ci günü gəldi. |
| 10 | Qasim bin Həbib Əzdi | 40 yaş | Məhərrəmin 5-ci günü gəldi. |
| 11 | Əmr bin Zəbiə Timi | 70 yaş | Məhərrəmin 7-ci günü gəldi. |
| 12 | Həbəşə bin Qeys | 38 yaş | Məhərrəmin 5-ci günü gəldi. |
| 13 | Zeyd bin Məqil | 40 yaş | Kərbəlada imama qoşuldu |
| 14 | Əmmar (Amir) bin Həssan Tayi | 40 | Məkkədə imama qoşuldu |
| 15 | Qüzəb bin Əmr Qəməri | | Məhərrəmin 2-ci günü gəldi. |
| 16 | Hübab bin Əmr (Amir) | 45 yaş | Məhərrəmin 2-ci günü gəldi. |
| 17 | Salim bin Amir | 45 yaş | Məhərrəmin 2-ci günü gəldi. |
| 18 | Züheyr bin Bəşir Xəsəmi | 48 yaş | Bətni-Əqəbə məntəqəsində imama qoşuldu. |
| 19 | Nüeym bin Əcəlan Ənsari Xəzrəci | 70 yaş | Bətni-Əqəbə məntəqəsində imama qoşuldu. |

| | | | |
|---|---|---|---|
| 20 | Seyf bin Malik Əbdi Bəsri | 50 yaş | Məkkədə imama qoşuldu. |
| 21 | Xüzeymə Kufi. Ömər bin Sədin qoşunundan ayrılıb imama qoşuldu. | | Məhərrəmin 3-cü günü imama qoşuldu. |
| 22 | Üməyyə bin Səd Tayi | 60 yaş | Məhərrəmin əvvəli gəldi. |
| 23 | Qarib bin Abdullah Deyləmi. | 40 yaş | Kərbəla yolunda imama qoşuldu. |
| 24 | Ədhəm bin Üməyyə Əbdi Bəsri | 45 yaş | Əbtəh məntəqəsində imama qoşuldu. |
| 25 | Müslim bin Kəsir Ərəc (Əsləm bin Kəsir) | 70 yaş | Kufədən gəldi. |
| 26 | Bəkr bin Həyy bin Timullah | 51 yaş | Ömər bin Sədin qoşunundan ayrılıb imama qoşuldu. |
| 27 | Amir bin Müslim Əbdinin qulu Salə | 37 yaş | Əbtəh məntəqəsində imama qoşuldu. |
| 28 | Nəsr bin Əbu Neyzər | 43 yaş | Mədinədən gəldi. |
| 29 | Nöman bin Əmr Əzdi | 50 yaş | Məhərrəmin 8-ci günü gəldi. |
| 30 | Məsud bin Həccac Timi | 50 yaş | Məhərrəmin 8-ci günü gəldi. |
| 31 | Əbdürrəhman bin Məsud bin Həccac | 20 yaş | Atası ilə birlikdə gəldi. |
| 32 | Cundəb bin Hüceyr Kindi | 70 yaş | Hacir məntəqəsində imama qoşuldu. |
| 33 | Hüceyr bin Cundəb Kindi | 25 yaş | Atası ilə birlikdə gəldi. |
| 34 | Züheyr bin Süleym Əzdi, Ömər bin Sədin qoşunundan ayrıldı. | 70 yaş | Aşura gecəsi imama qoşuldu. |

| | | | |
|---|---|---|---|
| 35 | Hərs (Haris) bin İmrul-Qeys Kindi | 50 yaş | Aşura gecəsi imama qoşuldu. |
| 36 | Amir bin Müslim | 50 yaş | Zilhiccənin 8-ci günü imama qoşuldu. |
| 37 | Zahir bin Əmr Kindi | 70 yaş | Kufədən gəldi |
| 38 | Əmmar bin Əbi Səlamə | 56 yaş | Məhərrəmin 2-ci günü gəldi |
| 39 | Qasit bin Zəhr Sələbi | 55 yaş | Məhərrəmin 5-ci günü gəldi |
| 40 | Müqsit bin Zəhr bin Haris (Qasitin qardaşı) | 52 yaş | Məhərrəmin 5-ci günü gəldi. |
| 41 | Kerdus bin Züheyr (Qasitin qardaşı) | 50 yaş | Məhərrəmin 5-ci günü gəldi. |
| 42 | Şəbib bin Cavad | 67 yaş | Aşura gecəsi imama qoşuldu. |
| 43 | Ömər bin Cundəb Həzrəmi | 50 yaş | Bəni-Müqatil Qəsri məntəqəsində imama qoşuldu. |
| 45 | Übeydullah bin Yezid (qardaşı və atası ilə birgə) | 22 yaş | Zilhiccənin 8-ci günü Məkkə yolunda imama qoşuldu. |
| 46 | Abdullah bin Yezid | 25 yaş | Zilhiccənin 8-ci günü Məkkə yolunda imama qoşuldu. |
| 47 | Hulas bin Əmr Əzdi (qardaşı Nömanla birgə) | 55 yaş | Məhərrəmin 8-ci günü gəldi. |
| 48 | Haris bin Benhan | 60 yaş | Mədinədən imamla birgə idi. |
| 49 | Abdullah bin Bişr bin Rəbiə | 45 yaş | Məhərrəmin 8-ci günü düşməndən ayrılıb imama qoşuldu. |
| 50 | Səd bin Hərs Xuzai | 70 yaş | Mədinədən gəldi. |

| | | | |
|---|---|---|---|
| 51 | Həccac bin Bədr Təmimi | 50 yaş | Məhərrəmin 5-ci günü gəldi. |
| 52 | Cabir bin Həccac Timi | 45 yaş | Kərbəlada imama qoşuldu. |

Adları qeyd edilən 52 nəfər döyüşün başlanğıcında oxlarla yaralanıb şəhid oldular. Elə bir insan yox idi ki, ona ox dəyməsin.

Ömər bin Sədin qoşunundan meydana gəlib mübariz tələb edən ilk şəxs Übeydullah bin Ziyadın qulu Yəsar və Ziyad bin Übəyyənin qulu Salim idi. Həbib bin Məzahir və Büreyr bin Xüzeyr ayağa qalxdılar ki, ona cavab versinlər, lakin imam icazə vermədi. Ümmü Vəhəbin yoldaşı Abdullah bin Ümeyr Kəlbi imamdan izn alaraq meydana gedib hər ikisini öldürdü.

## MÜHARİBƏDƏ ŞƏHİD OLANLARIN SAYI VƏ ADLARI

İmam Hüseynin (ə) digər səhabələri düşmənlə təkbətək vuruşaraq şəhid oldular. Onların sayı 48 nəfərdir.

Onların ən azyaşlısı 12 yaşlı Əmr bin Cunadə və ən yaşlısı isə 80 yaşlı Həbib bin Məzahir idi.

Təkbətək döyüş təqribən, 3 saat çəkdi. Hər bir şəhid döyüşdən əvvəl rəcəz oxuyurdu. Rəcəzlərin sayı təqribən, 102 beytdir.[1]

Təkbətək döyüşün şəhidləri bunlardır:

**1)** Müslim bin Övsəcə Əsədi. Müslim həm Peyğəmbərin (s), həm imam Əlinin (ə) və həm də Müslim bin Əqilin səhabələrindən və köməkçilərindən idi. İmama silah alıb-verməklə o həzrətə kömək etdi. Məhərrəm ayının 4-cü günü, yoldaşı, kənizi və övladı ilə imama qoşuldu. Tarixçilər Müslimi imam qarşısında (təkbətək döyüşdə) şəhid olan ilk şəxs hesab edirlər. Düşmənin

[1] "Ayine dər Kərbəlast", səh.298.

qoşunundan 50 nəfəri ödürdü. Onun 50 yaşı var idi. Onun şəhadəti ilə düşmən sevinərək səslənməyə başladı.

**2)** Vəhəb bin Abdullah bin Ümeyr Kəlbi Kufi. Kufədən idi. Onun 30 yaşı var idi. Anası Qəmər və həyat yoldaşı Haniyə Məhərrəmin 8-ci günü imama qoşuldular. Yazırlar ki, Hürrdən sonra təkbətək döyüşdə şəhid olan şəxs idi. O, dörd nəfəri öldürərək şəhid oldu. Onun başını kəsib anasına tərəf atdılar. Anası da oğlunun başını onlara tərəf atıb dedi: "Allah yolunda verdiklərimizi geri almırıq." Kərbəlada başı kəsilmiş ilk şəxs bu idi.

**3)** Vəhəbin həyat yoldaşı Haniyə. Haniyə 17 gün idi ki Vəhəblə ailə qurmuşdu. Vəhəbin şəhadətindən sonra Xeymənin dirəyini götürüb düçmənə hücum etdi. Düşmən əvvəlcə onun ayağını kəsdi və sonra da bir nizə ilə şəhid etdi. Onun 18-20 yaşı var idi. Haniyə Kərbəlada şəhid olan ilk qadındır.

**4)** Hürr bin Yezid Riyahi. Hürr Zuhəsm məntəqəsində zöhr namazı vaxtı imamla qarşılaşdı. O və onun qoşunu imamın verdiyi su ilə sirab oldu. Aşura günü, səhər vaxtı, peşman olaraq imama tərəf qayıtdı və tövbə etdi. İmamdan izn alaraq meydana getdi 18-42 nəfəri öldürdü. Ömər bin Səd əmr verdi ki, 500 nəfər oxatan onu nişan alsın. Hürrün 50 yaşı var idi.

**5)** Müsəb bin Yezid Rəyahi. Bu şəxs Hürrün qardaşı idi. O da Aşura günü düşməndən ayrılıb imama qoşuldu və şəhid oldu. Onun 45 yaşı var idi.

**6)** Qürrə. Bu, Hürrün qulu idi. Hürrün şəhadətindən sonra imama qoşuldu. Bunun 40 yaşı var idi.

**7)** Əli bin Hürr Rəyahi. Bu Hürrün oğlu idi. Atası ilə birlikdə gəlmişdi. Atasından əvvəl 24 nəfəri öldürməklə şəhid oldu. Onun 25 yaşı var idi.

**8)** Cüveyn bin Malik bin Qeys Kufi. Onun 50 yaşı var idi və Aşura gecəsi düşmən ordusundan ayrılıb imama qoşuldu.

9) Muncih bin Səhm. O, imam Hüseynin (ə) qulu və anası Hüsniyə xanım da imam Hüseynin (ə) kənizi idi. Onun 35 yaşı var idi.
10) Yezid bin Hüseyn Həmdani, (Bureyr bin Xüzeyr). Üzeyb məntəqəsində imama qoşuldu. Quran qarisi və 50 yaşlı idi.
11) Yezid bin Məqil Yəməni. Məkkədən imamla birgə idi. Onun 57 yaşı var idi.
12) Səd bin Hənzələ Təmimi. Onun 45 yaşı var idi və Məhərrəmin 2-si, ya 3-ü imama qoşuldu.
13) Xalid bin Əmr Əsədi Seydavi. Zilhiccə ayının 28-i imama qoşuldu. Quran qarisi və 20 yaşlı idi. Düşməndən 7 nəfərini öldürdü.
14) Yezid bin Sübeyt Əbdi Bəsri. Əbtəh dayanacağında imama qoşuldu. Təqribən, 55 yaşlı idi. Onun 10 oğlu var idi. Hamısını imamın köməyinə dəvət etdi. Abdullah və Übeydullah adlı oğlu qəbul edərək Kərbəlada şəhid oldu.
15) Şəbib bin Abdullah Nəhşəli. Onun 52 yaşı var idi. Şiənin böyük hədisçilərindən və görkəmli şəxslərindən idi. O, Mədinədən imamla gəldi.
16) Hənzələ bin Əsəd Kufi. Quran qarisi idi. Gözəl nitqi vardı və 40 yaşında idi. Məhərrəmin 8-i imama qoşuldu.
17) Seyf bin Hərs. Onun 32 yaşı var idi. Öz ögey qardaşı Malik bin Abdullah ilə Məhərrəmin 4-ü imama qoşuldu.
18) Malik bin Abdullah. O, öz qardaşı ilə imama qoşuldu. 24 yaşı var idi.
19) Yezid bin Mühacir Behdili. Onun 40 yaşı var idi. Şəraf məntəqəsində imama qoşuldu. 9 nəfəri öldürərək şəhid oldu.
20) Ümeyr bin Abdullah. Məhərrəmin 3-ü imama qoşuldu. 40 və ya 45 yaşlı idi.

**21)** Cabir bin Ürvə. Məhərrəmin 2-si imama qoşuldu. 72 yaşı var idi. Düşmən ordusundan çoxunu öldürdü. Əbu Müxnəf deyir ki, 58 nəfəri öldürdü.

**22)** Covn bin Huvəyy. O, Əbuzərin qulu idi. Əbuzər onu azad etdi. Mədinədən imamla birgə idi. 65 yaşı var idi. Qarşı tərəfdən 25 nəfərini öldürdü.

**23)** Əmr bin Muta. 45 yaşı var idi və Məhərrəmin 3-ü imama qoşuldu.

**24)** Üneys bin Məqil İsbəhi. Yol əsnasında imama qoşuldu. 45 yaşı var idi və düşmən ordusundan 25 nəfəri öldürdü.

**25)** Nafe bin Hilal Cəməli Muradi. İmam Hüseynin (ə) seçilmiş səhabələrindən və Quran qarisi idi. İmam Əlinin (ə) zamanındakı 3 müharibədə də iştirak etmişdi. O, Əhli-beyti (ə) sevən insan idi. Aşura günü öz adını oxlarının üstünə yazmışdı. Düşmən ordusundan 12-70 nəfəri öz oxu ilə öldürdü. Sonra qılıncı ilə vuruşdu. Onun 45 yaşı var idi. Şimrin əmri ilə onun başını kəsdilər.

**26)** Əmr bin Cunadə. Onun atası Aşura günü düşmənin atdığı oxlarla şəhid oldu. Özünün 11 yaşı var idi. Bəziləri isə 21 yazmışlar. Bəziləri də yazmışlar ki, onun da başını kəsdilər və anasına tərəf atdılar. Anası oğlunun başını götürüb düşmənə hücum etdi və dedi: "Allah yolunda verdiklərimizi geri almırıq."

**27)** Abdullah bin Ürvə Ğəffari. Qardaşı Əbdürrəhmanla Məhərrəmin əvvəlində imama qoşuldu. Onun 25 yaşı var idi.

**28)** Əbdürrəhman bin Ürvə. 23 yaşlı idi.

**29)** Məcmə bin Abdullah. 3 övladı ilə Zübalə məntəqəsində imama qoşuldu və övladları ilə birlikdə şəhid oldu. 50 yaşı var idi.

**30)** Aiz bin Məcmə bin Abdullah. 25 yaşı var idi.

**31)** Cunadə bin Hərs. O, Müslimin Kufədə köməkçilərindən idi və Zilhiccənin 8-i imama qoşuldu. O, 70 yaşında idi.

**32)** Səid bin Abdullah. Əmr bin Xalid Əzdinin qulu idi. Sahibi Əmrlə Üzeyb məntəqəsində imama qoşuldu. Onun 25 yaşı var idi. O, imam Hüseynin (ə) namazının şəhidi idi. (İmam Hüseyn (ə) namaz qılarkən onlar o həzrəti qorumaq üçün onun qabağında dayandılar ki, oxlar imama dəyməsin).

**33)** Əmr bin Xalid Əsədi. Onun 45 yaşı var idi. Müslimin Kufədə kömçilərindən idi və Üzeyb məntəqəsində imama qoşuldu.

**34)** Cunadə bin Kəb bin Haris Ənsari. Peyğəmbərin (s) səhabələrindən idi. Onun 70 yaşı var idi və Məkkədən Kərbəlaya gəlmişdi.

**35)** Əsləm bin Əmr Türki (Süleyman). Türk və Deyləm əhlindən idi. Quran qarisi, şair, imamın aşiqi, şücaətli və hədis ravisi idi. Kərbəlada uşaqlar üçün şeir və nağıl danışırdı. Onun 45 yaşı var idi. Şəhid olanda imam üzünü onun üzünə qoydu. O həzrət bu işi oğlu Əli Əkbərlə (ə) də etmişdir.

**36)** Əbdürrəhman Ərcəni Kufi. 50 yaşı var idi və Məhərrəmin əvvəli imama qoşuldu.

**37)** Şuzəb bin Abdullah Həmdani. 70 yaşı var idi və Məkkədən Kərbəlaya gəldi.

**38)** Abis bin Əbişəbib Şakiri. Onun 75 yaşı var idi və Zilhiccənin 8-i, Məkkədən imamla birlikdə idi.

**39)** Əbu Ümrə Ziyad bin Üreyb. Quran hafizi və Quran qarisi idi. 70 yaşı var idi və Məhərrəmin 5-i imama qoşuldu.

**40)** Xələf bin Müslim (Abdullah) bin Övsəcə. 12, ya da 20 yaşlı idi.

**41)** Əbdürrəhman bin Abdullah Hümeyri. 45 yaşı ildi və Kərbəlada imama qoşuldu.

**42)** Büreyr bin Xüzeyr Həmdani. Quran qarisi, təfsirçisi, hədis katibi və ravisi idi. İmamın izni ilə düşmənlə danışıqlar apardı ki, onları geri qaytara bilsin. Onun 60 yaşı var idi.

**43)** Yəhya bin Süleym Mazini. 50 yaşı var idi və Şəquq məntəqəsində imama qoşuldu.

**44)** Həbib bin Məzahir Kufi. Peyğəmbər (s) və imam Əli (ə) və imam Həsənin (ə) səhabələrindən idi. O, bir gecədə Quran xətm edirdi. Cəfr elmini bilirdi. Məhərrəmin 5-i, ya da 6-sı imama qoşuldu. Onun 80 yaşı var idi və imam Hüseynin (ə) seçilmiş səhabələrindən idi.

**45)** Qürrə bin Əbi Qürrə Ğəffari. Məhərrəmin əvvəli imama qoşuldu. 70 yaşı var idi. Düşmən ordusundan 25 nəfər onun əli ilə öldürüldü.

**46)** Ənəs bin Haris Kahili. Peyğəmbər (s) və imam Əlinin (ə) köməkçilərindən idi. Məhərrəmin 6-sı imama qoşuldu. O, 78 və ya 80 yaşlı idi. Düşmən ordusundan 18 nəfəri öldürdü.

## İMAMIN DİZİ ÜSTƏ CAN VERƏN ŞƏHİDLƏR

İmam Hüseyn (ə) Aşura günü atdan düşərək son anda 9 nəfərin yanında əyləşdi və onlar həzrətin dizi üstündə və imamın yanında can verərək yaxından imamla vidalaşdılar:

**1-** Müslim bin Övsəcə. İmam ona buyurdu: "Allahın rəhməti olsun sənə, ey Müslim."

**2-** Hürr bin Yezid Rəyahi. İmam ona buyurdu: "Sən (hürr) azad insansan. Necə ki, anan da səni (hürr) azad adlandırmışdır."

**3-** Əsləm Türk. İmam üzünü onun üzünə qoydu.

**4-** Cəvn bin Hiva. İmam buyurdu: "Ey mənim Allahım, onun üzünü ağ et."

**5-** Abbas bin Əli (ə), həzrət Əbülfəzl (ə). İmam (ə) buyurdu: "İndi mənim belim sındı və köməksiz qaldım."

**6-** Həzrət Əli Əkbər (ə). İmam buyurdu: "Səndən sonra kül bu dünyanın başına."

**7-** Qasim bin Həsən (ə). İmam buyurdu: "Allah rəhmətindən uzaq düşsün sənin qatillərin."

**8-** Səid bin Abdullah. İmam Hüseyn (ə) namaz qılanda, o, həzrətdən öndə dayanıb özünü imama sipər etdi ki, oxlar imama dəyməsin. 13 ox ona dəymişdi. İmam ona buyurdu: "Sən cənnətdə də mənim önümdəsən."

**9-** Züheyr bin Qeyn. İmam ona buyurdu: "Allah səni rəhmətindən uzaq etməsin və qatillərinə lənət etsin."

## NAMAZ ŞƏHİDLƏRİ VƏ ZÖHRDƏN SONRAKI ŞƏHİDLƏRİN AD VƏ SAYLARI

Namaz şəhidləri 11 nəfərdir ki, onlardan ikisi namaz əsnasında və 9 nəfəri isə namazdan sonra şəhid oldu.

1- Səid bin Abdullah Hənəfi. Zilhiccənin 8-i imama qoşulmuşdu və 50 yaşı var idi.

2- Əmr bin Qərzə Ənsari. Onun 60 yaşı var idi. Qardaşı isə Ömər bin Sədin qoşununda idi.

3- Əbu Sumamə Əmr bin Abdullah. 60 yaşı var idi və Kufədən gəlib Üzeyb məntəqəsində imama qoşuldu.

4- Züheyr bin Qeyn. İmam Hüseynin (ə) ordusunun sağ cinahının komandanı idi. Tasuanın qürubunda həzrət Əbülfəzl (ə) başda olmaqla, 20 nəfərlə Ömər bin Səd ilə söhbət edərək Aşura gecəsi üçün möhlət aldılar. Aşurada 120 nəfəri öldürdü.

5- Salman bin Muzarib. Onun 40 yaşı var idi və Züheyrin əmisi oğlu idi. Zərud məntəqəsində imama qoşuldu.

6- Bəşir bin Ömər. 50 yaşlı idi və Məhərrəmin 3-ü imama qoşuldu.

7- Zərğamə bin Malik. Onun 30 yaşı var idi. Məhərrəmin 3-ü Ömər bin Sədin qoşunundan ayrılıb imama qoşuldu.

8- Həccac bin Məsruq Cöfi. O, Kufədən gəlib özünü Məkkədə imama çatdırmışdı. Onun 50 yaşı var idi. O, Kərbəlanın müəzzini, azan verəni idi.
9- Əbulhətuf bin Hərs. 52 yaşı var idi. Onun keçmişi yaxşı deyildi. Çünki xəvaricdən idi. Kərbəlada isə imamın kömək istəməsini gördükdə, qardaşı ilə birlikdə imama qoşuldu.
10- Səd bin Hərs. Əbulhətufun qardaşı idi. 55 yaşı vardı.
11- Rafe bin Abdullah Əzdi. 40 yaşı var idi. O, Müslim bin Kəsirin qulu idi. Öz sahibi ilə birlikdə Bəni-Müqatil məntəqəsində imama qoşuldu.

## BƏNİ-HAŞİM ŞƏHİDLƏRİ

Bəni-Haşim şəhidlərinin sayı tarixi mənbələrdə ixtilaflıdır:

1) Bir mənbədə imam Hüseynlə (ə) birlikdə onların sayı 18 nəfər olaraq bildirilir;
2) Təbərinin "Tarix" kitabında Müslim bin Əqil ilə birgə 19 nəfər;
3) "Mürucuz-zəhəb", 13 nəfər;
4) Şeyx Müfidin "Əl-İrşad" kitabında imam Hüseynlə (ə) birlikdə 18 nəfər;
5) "Məqatilut-talibin"də 22 nəfər;
6) "Əyanuş-şiə", 30 nəfər;
7) Xarəzminin "Məqtəlul-Hüseyn" kitabı, 17 nəfər;
8) "Ənsarul-Hüseyn (ə) " kitabı, 17 nəfər.

Məşhur nəzəriyyəsə əsasən, Bəni-Haşim şəhidlərinin sayı imam Hüseyn (ə) olmaqla birgə 18 nəfərdir ki, imam Zaman (ə.c) ziyarətnamədə ona işarə etmişdir:

1) İmam Hüseyn (ə) və iki övladı Əli Əkbər və Əli Əsğər. 3 nəfər;
2) İmam Əlinin (ə) övladları 5 nəfər;
3) İmam Həsənin (ə) övladlar 3 nəfər;
4) Əqilin övladları 5 nəfər;

5) Abdullah bin Cəfərin (xanım Zeynəbin (ə)) övladları 2 nəfər.

İmam Hüseyn (ə) və Bəni-Haşim şəhidlərindən əlavə, mənbələrdə şəhidlərin sayının 82 nəfər olduğu bildirilmişdir. Ən sonda imam Hüseyn (ə) şəhid olmuşdur. İmamı nəzərə almasaq, Bəni-Haşimin ilk şəhidi Əli Əkbər (ə) və sonuncu şəhidi isə Əli Əsğər idi.

İmam Hüseynin (ə) köməkçilərindən bəzi yaralılar var idi ki, düşmən sonralar onlara toxunmadı:

1) Səvar bin Himəyr Cabiri. O, Aşuradan 6 ay sonra dünyasını dəyişdi;
2) Ömər bin Abdullah. Aşuradan bir il sonra dünyasını dəyişdi;
3) İmam Həsənin (ə) övladlarından olan Həsən bin Həsən (əl-Müsənna).

O, Əli Əkbərdən (ə) sonra ikinci əsgər idi ki, qolları yaralandı və bihuş oldu. Onun şəhid olduğunu güman etdilər. Lakin növbəti gün şəhidlərin başlarını bədənlərindən ayıran zaman, ana tərəfdən Həsən bin Həsənə qohumluğu çatan Əsma bin Xaricə onun qətlə yetirilməsinə mane oldu. Onu özü ilə Kufəyə apardı və müalicə etdi. Sonra isə Mədinəyə göndərdi. Sonralar imam Hüseynin (ə) qızı Fatimə ilə ailə qurdu. O, 50 yaşında ikən zəhərlə qətlə yetirildi və şəhid oldu və Bəqi qəbrəstanlğında dəfn edildi.[1]

Ümmül-Bəninin (ə) imam Əlidən (ə) olan4 oğlu şəhid oldu:

1) Abbas bin Əli, Əbülfəzl (ə);
2) Abdullah bin Əli (ə). O, 25 yaşında Kərbəlada şəhid oldu;[2]
3) Osman bin Əli (ə);
4) Cəfər bin Əli (ə).

[1] "Ayine dər Kərbəlast", səh.388-466.
2. "Məqatilut-talibin", c.1, səh.32.

# BƏNİ-HAŞİM ŞƏHİDLƏRİNİN SİYAHISI

| Şəhidlərin adı | | yaşı | sırası |
|---|---|---|---|
| 1 | İmam Hüseyn (ə) | 57 | 24-cü şəhid |
| 2 | Övn bin Cəfər Təyyar | 57 | 3-cü şəhid |
| 3 | Məhəmməd Hənəfiyyənin qardaşı, Məhəmməd bin Əli (ə) | 36 və ya (22) | 9-cu şəhid |
| 4 | Əbdürrəhman bin Əqil | 35 | 5-ci şəhid |
| 5 | Abbas bin Əli (ə), həzrət Əbülfəzl (ə). | 34 | 23-cü şəhid |
| 6 | Əliyyibnil-Hüseyn (Əli Əkbər) (ə) | 27 | 1-ci şəhid |
| 7 | Abdullah bin Əli (ə), Ümmül-Bənininin oğlu. | 25 | 12-ci şəhid |
| 8 | Cəfər bin Əqil | 25 | 4-cü şəhid |
| 9 | Ömər bin Əli (ə), onun Kərbəlada şəhid olması şübhəlidir.[1] | 35 | 11-ci şəhid |
| 10 | Ümmül-Bəninin oğlu Osman bin Əli (ə) | 21 | 13-cü şəhid |
| 11 | Ümmül-Bəninin oğlu Cəfər bin Əli (ə) | 23 (19) | 15-ci şəhid |
| 12 | Ovn bin Abdullah bin Cəfər, xanım Zeynəbin (ə) oğlu | 20 | 17-ci şəhid |
| 13 | Məhəmməd bin Abdullah bin Cəfər, xanım Zeynəbin (ə) oğlu | 18 | 8-ci şəhid |
| 14 | Əhməd bin Həsən (ə), imam Həsənin (ə) oğlu | 16 (35) | 10-cu şəhid |
| 15 | Qasim bin Həsən (ə) imam Həsənin (ə) oğlu | 14 ya 16 | 18-ci şəhid |
| 16 | Abdullah bin Müslim bin Əqil | 26 (14) | 2-ci şəhid |

[1] "Şəhadətnameye İmam Hüseyn (ə)", səh.594.

| | | | |
|---|---|---|---|
| 17 | Məhəmməd bin Müslim bin Əqil | 13 | 7-ci şəhid |
| 18 | Abdullah bin Həsən (ə) | 11 | 19-cu şəhid |
| 19 | Məhəmməd bin Əbi Səid bin Əqil | 25 | 20-ci şəhid |
| 20 | Abdullah Rəzi (Əli Əsğər) | 6 aylıq | 21-ci şəhid |
| 21 | Rübabın oğlu Abdullah bin Hüseyn (ə) | 1 ya 3 günlük | 22-ci şəhid |
| 22 | Musa bin Əqil bin Əbi Talib (ə) | | 6-cı şəhid |
| 23 | Übeydullah bin Abdullah bin Cəfər | 20 | 16-cı şəhid |
| 24 | Abdullah bin Əqil | 33 | 14-cü şəhid |

Bəni-Haşim şəhidlərinin orta yaşı 34 idi. Bəni-Haşim şəhidlərinin sayı 24 nəfər idi və onların 8-i imam Əlinin (ə) övladlarındandır.

## İMAM HÜSEYNİN (Ə) KƏRBƏLADA ŞƏHİD OLDUĞU AN

58 il mübarək ömründən keçirdi. 7 il Peyğəmbərlə (s) birlikdə, 37 il atası ilə, 47 il qardaşı imam Həsənlə (ə) yaşamışdı. 11 illik imaməti Kərbəlada şəhid olmaqla imam Səccada (ə) ötürüldü.

Mötəbər kitablarda nəql olunmşdur ki, imam Hüseyn (ə) tək qaldıqdan sonra, vidalaşmaq üçün xeymələrə qayıtdı. 62 xeymə qurulmuşdu.

İmam libasının üstündən başqa bir paltar geyindi ki, şəhid olduqdan sonra bədəni çılpaq qalmasın. Sonra xeymədə xəstə yatan imam Zeynəl-Abidinin (ə) yanına getdi və ona vəsiyyət etdi. Sonra Fərata tərəf gələrək düşməndən mübariz istədi. Heç kəs imamla təkbətək vuruşmağa cürət etmirdi. İmam Ömər bin Sədin ordusunun hansı tərəfinə hücum edirdisə, onlardan çoxlu sayda insanı öldürüb yaralayırdı.

İmam Hüseyn (ə) rəcəz də oxudu. Birinci rəcəzdə 33 beyt var idi ki, 25 beytdə imam Əlinin (ə) fəzilətlərini bəyan etmişdir.

Nəhayət düşmən hər tərəfdən imamı ox atəşinə tutdu. Oxlar bir-bir imamın bədəninə sancılırdı. Ümumilikdə, 4000 oxatan, qılınclı və nizə vuran şəxs imama hücum etmişdi.

Ən yaxından vurulun birinci zərbə Malik bin Bişrin vasitəsilə oldu. O, imamın başına qılıncla vurdu və o həzrətin başından qan axmağa başladı. Həzrət xeymələrə qayıtdı və bir neçə iş gördü:

1- Başının yarasını bağladı;
2- Yarasının üstündən əmmaməsini bağladı;
3- Libasının altından başqa bir paltar geyindi və üst paltarını cırdı ki, düşmən onun libasına tamah salıb bədənini çılpaq etməsin.

Yaralı imamdan qan getdikdən sonra imam at üstündə dayana bilmədi və yerə endi. Dizləri üstündə əyləşdi və nizəsinə söykəndi. Düşmən yavaş-yavaş imama yaxınlaşdı. Hətta əlində silahı olmayanlar daşla imamı vururdular. Bir daş alnına, bir nizə boğazına və hərmələnin oxu da həzrətin sinəsinə sancıldı. İmam başını asimana qaldırıb dedi: "İlahi, sənə agahdır ki, bunlar sənin peyğəmbəinin övladını qətlə yetirirlər."

İmam başının və üzünü qanını ovucuna alıb səmaya tərəf səpirdi. İmamı vuranları imam nifrin edirdi. İmam otura bilmirdi. Yerə uzanmalı oldu.

Bir tərəfdən də xanım Zeynəb (ə) fəryad edir, kömək istəyirdi. O, nə qabağa gələ, nə də xeyməyə qayıda bilirdi. Xanım Zeynəb Ömər bin Sədə xitab edərək qardaşı imam Hüseyndən (ə) uzaqlaşmalarını istədi. Amma heç kəs əhəmiyyət vermədi. O da onları nifrin etdi.

Bu vaxt 10 nəfər xeymələrə hücum etdi. İmam buyurdu: "Əgər dininiz, imanınız yoxdursa, və məaddan qorxmursunuzsa, heç olmasa azad insan olun və xeymələri, ailəmi soyğunçu insanlardan

qoruyun.” Şimr onları qaytardı. Şimrdən başqa, heç kəs imamın başını kəsməyə cürət etmirdi. O, imamın sinəsinə çıxdı və imamın başını kəsdi. Bütün bunları xanım Zeynəb (ə) müşahidə edirdi.

İmam Hüseyn (ə) 4 dəfə meydanda döyüşdü. Son anlarında 7 nəfər imama yaxınlaşdı ki, onu qətlə yetirsin. Onların adları belədir:

1- Şimr bin Zilcövşən;
2- Xuli bin Yezid Əsbəhi;
3- Saleh bin Vəhəb Yəzni;
4- Şəbəs bin Rəbi;
5- Sənan bin Ənəs Nəxəi;
6- Əbulcənub Əbdürrəhman bin Ziyad;
7- Qəşəm (Qasim) bin Əmr bin Yezid.

Onlar imamın başını kəsməyə gəlirdilər. İmam onlara baxdıqda, yaxına gəlib o həzrətin başını kəsməyə cürətləri qalmırdı. Ona görə də aralarında narazılıq yarandı. Həmin səbəbdən, Şimr bin Zilcövşən imamı üzü üstə çevirdi ki, imam ona baxmasın. O, 12 zərbəylə imamın başını arxadan kəsdi. Ömər bin Sədin qoşunu isə gözlərini yummuşdu ki, bu səhnəni görməsin. Sonra imamın mübarək başını Xuliyə tapşırdı. Düşmən ordusu 3 dəfə Allahu Əkbər dedi.[1]

“Məalis-sibteyn” və “Luhuf” kitabında isə yazılır ki, imamın qatili Sənan bin Ənəs idi.

İmamın başı kəsildikdən sonra, xanım Zeynəb (ə) özünü imamın bədəninə çatdırdı. Əllərini o həzrətin bədəninə qoyaraq səmaya üz tutub dedi: “İlahi, bu qurbanı bizdən qəbul elə.”

Aşura gününün hansı gün olduğu ixtilaflıdır. Bəziləri şənbə günü, bəziləri bazar ertəsi, bəziləri çərşənbə axşamı və bəziləri də cümə günü olduğunu qeyd etmişlər. Astronomik hesablamalara əsasən, cümə günü idi.

---

[1] Ayinə dər Kərblast, s.469.

## İMAMIN PALTARLARINI OĞURLAYANLAR

10 nəfər imamın paltarlarını oğurladı:

1- İshaq bin Heyvə Həzrəmi. O, imamın köynəyini oğurladı və sonralar xora xəstəliyi tutub öldü.
2- Bəhr bin Kəb Təmimi. İmamın altdan geyindiyi paltarı oğurladı. Sonralar onun ayaqları qurudu.
3- Əxnəs bin Mərsəd. İmamın əmmaməsini oğurladı. O da sonralar dəli oldu.
4- Əsvəd bin Xalid. İmamın ayaqqabılarını oğurladı. Sonralar Muxtarın əmri ilə yandırıldı.
5- Bəcdər bin Süleym. İmamın üzüyünü oğurladı. O, üzüyü imamın barmağından çıxara bilmədiyi üçün o həzrətin barmağını kəsdi. Sonralar Muxtarın əmri ilə onun iki əli və ayaqları kəsildi.
6- Qeys bin Əşəs. O, imamın dəridən olan hamam dəsmalını oğurladı. Sonralar Muxtarın əmri ilə öldürüldü.
7- Ömər bin Səd. O, imamın zirehini oğurladı. Sonralar o zirehi Ömər bin Sədin qatilinə verdilər.
8- Cəmi bin Xəlq Əvdi. İmamın qılıncını oğurladı və öldürüldü.
9- Malik bin Nəsr Məndi. İmamın döyüş papağını oğurladı. Sonralar Muxtarın əmri ilə əlləri və ayaqları kəsildi.
10- Həkim bin Tüfeyl. O, həzrət Əbülfəzlin (ə) libas və qılıncını oğurladı. Sonralar Muxtarın əmri ilə oxla öldürüldü.

## İMAMIN MÜBARƏK BƏDƏNİNİN ÜSTÜNDƏN ATLARIN KEÇMƏSİ

Ömər bin Sədin əmri ilə 10 nəfər imamın bədəninin üstündən at çapmalı oldu:

1- Hani Həzrəmi;
2- Üseyd bin Malik;
3- Vahiz bin Ğanim;

4- Saleh bin Vəhəb Cofi;
5- Salim Cofi;
6- Rəca Əbdi;
7- Ömər Seydavi;
8- Həkim bin Tüfeyl;
9- Əxnəs bin Mərsəd;
10- İshaq bin Həvbə. (İmamın paltarını qarət edən şəxs).

Bu 10 nəfər imamın bədənin hər iki tərəfinin üstündən at çapdı ki, Ömər bin Səddən hədiyyə alsınlar. Onlar zinadan əmələ gələnlər idi. Muxtarın zamanında onların əl-qollarını bağladılar və üstlərindən at çapdılar və beləliklə, onlar cəhənnəmə vasil oldular.

## İMAM HÜSEYNDƏN (Ə) SONRA ŞƏHİD OLANLAR

İmam Hüseyndən (ə) sonra Kufə və Bəsrədən olan iki nəfər şəhid oldu:

**1- Süveyd bin Əmr Kufi.**

Bu şəxs Məhərrəmin 4-cü günü imama qoşuldu. O, zahid, quranşünas, səxavətli və Peyğəməbəri (s) görmüş olan bir insan idi. Onun 70 yaşı vardı. Düşmən ordusu onu daşqalaq etdi. Bihuş oldu. Onun öldürüldüyünü zənn etdilər. Lakin imam şəhid olandan sonra ayıldı və öz qılıncı ilə şəhid olana qədər mübarizə apardı.

**2- Həfhaf bin Muhənnəd Rabisi.**

O, imamın qiyam xəbərini eşitdikdə, Bəsrədən imama doğru hərəkət etdi. O, Kərbəlaya çatdıqda, imamın şəhid olduğunu gördü. İmam Səccaddan (ə) izn alıb düşmənlə vuruşdu. Onun 52 yaşı var idi. O, "Siffeyn" müharibəsində komandan idi. Eləcə də, imam Həsənin (ə)köməkçilərindən idi. Ağır döyüşdən sonra şəhid oldu.[1]

Ümumilikdə, Bəsrədən 10 nəfər Kərbəlada şəhid oldu ki, onların sonuncusu Həfhaf idi.

[1] "Pəjuheşnameye qisseye Kərbəla", səh.491.

# İMAMIN YARALARININ SAYI

| | | | |
|---|---|---|---|
| 1 | “Əl-Luhuf” və “Əyanuş-şiə” kitabı | 72 | |
| 2 | Əllamə Məclisinin “Cəlaul-uyun” kitabı | 72 | Bir rəvayətə əsasən, 320 yara və ümumilikdə isə 1900 yara var idi. |
| 3 | Əllamə Məclisinin “Əynul-həyat” kitabı | 5800 | 4000 ox yarası, 180 qılınc və nizə yarası. |
| 4 | Əllamə Bəhrul-Ulumun məqtəli | 1900 | |
| 5 | Təbərsinin “Tacul-məvalid” kitabı | 323 | 329 da nəql etmişdir. |
| 6 | Şeyx Səduqun “Əl-Əmali” kitabı | 320 | |
| 7 | Təbərinin “Tarix” kitabı | 67 | 33 ox yarası, 34 qılınc yarası. |
| 8 | “Dəlailun-nübuvvət” | 120 | |
| 9 | “Əl-Kafi” | 63 | |
| 10 | Müəllif | 2 | Mən elə düşünürəm ki, deyilən rəqəmlərin hansının daha dəqiq olduğunu bilməyin o qədər də əhəmiyyəti yoxdur. Demək olar ki, imamın iki cür yarası var idi; 1- Bütün bədənində olan ox, qılınc və nizə yarası; 2- ikinci yara da o həzrətin qəlbindəki mənəvi yara idi ki, dünyapərəst insanlar o həzrətin qəlbinə vurmuşdular (və o həzrətin məqamını tanımırdılar). |

# BƏNİ-HAŞİMİN ƏLİ İLƏ ÖDÜRÜLƏN DÜŞMƏN ORDUSUNUN STATİSTİKASI

| | | | |
|---|---|---|---|
| 1 | İmam Hüseyn (ə) | 88 | |
| 2 | Abbas bin Əli (ə) | 80 | O həzrətin künyəsi Əbülfəzl (ə) idi. Hicrətin 36-cı ilində dünyaya gəldi. Kərbəlada olduğu vaxtda 34 yaşında idi . 5 övladı vardı. Yüzə yaxın insan onun əli ilə öldürüldü. O həzrət neçə dəfə imamdan döyüşmək üçün izn istədi, lakin imam izn verməyib buyurdu: “Sən mənim bayraqdarımsan.” Ona görə də həzrətin əli ilə öldürülənlər hücum etməmişdilər. Lakin həzrət su gətirməyə getmişdi və qarşılaşdığı maneələri aradan qaldırmaq üçün onları öldürürdü. Bəziləri isə mübaliğə edərək o həzrətin əli ilə öldürülənlərin sayının minlərlə olduğunu demişlər. [1] |
| 3 | Həzrət Əli Əkbər | 120 | İki mərhələdə isə 203 nəfər. |
| 4 | Abdullah bin Müslim | 98 | Üç mərhələdə vuruşdu. |
| 5 | Övn bin Cəfər Təyyar | 48 | O, həyat yoldaşı ilə imam Hüseynlə (ə) birlikdə idi. |
| 6 | Cəfər bin Əqil | 15 | O, imam Əlinin (ə) qızı Xədicə ilə evləndi və Səid və Əqil adlarında övladları var idi. |
| 7 | Əbdürrəhman bin | 17 | |

[1] “Muntəhəl-amal”, səh.446.

| | | | |
|---|---|---|---|
| | Əqil | | |
| 8 | Musa bin Əqil bin Abu Talib | 30 | |
| 9 | Məhəmməd bin Abdullah bin Cəfər | 10 | Xanım Zeynəbin (ə) oğlu idi. |
| 10 | Məhəmməd bin Əli (ə) | | Məhəmməd Hənəfiyyənin kiçik qardaşı idi. |
| 11 | Əhməd bin Həsən (ə) | 14 | O, imam Həsənin (ə) oğlu idi. Ona Abdullah da deyirdilər və iki mərhələdə vuruşdu. |
| 12 | Qasim bin Həsən (ə) | 35 | |
| 13 | Ömər bin Əli (ə) | Bir neçə nəfər | imamın digər oğullarındandır və Mədinədən imamla birgə idi. |
| 14 | Abdullah bin Əli (ə) | 120 | |
| 15 | Osman bin Əli (ə) | Bir neçə nəfər | |
| 16 | Ovn bin Əli (ə) | 2 | |
| 17 | Ovn bin Abdullah | 21 | Xanım Zeynəbin (ə) oğlu idi. |

## DÜŞMƏN ORDUSUNDAN ÖLDÜRÜLƏNLƏRİN SAYI

Bu haqda əlimizdə dəqiq statistik məlumat yoxdur. Lakin düşmən əsasən təkbətək döyüşlərdə itkilər verdi. Onların sayı bir nəqldə 268 və bir nəqldə isə 449 nəfər olaraq bildirilmişdir. Başqa nəqllərə əsasən isə düşmənin itkiləri, ən azı, 448 və maksimum 658 nəfər olmuşdur.

Bəni-Haşimin əli ilə öldürülənlərin sayı 694 nəfər oldu. Ümumilikdə isə 1143 nəfərdən 1351 nəfərə qədər Kərbəlada öldürülmüşdür. Ömər bin Səd 88 nəfərə meyit namazı qıldı. Çox güman ki, onlar imam Hüseynin (ə) əli ilə öldürülənlər idi. Rəqəmlər çoxalarsa, maksimum 2500 nəfərdən artıq olmayacaqdır.

## AŞURA QÜRUBUNUN HADİSƏLƏRİ

Aşura qürubunda iki uşaq itdi. Xanım Zeynəb (ə) başqa bir qadınla onları axtardı və onların bir ağacın dibində qucaqlaşıb susuzluqdan can verdiklərini gördülər. Kərbəlada 33 nəfər uşaq var idi. Onlar düşmənin qorxusundan pərakəndə olmuşdular.

Ömər bin Səd imam Hüseynin (ə) başını Kufəyə aparmaq üçün iki nəfər ayırdı. Onlar Xuli bin Yezid və Həmid bin Müslim idi. Xuli gecə Kufəyə çatdı. O, imamın kəsik başını evində təndirə qoydu ki, səhər İbni Ziyada aparsın. Xulinin iki xanımından biri ibadət əhli idi. Gecə namazı üçün oyanmışdı. Gördü ki, təndirin içindən nur saçır. O, Səmadan enən 4 xanım gördü. Onlardan biri kəsik başı qucaqlayıb buyurdu: "Ey anasının şəhidi, ey anasının məzlumu!" O 4 qadın xanım Xədicə (ə), xanım Asiyə (ə) xanım Məryəm (ə) və xanım Fatimə (ə) idi. Beləliklə, Xulinin möminə arvadı imam Hüseyni (ə) tanıdı.

## AŞURA GÜNÜ BƏDƏNLƏRİNDƏN KƏSİLƏN BAŞLAR

Ömər bin Sədin əmri ilə Məhərrəmin 11-ci günü şəhidlərin başları kəsildi. Lakin Aşura günü 7 nəfərin başı kəsildi:

1- İmam Hüseyn (ə);
2- Həbib bin Məzahir;
3- Osman bin Əli bin Əbi Talib (ə);
4- Cəfər bin Əli bin Əbi Talib (ə);
5- Müslim bin Övsəcəinin oğlu Xələqin başı;
6- Əmr bin Cundaə Ənsari;
7- Abdullah bin Vəhəb Kəlbi.

## KƏRBƏLA ƏLİLLƏRİ

Kərbəlanın 3 yaralısı və əlili var idi ki, sonralar şəhid oldular:

1- Məvqi bin Səmamə Əsədi. O, Aşuradan bir il sonra şəhid oldu;
2- Əmr bin Abdullah Cəndəli. O da 1 il sonra dünyasını dəyişdi;
3- Səvvar bin Münim. O, zindanda şəhid oldu.

## KƏSİK BAŞLARIN QƏBİLƏLƏR ARASINDA BÖLÜŞDÜRÜLMƏSİ

İmam Hüseyn (ə) və onun köməkçilərinin şəhadətindən sonra Ömər bin Səd əmr verdi ki, o həzrətin köməkçilərinin başları kəsilsin. Kəsik başaların içindən 72 başı nizəyə vurdular. Kəsik başları Şimr bin Zilcövşən, Qeys bin Əşəs və Əmr bin Həccacla Kufəyə gönədrdi.

"Luhuf" kitabının yazdığına əsasən, kəsik başlar aşağıda qeyd edilən qəbilələr arasında bölüşdürüldü:

1- Qeys bin Əşəsin başçılıq etdiyi Kində qəbiləsi; 13 baş.
2- Şimrin başçılıq etdiyi Həvzan qəbiləsi; 12 baş.
3- Əvvəllər Hürrün başçılıq etdiyi Təmim qəbiləsi; 17 baş.
4- Əbdürrəhman bin Cofinin başçılıq etdiyi Bəni-Əsəd qəbiləsi; 16 baş.
5- Məzhəc qəbiləsi; 7 baş.
6- Digər insanlar və dəstələr; 13 baş.

Ümumilikdə, 78 baş yazılmışdır. İbni Ziyad və Yezidə aparılan başların sayı, 72-92 arası qeyd edilmişdir.

Ömər bin Səd Məhərrəmin 11-ci gününü Kərbəlada qaldı və tərəfdarlarından öldürülənləri bir yerə toplayıb onlara namaz qıldı və dəfn etdi. Şəhidlərin mübarək bədənləri isə yerdə qaldı.

## İMAM HÜSEYN (Ə) ON NƏFƏR ÜÇÜN XÜSUSİ NARAHATÇILIQ HİSSİ KEÇİRİB AĞLADI, ONLARA DUA VƏ QATİLLƏRİNƏ İSƏ NİFRİN ETDİ

1- Həzrət Əli Əkbər (ə);
2- Həzrət Qasim (ə);
3- Həzrət Abdulah bin Həsən (ə);
4- Həzrət Abdullah (südəmər);
5- Müslim bin Övsəcə;
6- Həbib bin Məzahir;
7- Hürr bin Yezid Riyahi;
8- Züheyr bin Qeyn;
9- Covn.

O həzrət iki nəfərin şəhadət xəbərini eşidəndə, onlara rəhmət və salam göndərdi:

1- Müslim bin Əqil;
2- Hani bin Ürvə.

## İMAM HÜSEYN (Ə) 7 ŞƏHİDİN BAŞI ÜSTƏ PİYADA GETDİ

1- Müslim bin Övsəcə;
2- Hürr bin Yezid Riyahi;
3- Vazeh Rumi;
4- Covn;
5- Həzrət Əbülfəzl (ə);
6- Həzrət Əli Əkbər (ə);
7- Həzrət Qasim (ə).

## DÖYÜŞ ZAMANI 3 NƏFƏRİN BAŞINI KƏSİB İMAMA TƏRƏF ATDILAR

1- Abdullah bin Ümeyr Kəlbi;
2- Əmr bin Cunadə;
3- Abis bin Şəbib Şakiri.

## KƏRBƏLADA 3 NƏFƏRİN BƏDƏNİNİ TİKƏ-TİKƏ DOĞRADILAR

1- Həzrət Əli Əkbər (ə);

2- Həzrət Əbülfəzl (ə);
3- Əbdürrəhman bin Ümeyr.

## KƏRBƏLADA 9 ANA ÖZ OĞLUNUN ŞƏHADƏTİNİ MÜŞAHİDƏ EDİRDİ

1- Abdullah bin Hüseynin (ə) anası Rubab;
2- Ovn bin Abdullah bin Cəfərin anası xanım Zeynəb (ə);
3- Qasim bin Həsənin anası Rəmlə;
4- Abdullah bin Həsənin (ə) anası Şəlil Ciliyyə;
5- Abdullah bin Müslimin anası Rüqəyyə, ( Bu xanım imam Əlinin (ə) qızı idi);
6- Məhəmməd bin Sədi bin Əqilin anası;
7- Əmr bin Cunadənin anası;
8- Abdullah bin Vəhəb Kəlbinin anası Ümmü Vəhəb;
9- Həzrət Əli Əkbərin anası.

## KƏRBƏLADA HƏDDİ-BÜLUĞA ÇATMAYAN 5 AZYAŞLI UŞAQ ŞƏHİD OLDU

1- İmam Hüseynin südəmər uşağı, Abdullah bin Hüseyn (ə);
2- Abdullah bin Həsən (ə);
3- Məhəmməd bin Əbi Səid bin Əqil;
4- Qasim bin Həsən (ə);
5- Əmr bin Cunadə Ənsari.

## KƏRBƏLADA PEYĞƏMBƏRİN (S) SƏHABƏLƏRİNDƏN 5 NƏFƏRİ ŞƏHİD OLDU

1- Ənəs bin Hərs Kahili;
2- Həbib bin Məzahir;
3- Müslim bin Övsəcə;
4- Hani bin Ürvə;
5- Abdullah bin Bəqtur Ümeyri.

## İMAM HÜSEYNİN (Ə) 15 QUL VƏ XİDMƏTÇİSİ ŞƏHİD OLDU

1- İmam Əlinin (ə) qullarından olan Nəsr;
2- İmam Əlinin (ə) qullarından olan Səd;
3- İmam Hüseynin (ə) qulu Əsləm;
4- İmam Hüseynin (ə) qulu Qarib;
5- İmam Həsənin (ə) qulu Mənhəc;
6- Həmzə Seyyidüş-Şühədanın qulu Hərs;
7- Əbuzərin qulu Covn;
8- Müslim Əzdinin qulu Rafe;
9- Ömər Seydavinin qulu Səd;
10- Bənil-Mədinənin qulu Salim;
11- Əbdinin qulu Salim;
12- Şakirin qulu Şozəb;
13- Hərs Cabirinin qulu Şeyb;
14- Hərs Səlmanın qulu Vazeh. Bu 14 nəfər Kərbəlada şəhid oldular.
15- İmam Hüseynin (ə) qulu Salman. Bu şəxs o həzrət tərəfindən Bəsrəyə göndərildi və orada şəhid oldu.

## ƏSİRLİKDƏ ŞƏHİD OLANLAR

İmam Hüseynin (ə) köməkçilərindən iki nəfəri Kərbəlada əsir olub şəhid edildi;

1- Səvar bin Münim;
2- Moqe bin Səmamə Seydavi.

## ATALARININ HÜZURUNDA ŞƏHİD OLANLAR

7 nəfər atalarının hüzurunda şəhid oldu;

1- Həzrət Əli Əkbər (ə);
2- Həzrət Abdullah bin Hüseyn (ə);
3- Əmr bin Cunadə;
4- Abdullah bin Yezid;

5- Übeydullah bin Yezid;
6- Məcmə bin Ayiz;
7- Əbdürrəhman bin Məsud.

**XEYMƏLƏRDƏN MEYDANA GƏLƏN QADINLAR**

Kərbəlada imamın xeymələrində olan xanımlardan 5 nəfəri meydana gəlib öz etirazını bildirdi:

1- Müslim bin Övsəcənin kənizi;
2- Abdullah Kəlbinin həyat yoldaşı;
3- Abdullah Kəlbinin anası;
4- Xanım Zeynəb (ə);
5- Əmr bin Cunadənin anası.

**KƏRBƏLANIN YEGANƏ QADIN ŞƏHİDİ**

Kərbəlanın yeganə qadın şəhidi, Vəhəbin həyat yoldaşı, Haniyə idi.

## KƏRBƏLA QİYAMINDA İŞTİRAK EDƏN QADINLAR

1- Xanım Zeynəb (ə);
2- Ümmü Gülsüm (ə);
3- Fatimə (ə);
4- Səfiyyə (ə);
5- Rüqəyyə (ə);
6- Ümmü Hani. Bunlar imam Əlinin (ə) övladları idi.
7- Fatimə (ə);
8- Səkinə(ə); bu iki xanım imam Hüseynin (ə) qızlarından idi.
9- Rubab (ə);
10- Atikə (ə);
11- Möhsin bin Həsənin (ə) anası;
12- Müslim bin Əqilin qızı;
13- Fizzə Nəvbiyyə;
14- İmam Hüseynin (ə) kənizi;
15- Vəhəb bin Abdullahın anası.

## KUFƏDƏN İMAM HÜSEYNİN (Ə) KÖMƏYİNƏ GƏLƏNLƏR

İmam Hüseynin (ə) köməkçilərinin və Kərbəla şəhidlərinin çoxu Kufədən idi. Bəni-Haşim və imam Hüseynin (ə) qulları istisna olmaqla, şəhidlərin 66 nəfəri Kufədən idi. Onlardan bəziləri Məkkədə, bəzilər Məkkə-Kərbəla yolunda və bəziləri də Kərbəlada imama qoşuldular.

Məkkədə imama qoşulan Kufəlilər bunlardır:

1- Əbdürrəhman bin Abdullah Həmdani Ərhəbi;
2- Səid bin Abdullah Hənəfi;
3- Abis bin Əbi Şübeyb Şakiri;
4- Şozəb bin Abdullah Şakiri;
5- Həccac bin Məsruq;
6- Yezid bin Müğəffəl;
7- Əmr bin Həmqin qulu  Zahir bin Əmr Kindi;
8- Bürery bin Xüzeyr Həmdani Məşriqi.

Məkkə-Kərbəla yolunda imama qoşulanlar bunlardır:

1- Züheyr bin Qeyn;
2- Süleyman bin Muzarib;
3- Condəb bin Hüseyr Kindi;
4- Müslimin ordusunun komandirlərindən olan Əbu Səmamə Əmr bin Abdullah Saidi;
5- Və digər 14 nəfər.

## AŞURADA İMAMA QOŞULANLAR

Aşura gününə qədər kufəlilərdən 27 nəfəri imama qoşuldu. Peyğəmbərin (s) səhablərindən Həbib bin Məzahir, Kufədə Müslimin ordusunun komandirlərindən biri Müslim bin Övsəcə və digər şəxslər.

Aşura gecəsi və gündüzündə də Cüveyn Malik bin Qeys, Hürr bin Yezid Rəyahi, Əbulhətuf öz qardaşı ilə birlikdə, ümumilikdə, 15 nəfər imama qoşuldu və imamla birgə şəhid oldu.

Kufəlilərdən Kərbəlada imamın hüzurunda şəhid olanlardan əlavə, Kufədə Müslimin qoşununda şəhid olanlar da var idi. Hani bin Ürvə, Qeys bin Müsəhhər Seydavi, Əmmarə bin Təlxəb Əzdi, Əbdül-Əla bin Yezid Kəlbi Əlimi, Abdullah bin Yəqtur və digər şəxslər.

## KƏRBƏLA ƏSİRLƏRİNİN STATİSTİKASI
## KƏRBƏLADAN KUFƏYƏ

**Əsirlikdə olan Bəni-Haşim kişilərinin sayı 8 nəfərdir ki, onların əksəriyyəti azyaşlı idi**

1- İmam Səccad (ə);
2- İmam Məhəmməd Baqir (ə);
3- Həsən bin Həsən (ə) (Həsən Müsənna) imam Həsənin (ə) oğlu;
4- İmam Əlinin (ə) oğlu Məhəmməd Əl-Əsğər;
5- Ömər bin Həsən (ə) imam Həsənin (ə) oğlu;
6- Zeyd bin Həsən (ə) imam Həsənin (ə) oğlu;
7- Məhəmməd bin Müslim (ə);
8- Abdullah bin Müslim (ə).

**Əsirlikdə olan Bəni-Haşim qadınları**

1- Xanım Zeynəb (ə);
2- Xanım Zeynəbin bacısı Ümmü Gülsüm (ə);
3- İmam Əlinin (ə) qızı Faimə (ə);
4- İmam Hüseynin (ə) qızı Fatimə (ə);
5- İmam Hüseynin (ə) qızı Səkinə (ə);
6- İmam Hüseynin (ə) həyat yoldaşı Rübab (ə);
7- İmam Hüseynin (ə) qızı Rüqəyyə (ə);
8- Müslim bin Əqilin həyat yoldaşı Rüqəyyə (ə);
9- Müslimin qızı;
10- Əqilin həyat yoldaşı Həvsa (ə);
11- Xanım Zeynəbin (ə) qızı Ümmü Gülsüm Suğra (ə);

12- İmam Həsənin (ə) həyat yoldaşı, Qasimin anası Rəmlə (ə);
13- İmam Hüseynin (ə) həyat yoldaşı Şəhrəbanu (ə). Bu xanım imam Səccadın (ə) anası Şəhrəbanudan başqa bir qadındır;
14- İmam Əlinin (ə) həyat yoldaşlarından olan və Kərbəlada şəhid olan Abdulla Əsğərin anası Leyla (ə); O, Məsud bin Xalid Təmiminin qızı idi.
15- İmam Həsənin (ə) qızı Fatimə (ə); O, imam Baqirin (ə) anası idi.

**Əsirlikdə olan digər xanımlar**[1]

1- İmam Səccadın (ə) xidmətçisi və Kərbəlada oğlu şəhid olan Hüsniyə;
2- Əbdud-din Əmid Məsihinin həyat yoldaşı, onun oğlu Kərbəlada şəhid oldu;
3- Fükəyhiyyə. Bu xanımın oğlu Qarib Kərbəlada şəhid oldu. O, Rübabın xidmətçilərindən idi;
4- Məsud Xəzrəcinin qızı və oğlu Əmr ilə birlikdə şəhid olan Cunadə bin Kəbin həyat yoldaşı Bəhriyyə;
5- Müslim bin Övsəcənin kənizi;
6- Xanım Fatimeyi-Zəhranın (ə) xidmətçisi Fizzə (ə);
7- Peyğəmbərin (ə) qulu Əbu Vazehin həyat yoldaşı Ümmü Vazeh;
8- Peyğəmbərin (s) sünnəsini təbliğ edən Roza;
9- Əqəbə bin Səmanın həyat yoldaşı Məleykə;
10- İmam Hüseynin (ə) həyat yoldaşı Ümmü İshaqın xidmətçisi Kəbəşə.

Bəzi mənbələrdə əsir qadınların sayının 20 nəfər olduğu yazılmışdır. Kişilərin sayını isə 12 nəfər olaraq qeyd etmişlər. İmam Səccaddan (ə) başqa, hamısının azyaşlı olduğunu yazmışlar.

Kərbəla ilə Kufənin arası 70 km-dir. Əsirlər karivanı Kufəyə daxil olanda, Müslim bin Əqilin şəhadətindən 40 gün keçirdi. Xanım

[1] “Ayine dər Kərbəlast”, səh.738.

Zeynəb (ə) atasının zamanında, hicri 37-40-cı illərdə Kufədə üç il yaşadı və sonra Mədinəyə qayıtdı.

Əsirləri 40 kəcavəsiz və palansız dəvəyə mindirmişdilər. 40 şəhidin başı nizələrə vurulmuşdu və əsirləri Kufənin küçələrində dolandırırdılar.

Həqiqətləri bəyan etmək üçün Kufədə 4 nəfər xütbə oxudu:

1- Xanım Zeynəb (ə);

2- Ümmü Gülsüm (ə);

3- Fatimeyi-Suğra (ə);

4- İmam Səccad (ə).

Onlar oxuduqları xütbələrlə insanları danlayır və onları bu qəflət yuxusundan oyadırdılar.

Məhərrəm aynını 12-si İbni Ziyad öz qəsrində oturub əsirlərin saraya daxil olmasını gözləyirdi. Əsirlər darul-imarəyə daxil olanda, kəsik başları aşağa endirdilər. İmam Hüseynin (ə) başı "İbrahim" surəsinin 42-ci ayəsini oxuyurdu:

"*Və Allahı zalımların etdiklərindən əsla xəbərsiz sanma! (Allah) onlara əslində yalnız gözlərin (Məhşərin dəhşətindən) bərələcəyi gün üçün möhlət verir.*" [1]

Bəziləri isə "Şüəra" surəsinin 227-ci ayəsini oxuduğunu demişlər.

"*Zülm edənlər tezliklə biləcəklər ki, necə bir dönüş yerinə qaytarılacaqlar.*"[2]

İbn Ziyad 37 yaşlı Ömər bin Sədə 4 əyalətin, (Rey, Tehran, Qorqan, Mazandaran) mülkünün idarəçiliyini vədə vermişdi. O, İbni Ziyadın kənarında qürurla oturmuşdu.

---

[1] "İbrahim" surəsi, ayə: 42.
[2] "Şüəra" surəsi, ayə: 227.

| | | |
|---|---|---|
| 1 | Məkkədən Kərbəlaya qədər | 1200 km. |
| 2 | Kərbəladan Kufəyə qədər | 70 km. |
| 3 | Dəməşqdən Kərbəlaya qədər (Əsirlərin kəsə yolla qayıtdığı məsafə). | 750 km. |
| 4 | Kərbəladan hərəkət etdikləri gün | Məhərrəmin 11-ci günü, zöhrdən sonra. |
| 5 | Kufəyə daxil olduqları gün | Məhərrəmin 12-ci günü, sübh vaxtı. |
| 6 | İbn Ziyadın qəsrinə daxil olduqları gün | Məhərrəmin 12-ci günü, günorta. |
| 7 | Kufədən Şama hərəkət etdiləri gün | Məhərrəmin 14-cü və ya 15-ci günü. |
| 8 | Kufədən Şama hərəkət etdikləri vaxt | 23 gün |
| 9 | Şama daxil olduqları gün | Səfər ayının 8-i |
| 10 | Kərbəlaya qayıtdıqları gün | Səfər ayının 20-si |
| 11 | Mədinəyə daxil olduqları gün. | Rəbiul-əvvəl ayının 16-sı |

## KUFƏ CAMAATININ İBNİ ZİYADA ETİRAZININ İKİ SƏBƏBİ

İki şey səbəb oldu ki, insanlar İbni Ziyadın əleyhinə qalxsınlar:

1- İmam Səccadın (ə) və digər xanımların oxuduqları xütbələr;

2- İbn Ziyadın şadlıq məclisində, onların İbni Ziyada verdikdləri kəskin cavablar.

Müslim Cəssas İbni Ziyadın sarayında təmirlə məşğul idi. O, belə nəql etmişdir:

Karvanın səsini eşitdim, saraydan çölə qaçdım. 40 yüklənmiş dəvə gördüm. Peyğəmbərin (s) və xanım Fatimeyi-Zəhranın (ə) balalarını ona mindirmişdilər. İmam Səccad (ə) palansız dəvəyə mindirilmişdi. Onun boynuna zəncir vurulduğu üçün, damarlarından

qan axırdı. O həzrət ağlayırdı və kufəlilərin danlağına aid bir şeir oxuyurdu.[1]

## ABDULLAH BİN ƏFİFİN ŞƏHADƏTİ

Abdullah bin Əfif təqvalı və zahid və gözləri görməyən bir insan idi. O, "Cəməl" və "Siffyen"də də qəhrəmanlıq gösətərmişdi. İbni Ziyad Əhli-beyti (ə) zindana saldı və hamını topladı. Xütbə oxudu, imam Hüseyni (ə) yalançı adlandırdı. Abdullah bin Əfif ayağa qalxıb imam Hüseyni (ə) müdafiə etdi. İbni Ziyada hücüm edərək onu yalançı saydı. İbni Ziyad onun həbs olunmasına əmr verdi. Əzd qəbiləsindən 700 nəfər orada var idi. Onlar Abdullahı xilas etdilər. Məclis İbni Ziyadın zərərinə tamamlandı. O, əmr verdi ki, Abdullahı həbs etsinlər. Ona görə də, Abdullahın ardınca əsgərlər göndərdi. Əsgərlərdən 50 atlı və 23 piyada Abdullahla döyüşdə həlak oldular. Sonra onu tutub İbni Ziyadın hüzuruna gətirdilər. Allaha həmd-səna etdikdən sonra, imam Hüseynin (ə) vəsfi və düşmənlərin məzəmmətində 29 beyt şeir oxudu.

İbn Ziyadın əmri ilə onun boynunu vurdular və bədənini darul-imarədən asdılar. Abdullah imam Hüseynin (ə) qiyamından sonrakı qiyamın ilk şəhidi idi. Abdullahın qiyamından sonra, Muxtarın qiyamına qədər başqa qiyamlar da baş tutdu. Muxtarın qiyamında İbni Ziyadın başını Muxtarın hüzuruna gətirdilər.

### İMAM HÜSEYNİN (Ə) KƏSİK BAŞININ QƏRAR TUTDUĞU 5 MƏSCİD

İmam Baqir (ə) buyurmuşdur: Yezidin tərəfdarları imam Hüseynin (ə) öldürülməsi münasibətə şadlıq edərək 4 lənətlənmiş məscid tikdirdi:

1. Şəbəs bin Rəbi məscidi;

---

[1] "Qisseye Kərbəla", səh.419; "Pəjuheşnameye imam Hüseyn (ə)", səh.404.

2. Əşəs məscidi;

3. Cüreyr Bəcəli məscidi;

4. Simak məscidi.[1]

İmam Baqirdən (ə) nəql olunmuş başqa bir hədisdə isə lənətlənmiş məscidin 5 olduğu bildirilmişdir. Əvvəlki 4 məscid və Həmra məscidi. Bu məscid Fironlardan birinin qəbrinin üstündə tikilmişdir.[2]

Əhli-beytin (ə) xütbələri, sonra onların zindana düşməsi və daha sonra isə Abdullah bin Əfifin qiyamına görə İbni Ziyadın mövqeyi zəiflədi. Ona görə də, əsirlərin Şama göndərilməsi əmrini verdi.

Karvanın Kufədə qaldığı müddətin 2, 7, 8 və 12 gün olduğunu demişlər. Orada 7 gün qalmaları həqiqətə daha uyğundur. Onlar Məhərrəmin 14-ü və ya 15-i Kufədən hərəkət etdilər.

Əsirlər İbni Ziyadın məclisinə daxil olarkən o, xanım Zeynəbi (ə) görüb soruşdu:

"Sən kimsən?"

Xanım ona cavab vermədi. İbni Ziyad 3 dəfə soruşdu, xanım cavab vermədi. Kənizlərdən biri dedi: "O, xanım Fatimənin qızı (ə) xanım Zeynəbdir (ə)." Sonra xanım Zeynəb (ə) xütbəsini başladı. Onun məntiqli sözləri İbni Ziyadı qəzəbləndirdi və dedi: "Bu sözlər sizin məntiqiniz və şücaətinizdəndir. And olsun öz canıma ki, sənin atan da belə idi."

Xanım Zeynəb (ə) buyurdu: "Qadın hara şücaət hara. Bunlar qəlbdə olan ilhamdan gəldi."

---

[1] "Əl-Kafi", c.3, səh.490. hədis:2.
[2] "Biharul-ənvar", c.97, səh.437-738.

# ŞAM SƏFƏRİNİN STATİSTİKASI

Kufədən Şama getmək üçün 3 yol var idi:

1- Səhra yolu; Kufə coğrafi cəhətdən 32 dərəcədə, Şam isə 33 dərəcədə yerləşir. Yəni, hər ikisi bir cəhətdədir. Ən qısa yol 923 km-dir. Kufədən Şama düz xətlə isə 867 km-dir.

2- Fərat yolu. Kufəlilər İraqa və Şama səfər edərkən bu yolla gedirdilər. Xüsusilə də, bu yolun suyundan istifadə edirdilər. Bu yolun çoxlu ayrıcları da vardır. Bu yol ilə Kufədən Şama 1165 və ya 1333 km olsa da, səhra yolunun çətinliklərinə görə, Kufədən Şama getmək üçün ən münasib yol sayılırdı.

3- Sultani yolu. Dəclə çayının kənarındakı yoldur. Bu yol Türkiyəyə tərəf 1559 km olan ən uzun yoldur.

Əhli-beytin (ə) bu 3 yoldan hansı ilə getməsinə dair qəti dəlilimiz yoxdur. Lakin onlar hər bir məntəqədə dayanaraq, taxta sandıqlarda yerləşdirdikləri kəsik başları oranın əhalisi üçün nizələrə sancıb nümayiş etdirirdilər.

Əhli-beyti Şama aparanların sayı 1000-1500 nəfər qeyd edilmişdir. 40-50 nəfər kəsik başları daşıyırdılar. Onlar Kufədən Şama qədər olan yolu 15-16 və ya 20 günə qət etdilər.

Bir xəritəyə əsasən isə, Dəməşqdən Mədinəyə olan məsafə təqribən, 1229 km-dir. Dəməşq və Mədinəni də hesab etsək, 32 məntəqədə olmuşlar.

Əsirlər karvanı bu yolu qət etmişlər. Yol əsnasında Kərbəlaya da dönərək ziyarət etmişlər. Bu qəmli Karvanın səfəri Mədinədən başladı və Mədinədə də sona çatdı. Onların bu qəmli səfərdə qət etdikləri ən az yol 4100 km-dir.

1- Mədinədən Məkkəyə 431 km;
2- Məkkədən Kərbəlaya 1447 km;
3- Kərbəladan Kufəyə 70 km.
4- Kufədən Dəməşqə (Səhra yolu) 923 km;

5- Dəməşqdən Mədinəyə 1229 km;

Ümumilikdə, 4100 km.

Yol boyu 40 məntəqə var idi. Onların dəqiq hansının əvvəl və hansının sonra olduğu məlum deyil. Səfərin necəliyi də ətraflı şəkildə dəqiq deyildir. Bu, onu göstərir ki, onlar səhra yolu ilə getmişlər. Ona görə də ən az məntəqələrdə olmuşlar. O biri yollarda yaşayış məntəqələri çoxdur.

İbn Əsir "Əl-Kamil" kitabında bəzi məntəqələrin adını yazmışdır. Əbu Mixnəf öz məqtəlində isə məntəqələri ardıcıllıqla yazılmışdır və onların 19-u daha mühümdür:

Tikrit; Məşhədun-Nuqtə; Vadiyun-Nəxlə; Mosul; Nəsibeyn; Eynul-Vərdə; Rəqqə; Cusəq; Dəavat; Hələb; Qinnəsreyn; Məərrətun-Nöman; Şizər; Kəfərtalib; Seybur; Humat; Həməs; Bəəlbək və Əsqəlan.

## MƏSİHİ RAHİB

Nətənzi "Xəsais" kitabında nəql etmişdir: İbni Ziyadın adamları Qinnəsreyn adında mənətəqə dayandılar. Bir rahib gördü ki, imam Hüseynin (ə) kəsik başından nur saçır. Rahib o həzrətin başını götürənlərə 10000 dirhəm verib kəsik başı məbədin içinə apardı. O, bir səs eşitdi: "Xoş sənin halına, xoş o kəsin halına ki, bu ehtiramı saxladı." Rahib başı götürüb dedi: "İlahi, səni and verirəm həzrət İsanın (ə) hörmətinə, bu kəsik başa izn ver mənimlə danışsın." Bu an imamın kəsik başı dilə gəlib danışdı.

"Ey rahib nə istəyirsən?"

Rahib dedi: "Sən kimsən?"

Kəsik baş 7 dəfə özünü tanıtdı: Mənəm Məhəmməd Mustafanın (s) oğlu, mənəm Əliyyi-Mürtəzanın (ə) oğlu, mənəm Fatimeyi-Zəhranın (ə) oğlu, mənəm Kərbəlada qətlə yetirilən, mənəm məzlum, mənəm susuz.

Sonra o rahib üzünü qoydu imam Hüseynin (ə) üzünə və dedi: “Qiyamətdə mənə şəfaət etməyini deməyincə, üzümü üzündən götürmərəm.” Kəsik başdan səs gəldi: “Cəddim Peyğəmbərin (s) dinini qəbul et.” Rahib: “Əşhədu əlla ilahə illəllah və əşhədu ənnə Muhəmmədən Rəsulullah” – deyərək İslamı qəbul etdi.

Karvan orada bir gecə qaldıqdan sonra hərəkət etdi. Bir miqdar getdikdən sonra Vadiyun-Nəxlə məntəqəsinə çatdılar. Orada rahibdən alqıdları 10000 dinarın daş olduğunu gördülər.[1]

Kəfərtalib məntəqəsinin əhalisi İbni Ziyadın adamlarının üzünə qapılarını bağlayıb onlara su vermədi. Onlar dedilər: “Siz imam Hüseyni (ə) və onun dostlarını susuz qətlə yetirdiyiniz üçün sizə su verməyəcəyik.”

Hums məntəqəsinin əhalisi imamın başını gəzdirən Xulinin adamlarını daşqalaq edib, 26 nəfəri öldürdülər. Camaatın yarısı kilsələrə və yarısı da məscidlərə toplaşmışdı. Onlar qorxaraq Humsu tərk etdilər. Camaat bu sözləri deyirdi: “İman gətirdikdən sonra, kafir ola bilmərik. Hidayət olduqdan sonra, yolumuzu aza bilmərik. Heç vaxt icazə vermərik kəsik başı şəhəriməz daxil edib ona hörmətsizlik edəsiniz.”

Sonra onlar Bəəlbək məntəqəsinə getdilər.

Əsqəlan məntəqəsində Züreyr Xuzai adlı bir tacir imam Səccadın (ə) yanına gəlib onların kimliyi haqqında soruşdu. Onların Peyğəmbər (s) balaları olduğunu bildikdə ağlayaraq dedi: “Mən də burda qəribəm, nəsə istəyiniz varmı?”

İmam Buyurdu: “Bizim üçün geyim və paltar gətir və başları daşıyanlara de ki, biraz bizdən aralansınlar ki, qadınlara baxan olmasın.” O gedib bütün xanımlar və eləcə də imam üçün paltar və

---

[1] Bəziləri bu hadisəni belə nəql etmişlər: “Rahib gecəyarısı imamın başından nur saçdığını gördü və gözlərindən pərdə çəkildi. İmam Hüseynin (ə) haqlı olması və məzlumluğu onun üçün kəşf oldu. İmam Səccadın (ə) yanına gedib İslamı qəbul etdi.”

əmmamə gətirdi. Lakin Şimr paltarların hamısı onlardan aldı. O, başları daşıyana 50 misqal qızıl vermişdi.

## ŞAMDA BAŞ VERƏNLƏR

Şam (Dəməşq) Yezid hakimiyyətinin paytaxtı idi. Hicrətin 61-ci ildə, Səfər ayının əvvəli əsirlər karivanı oraya çatdı. Yezidin məmurları əsirləsi şəhərin darvazasının kənarında saxladı ki, şadlıq etmək üçün şəhəri bəzəsinlər. O vaxt Şamın 500000 əhalisi var idi.[1]

İmam Hüseynin (ə) başı nizəyə vurulmuşdu. Yezid əmr verdi ki, imamın başı darvazadan asılsın. 7 saat o həzrətin başı darvazadan asıldı.

Şam Müaviyənin zamanından Bəni-Üməyyənin fəaliyyətinin mərkəzinə çevrilmişdi. Abbasilərin hakimiyyətə gəlişi ilə hakimiyyət İraqa köçürüldü.

İmam Baqir (ə) buyurmuşdur: Atamdan soruşdum: "Sizi Kufədən Şama necə gətirdilər?" Atam buyurdu: "Məni çılpaq dəvəyə mindirdilər. Atamın başını nizəyə vurmuşdular. Xanımları da mənim arxamda çılpaq qatırlara mindirmişdilər. Bizi nizələrlə silahlanmış insanlar əhatə etmişdilər. Hər kəs ağlayardısa onun başına nizə ilə vururdular. Beləliklə, Dəməşqə daxil olduq."[2]

Şamın 12 qapısı var idi. Karvanı ən çox get-gəli olan, yəhudilərin məskunlaşdığı və əsas qapılardan olan Babus-Saatdan daxil etdilər. Bu qapıda saat asılmışdı. Ona görə də, ona "Babus-Saat", yəni "saat vurulmuş qapı" deyirdilər ki, elə indi də cümə məscidində divardan asılmışdır.

Minlərlə insan karvana tamaşa etmək üçün oraya gəlmişdi. Musiqi alətləri, insanların əl və ayaq səsləri, çalıb oxumaq səsləri ucalmışdı.

---

[1] "Nəfəsul-məhmum"un tərcüməsi, səh.395.
[2] "Biharul-ənvar", c.45, səh.145.

Qadınlar rəqs edirdilər, kişilər də məst olub öz keflərində idilər. Kərbəla əsirləri isə qəm-qüssə içində belə vəfasız insanların tamaşasına çevrilmişdilər.

Yezidin göstərişi ilə 120 bayraq asıldı. Onların 19-u qırmızı və giriş qapısından Yezidin sarayına qədər hərəkətdə idi.

Əbdud-din Rəbiə belə nəql etmişdir:

"Yezidin yanında idim. Zuhər bin Qeys daxil oldu. Yezid soruşdu ki, nə olub? O dedi: "Allah-taalanın köməyi və qələbəsini xəbər vermək istəyirəm. Hüseyn bin Əli (ə) 18 nəfər yaxınları və 60 nəfərköməkçiləri ilə bizimlə qarşı-qarşıya gəldi. Onlar təslim olmadıqlarına görə, öldürdük və başlarını bədənlərindən ayırdıq. Bədənlərini isti qumlar üstündə, günün altda qoyub gəldik.""[1]

Əsirlər insanların qəflətdən oyanışında hədsiz dərəcədə təsirli idilər. Səhl Saidi imam Hüseynin (ə) başını gəzdirənə 400 dinar verib onları dəvələrdən uzaqlaşdırdı ki, naməhrəmlərin gözü qadınları görməsin.

Səhl bin Saidi Ənsari Peyğəmbərin (s) səhabələrindəndir. O, belə nəql edir: "Dəvələrə mindirilimiş bir qrup qadını gördüm. Onların birincisinə yaxınlaşıb kimiyini soruşdum. O dedi: "Mən Hüseynin (ə) qızı Səkinəyəm." Dedim: "Mən Peyğəmbərin (s) səhabəsiyəm. Nə istəyin var?" O xanım dedi: "Ey Səhl, bu başları gəzdirənlərə de ki, bizdən aralansınlar və insanlar bizlərə baxmasın."

Ona görə də nizədarın yanına gedib ona 400 dinar verdim və əsirlərdən kənarlaşdırdım."[2]

---

[1] Şeyx Müfid, "Əl-İrşad", səh.231.
[2] BİN Tavus, "Luhuf", səh.102. "Nəfəsul-məhmum", səh.205

# YEZİDİN MƏCLİSİ

İmam Baqir (ə) buyurmuşdur: “Bizi Yezidin məclisinə gətirdilər. 12 kişi idik. Ən böyümüz atam imam Səccad (ə) idi. Əllərimizi boyunlarımıza bağlamışdılar.[1]

Yezid əlinə bir çupuq götürüb imam Hüseynin (ə) dodaqlarına vurur və məst halda şeir oxuyurdu.”

## ETİRAZ EDƏNLƏR

Məclisdəkilərdən 10 nəfəri Yezidin bu çirkin hərəkətinə görə ona etiraz etdi:

1- Əbdürrəhman bin Həkəm, (və ya Yəhya bin Həkəm). O, etiraz edərək məclisi tərk etdi.

2- Əbu Bərzə Əsləmi. O dedi: “Mən dəfələrlə görmüşdüm ki, Peyğəmbər (s) Həsən (ə) və Hüseynin (ə) dodaqlarından öpür və onları cənnət cavanlarının ağası olduqlarını buyururdu.” Yezid qəzəblənərək onu məclisdən çıxartdırdı.

3- Zeyd bin Ərqəm. Bu da öz etirazına görə zindana düşdü və elə orada vəfat etdi.

4- Nöman bin Bəşir. O, İbni Ziyaddan əvvəl Kufənin hakmi idi. O, Yezidin mövqeyini təhlükədə görüb xeyirxahlıq üzündən Yezidə məsləhət gördü ki, bu işi görməsin.

5- Səmurət bin Condəb. O, Peyğəmnbərin (s) imam Hüseynin (ə) dodaqlarından öpməyindən danışdı və hamı ağladı. Yezid onunla dost olduğu üçün ona bir söz demədi.

6- Yəhudi alimlərindən biri də etiraz etdi və Yezidin əmri ilə qətlə yetirildi.

7- Abdullah Bəni Amirin qızı Hind. O, uşaqlıq və gənclik dövrünü xanım Zəhranın (ə) yanında keçirmişdi. O, Yezidi lənətləyib ona nifrin etdi. Yezid onu qətlə yetirdi.

---

[1] “Muntəhəl-amal”, səh. 99.

8- Kərbəladan əsir gətirilən Həsən Musənna.
9- İmam Səccad (ə) Yezidlə kəskin şəkildə münazirə etdi və Quran ayələrinə əsaslandı. Yezid məhkum və sakit oldu.
10- Xanım Zeynəb (ə). Xanım əhatəli bir xütbə oxudu və Yezidi pislədi. Yezid xütbənin təsirindən ağladı. Xanım Zeynəbin (ə) xütbəsinin bir hissəsi belədir: *"Hiylələrini işə sal, əlindən gələni et, var gücünlə çalış. And olsun Allaha, bunu bil ki, bizi insanların yaddaşından silə bilməyəcəksən. Allah-taalanın bizə etdiyi vəhyi söndürə bilməyəcəksən, bizə qəsd edə bilməyəcəksən, Bu çirkin işini yuyub təmizləyə bilməyəcəksən."*

Yezid çox təsirləndi. Çünki onun zülmkar üzü aşkar oldu və hər şey onun zərərinə tamamlandı.

## ŞAMIN XƏRABƏSİ

Səfər ayının 2-si 12 nəfərdən ibarət əsir kişiləri Şamın xərabəsinə aparıb orada həbs etdilər.

Bu xərabə Yezidin sarayının yanında, üstü açıq, döşənəcəksiz, uçub-tökülmək üzrə və mühafizəsiz bir yer idi. Onlar çarəsizlikdən quru yerdə torpaq üzərində oturur və onun üstündə yatır və günəşin istiliyi altında qalırdılar. Onlar 3 gün orada qaldılar.

## XANIM RÜQƏYYƏNİN (Ə) ŞƏHADƏTİ

İmam Hüseynin (ə) 10 övladı var idi. Xanım Rüqəyyə (ə), imamın, Zeynəb (ə), Səkinə (ə) və Fatimədən (ə), sonra dördüncü övladı idi. İmamın 6 oğlu var idi. Şamın xərabəsində bu az yaşlı qız gecə atasını yuxuda gördü. Ayıldıqdan sonra çox ağlayaraq atasını görmək istədi. Onun ağlamağı digər əsirləri də ağlatdı. Ağlamaq sədası Yezidin sarayına çatdı. Ona görə də Yezid imam Hüseynin (ə) kəsik başını ora göndərdi. İmamın başını bir teştə qoyub oraya

gətirdilər. O, bunu görüb soruşdu: “Bu, kimin başıdır.” Dedilər: “Sənin atanın başıdır.” O, atasının başını qucaqlayıb, “atacan” deyərək arzu və istəklərini dilə gətirdi.

1. Atacan, səni kim belə qana bulaşdırmışdır?
2. Atacan, boynunun damarlarını kim kəsmişdir?
3. Atacan, məni uşaqlığımda kim yetim etdi?
4. Atacan, yetim qız böyüyənə qədər kimə pənah aparsın?
5. Atacan, əsir xanımlar hara getsinlər?
6. Atacan, ağlar gözlərə kim dərman edəcək?
7. Atacan, köməksiz qəriblərə kim dayaq olacaq?
8. Atacan, bizim pərişan saçlarımızı kim darayacaq?
9. Atacan, səndən sonra kimimiz var? Səndən sonra vay bizə!
10. Atacan, kaş, sənə qurban olardum!
11. Atacan, kaş, gözlərim kor olaydı və səni belə görməzdim.
12. Atacan, kaş, bundan əvvəl torpaqda basdırılardım və səni belə görməzdim.

Sonra üzünü atasının üzünə qoyub dünyadan getdi. Ümmü Gülsüm və digər xanımlar orada ona qüsl verib öz libası ilə dəfn etdilər. Tarixçilərin bəzisi onun yaşının 3, bəziəri 4-5 və bəziləri də 7 olduğunu yazmışlar.

## ŞAMIN 7 MÜSİBƏTİ İMAM SƏCCADIN (Ə) DİLİ İLƏ

İmam Zeynəl-Abidindən (ə) Kərbəlanın ən çətin müsibətləri haqqında soruşulanda, imam buyurdu: “Şam, Şam, Şam. (O həzrət Şamdakı çətinliklərin Kərbəladakı çətinliklərdən də ağır və böyük olduğunu buyurdu).”

O həzrət başqa bir rəvayətdə Nöman bin Muznir Mədayiniyə belə buyurdu: “Şamda 7 müsibətlə qarşılaşdıq ki, hələ əsirliyin əvvəlindən axırına qədər elə müsibət görməmişdik.”

1) Zalımlar Şamda bizi qılınc və nizələrlə əhatə etmişdilər və bizə hücum edirdilər. Bizi çalıb oynayan insanların içərisndə çox saxladılar.
2) Şəhidlərin başlarını xanımların kəcavələrində yerləşdirdilər. Atam və əmim Abbasın (ə) başlarını bibim Zeynəb (ə) və Ümmü Gülsümün gözü önündə yerləşdirdilər. Qardaşım Əli Əkbər (ə) və əmim oğlu Qasimin başlaırını bacım Səkinə və Fatimənin (ə) gözü önündə qoydular. Onlar kəsik başlarla oynayırdılar və bəzən də baş yerə düşürdü. Hətta dəvələrin ayağı altda qalırdı.
3) Şamlı qadınlar evlərin üstündən başımıza su və od tökürdülər. Bir dəfə alov əmmamamə düşdü və əllərim bağlı olduğu üçün onu söndürə bilmədim. Əmmamə yandı və alov başımı da yandırmışdı.
4) Sübh tezdən gün çıxandan axşama, gün batana kimi bizi bazarda, küçələrdə musiqi alətləri ilə gəzdirir və deyirdilər: “Ey camaat! Bunları öldürün. Çünki bunların heç bir hüququ və hörməti yoxdur.”
5) Bizi bir iplə bağladılar və yəhudi və nəsranilərin evlərində gəzdirir və onlara deyirdilər: “Bunlar o kəslərdir ki, Xeybərdə, Xəndəqdə bunların ataları sizin ata-babalarınızı öldürmüşlər və evlərini dağıtmışlar. Bu gün də siz bunlardan intiqam alın.”
6) Bizi qul bazarına aparıb qul-kəniz kimi satmaq istədilər. Lakin Allah-taala buna izn vermədi və istədikləri həyata keçmədi.
7) Bizi elə yerdə məskunlaşdırdılar ki, gündüz günəşin istiliyindən və gecə də havanın soyuqluğundan rahatlığımız yox idi. Aclıq və susuzluqdan və həlak olmaqdan hər an qorxuda idik. Əmin-amanlığımız yox idi.[1]

[1] Molla Həbib Kaşani, “Təzkirətuş-şuhəda”.

# İMAM SƏCCADIN (Ə) ŞAMDAKI XÜTBƏSİ

Cümə günü Dəməşqin cümə məscidində xütbə oxunmalı idi. Yezid əsirləri zindana göndərdi. İmam Səccadı (ə) isə məscidə gətizdirib öz izzət və qələbəsini insanlara göstərmək istədi. Yezid xətibə dedi ki, minbərə çıxıb Bəni-Üməyyəni təriflәsin və Əhli-beytin pisliyindən danışsın. Xətib minbərə çıxıb həmd etdikdən sonra Bəni-Üməyyəni tərfilədi. Bu an imam Səccad (ə) xətibin sözünü kəsib xütbə oxumaq üçün Yeziddən izn istədi.

Yezid çox çətinliklə izn verdi. İmam Səccad (ə) elə bir xütbə oxudu ki, Şam camaatını təsirləndirdi və peşman olub ağladılar.[1]

---

[1] İmam Səccad (ə) minbərə çıxıb buyurdu: "Əzəli və əbədi olub başlanğıcı olmayan Allaha həmd olsun. O, hər şeydən əvvəl var idi, hər şeydən sonra da olacaq. Bütün məxluq fani olduqdan sonra o, qalacaqdır. Ey camaat! Allah bizə altı xislət əta edib; elm, səbr, səxavət, fəsahət, şücaət və möminlərin qəlbində bizə qarşı məhəbbət. Bizi başqalarından yeddi xüsusiyyət ilə üstün etdi; Allahın peyğəmbəri Məhəmməd (s) bizim ailəmizdən seçilmişdir, Siddiq (Əli) bizdəndir, Təyyar bizdəndir, Allahın şiri və Allahın Peyğəmbərinin (s) şiri (Həmzə) bizdəndir, cənnət cavanlarının iki ağası imam Həsən (ə) və imam Hüseyn (ə) bizdəndir, bu ümmətin imam Qaimi (ə) bizdəndir. Hər kim məni tanıdı, tanıdı, tanımayanlara isə atamı, nəslimi və özümü tanıtdırıram. Ey camaat! Mən Məkkə və Minanın oğluyam. Mən Zəmzəm və Səfanın oğluyam. Mən o kəsin oğluyam ki, həcərül-əsvədi əbasında aparıb (Kəbədə) öz yerinə qoydu. Mən ən gözəl şəkildə həcc əməlini yerinə yetirən və ləbbeyk deyənin oğluyam. Mən o kəsin oğluyam ki, Büraqa səvar oldu. Mən o Peyğəmbərin oğluyam ki, bir gecədə Məscidul-Həramdan, Məscidul-Əqsaya getdi. Mən o kəsin oğluyam ki, Cəbrail onu Sidrətul-Müntəhaya apardı və Mütəal-Allaha ən yaxın olan məqama çatdı. Mən o kəsin oğluyam ki, göylərdə mələklərlə namaz qıldı. Mən o kəsin oğluyam ki, əzəmətli Allah ona vəhy nazil etdi. Mən Məhəmməd Mustafanın oğluyam, mən Mürtəza Əlinin oğluyam. Mən o kəsin oğluyam ki, (Allaha) boyun əyməyənlərin boynunu əydi və "La ilahə illəllah"ı onlara iqrar etdirdi. Mən o kəsin oğluyam ki, Peyğəmbərin yanında iki qılınc və iki nizə ilə vuruşurdu, iki dəfə hicrət və iki dəfə beyət etdi, Bədrdə və Hüneyndə kafirlərlə döyüşdü, bir an belə olsun Allaha küfr etmədi. Mən möminlərin ən yaxşısının, peyğəmbərlərin varisinin, müşrikləri məhv edənin, müsəlmanların əmirinin, cihad edənlərin nurunun, ibadət edənlərin zinətinin, ağlayanların iftixarının, səbirlilərin səbirlisinin, namaz qılanların ən üstününün, Allah Peyğəmbərinin əhli beytinin oğluyam. Mən o kəsin oğluyam ki, Cəbrail onu qüvvətləndirdi və Mikail ona kömək etdi. Mən o kəsin oğluyam ki, müsəlmanların

hərəmini himayə etdi, mariqin, nakisin, qasitinlə vuruşdu və müsəlmanların düşmənləri ilə mübarizə etdi. Mən Qüreyşin ən yaxşısının oğluyam. Mən o kəsin oğluyam ki, Allah və Peyğəmbərin dəvətini qəbul edən ilk mömin olmuşdur. Mən imanda ən öndə olanın, təcavüzkarların belini sındıranın, müşrikləri məhv edənin oğluyam. Mən o kəsin oğluyam ki, münafiqlərə qarşı Allahın atdığı ox idi və abidlərin hikmət dili, Allah dininin köməkçisi, Allah əmrlərinin vəlisi, Allah hikmətinin xəzinəsi və Allah elminin daşıyıcısı idi. O, mərd, səxavətli, gözəl üzlü, xeyirlər mənbəyi, seyid, ağa, Allah razılağına razı olan, çətinliklərdə önə keçən, səbirli, həmişə oruc tutan, bütün çirkinliklərdən pak, çox namaz qılan idi. O, düşmənlərin nəslinin kökünü kəsdi və küfr qoşununu pərakəndə etdi. O, sabit ürəkli, möhkəm iradəli və əzmli idi. Şücaətli bir şir kimi idi ki, döyüşdə atlar çapılan və nizələr bir-birinə toqquşan zaman, onları dəyirman kimi xurd-xəşil edib külək kimi ətrafa səpirdi. Hicazın şiri, İraqın ağası, Məkkəli, Mədinəli, Xifli, Əqəbəli, Bədrli, Ühüdlü, Şəcərli və mühacirdən idi və bütün bu səhnələrdə iştirak etmişdi. O, ərəbin seyidi, iki məş’ərin varisi və Həsən və Hüseynin atasıdır. Bu mənim cəddim Əliyyibni əbi Talibdir. Mən, bütün aləmdəki qadınları üstünü xanım Fatimeyi Zəhranın oğluyam.” İmam Səccad (ə) o qədər belə iftixarlı sözlər dedi ki, axırda camaatın şivən və ağlamaq səsi ucaldı. Yezid bunu görüb narahat oldu və camaatın ona qarşı qiyam edəcəyindən qorxub müəzzinə azan verməyi əmr etdi. O, bu hiyləsi ilə imam Səccadı (ə) sakitləşdirmək istəyirdi. Müəzzin qalxıb azana başladı. "Allahu Əkbər". İmam Səccad (ə) buyurdu: Allah hər şeydən böyükdür. Müəzzin dedi: "Əşhədu ənla ilahə illəllah". İmam Səccad (ə) buyurdu: Tüküm, dərim, ətim və qanımla şəhadət verirəm ki, Allahdan başqa, mə’bud yoxdur. Elə ki, müəzzin dedi: "Əşhədu ənnə Mühəmmədər-rəsulullah", imam Səccad (ə) əmmaməsini başından götürdü və müəzzinə dedi: Səni and verirəm Mühəmmədin haqqına, bir anlığa sakit ol. Sonra üzünü Yezidə tutub dedi: “Ey Yezid! Bu adı çəkilən Peyğəmbər(s), mənim cəddimdir ya sənin cəddin? Əgər öz cəddin olduğunu desən, hamı bilər ki, yalan danışırsan. Yox, əgər mənim cəddimdirsə, bəs nə üçün mənim atamı zülm ilə öldürdün və malını qarət, əhli-əyalını isə əsir etdin?” İmam bunları deyib, yaxasını açdı və ağlamağa başladı Sonra buyurdu: “And olsun Allaha, əgər yer üzündə cəddi Peyğəmbər (s) olan bir şəxs varsa, o mənəm! Bəs nə üçün bu (Yezid) atamı öldürdü və bizi rumlular kimi əsir etdi?” Sonra buyurdu: “Ey Yezid! Bu qədər cinayətləri etmisən və yenə də deyirsən Məhəmməd (s) Allahın rəsuludur və üzü qibləyə dayanırsan? Vay olsun sənə! Qiyamət günü atam və cəddim səninlə düşmən olacaqlar.” Yezid fəryad çəkib dedi: “Müəzzin azanı de.” Camaat arasında hay-küy qalxdı, bəziləri Yezidlə namaz qıldılar, bəziləri isə namaz qılmadan dağılışdılar. Xanım Zeynəbin (ə) və imam Səccadın (ə) şamlıların arasında oxuduqları güclü xütbələrindən və xanım Rüqəyyənin (ə) məzlumcasına xarabada can verməsindən sonra, camaat həqiqəti başa düşdü, Bəni-Üməyyə hakimiyyətinin hiylə və siyasətinin üstü açıldı və artıq hamı Yezidə lənət göndərir, tə’nə edirdi. Yezid özünü çarəsiz gördü və bildi ki, camaat ona nifrət edir. Ona görə

Ey camaat! Allah bizə 6 xislət əta edib; elm, səbr, səxavət, fəsahət, şücaət və möminlərin qəlbində bizə qarşı məhəbbət. Bizi başqalarından 7 xüsusiyyət ilə üstün etdi; Allah Peyğəmbəri Məhəmməd (s) bizim ailəmizdən seçilmişdir, Siddiq (Əli) bizdəndir, Təyyar bizdəndir, Allahın şiri və Allahın Peyğəmbərinin (s) şiri (Həmzə) bizdəndir, cənnət cavanlarının iki ağası imam Həsən (ə) və imam Hüseyn (ə) bizdəndir. Həzrət sonra özünü adıyla deyil, vəsfiylə tanıtdırdı ki, oradakılar imamı yaxşı tanısınlar. İmam (ə) xütbəsində mən sözünü 20 dəfə təkrar etdi. Yezid imamın (ə) sözlərinin təsirini hiss etdi və gördü ki, insanlar şiddətlə ağlayırlar, ona görə də, müəzzinə azan veməyini əmr etdi. Müəzzin əşhədu ənnə Məhəmmədən Rəsulluah deyərkən, imam Səccad (ə) uca səslə buyurdu: "Ey Yezid! Atam Hüseyni (ə) öldürürsən, sonra isə cəddim peyğəmbərin risalətini dilə gətirirsən?!"

İmamın xütbəsi camaatın oyanışına və onların peşmançılığına səbəb oldu. O həzrət bir daha atasının qiyamını dəstəkləyərək cahilləri gördüyü işlərə görə peşman etdi. Ona görə də Yezid imam Hüseynin (ə) qətlini İbni Ziyadin boynuna ataraq əsirlərin azadlığına fərman verdi. Sonra imam Səccada (ə) belə dedi: "Verdiyim 3 vədəyə əməl etmək istəyirəm."

İmam buyurdu:

1- Atamın başını mənə göstər;
2- Bizdən qarət olunanları geri qaytar;
3- Məni öldürmək istəyirsənsə, əsirləri əmin bir insana tapşır ki, onları Mədinəyə qaytarsın.

---

də, bu cinayəti qoşun başçılarının boynuna atdı. Camaat arasında söhbət ancaq Yezidin zülmündən gedirdi. Onlar Yezidin Peyğəmbər (s) övladlarını öldürməsindən və onun əhli-əyalını əsir etməsindən danışırdılar. Nəzəri Munfərid, "Qisseye Kərbəla", səh. 506

Yezid imamın birinci istəyi ilə razılaşmayıb dedi: “Əsirləri özün Mədinəyə qaytar. Qarət olunanların isə iki bərabər pulunu ödəyəcəm.” İmam onun ödəcəyi pulu qəbul etmədi.

İmam Hüseynin (ə) karvanı Nöman bin Bəşirin rəhbərliyi və 30 nəfər mühafizlə – onlar ümumilikdə 150 nəfər idi – Mədinəyə qaytarıldı.[1]

## ŞAMDAN KƏRBƏLAYA

Əsirlərin Şamda zindanda qaldığı müddət dəqiq bilinmir. Lakin onlar azadlığa çıxdıqdan sonra Mədinəyə qayıdarkən Kərbəlaya gedib imam Hüseyni (ə) ərbəin günü, (imamın şəhadətinin 40-cı günü) ziyarət etmişlər. Alimlər bu barədə bir neçə dəlilə əsaslanırlar:

1- Əbu Reyhan “Asarul-baqiyə” kitabında yazmışdır: “İmam Səccad (ə) Səfər ayının 20-si imam Hüseynin (ə) mübarək başını atasının mübarək bədəninin yanında dəfn etdi. İmam Hüseynin (ə) digər yaxınları da o gün həzrətin qəbrini ziyarət etdilər. Ərbəin ziyarəti də elə bunun üçündür.”

2- İbn Numan da “Muşirul-əhzan” kitabında belə yazmışdır: “Əhli-beyt Kərbəlaya çatdıqda, Cabir bin Abdullah Ənsari ilə rastlaşdılar. Onlar birlikdə imam Hüseynin (ə) qəbrini ziyarət etdilər və əza saxladılar. ”

3- Coğrafi nöqteyi nəzərdən də bu məsələyə diqqət etsək, görürük ki, Dəməşqin cənubundan hərəkət etmək və 115 km yol getməklə Kufə, Kərbəla və Şamdan Mədinəyə olan yol ayrılır. Şamdan Kərbəlaya qədər olan yolu 10-12 günə getmək mümkündür.[2] Məkkə ilə Kərbəlanın yolu 1434 km-dir ki, imam Hüseyn (ə) Əhli-beytlə birgə iki gün dayan-

[1] “Ayine dər Kərbəlast”, səh.227. “Şəhadətnameye imam Hüseyn (ə)”, səh.824-826.

[2] Əllamə Əmini dəvəyə minərək bu yolu 10 günə gedib bunu tamamilə isbat etmişdir. Allahın rəhməti olsun ona.

maqla yanaşı, bu yolu 24 günə getdi. Tarix kitablarında yazmışlar ki, Mərvanın qoşununda olan Amir bin Mərvan 100000 nəfərlik ordu ilə Muxtarla vuruşmaq üçün bu yolu 10 günə getmişdir. Yezidin nümayəndəsi də o yolu 11 günə getmişdi.

4- Əbu Reyhanın yazdığı "Asarul-baqiyə" kitabında karvanın Kufədən hərəkətinin Məhərrəm ayının 15-20-də olması qeyd edilmişdir və onlar Kufədən Şama qədərlik yolu 10-15 günə getmişlər.

5- Şeyx Mufid Xeyzəran Subatidən bir hədis nəql etmişdir: "Xeyzəran Subati deyir: "Mədinədə imam Hadinin (ə) yanına getdim. O həzrət buyurdu: "Vasiqdən xəbərin varmı? (Vasiq Abbasi xəliflələrindəndir)." Dedim ki, mən 10 gün əvvəl onu görmüşdüm. Sağ idi. İmam buyurdu: "Mədinəlilər deyirlər ki, o ölmüşdür.""

6- "Əyanuş-şiə" kitabında yazılmışdır ki, İraqla Şam arasında bir yol vardır ki, ərəblər o yulu bir həftəyə qət edirdilər.[1]

7- Dini maarif və məsumların uca məqamlarına da nəzər salsaq, görürük ki, əsirlər birinci ərbəində Kərbəlanı ziyarət etmişlər.

8- İbn Ziyad karvanı sürətlə Kufədən Şama hərəkət etdirirdi ki, gördüyü işin müqabilində Yeziddən hədiyyə ala bilsin. Əsirlərin Şamda bir həftə saxlanılması nəzərə alındıqda, Şamdan Kərbəlaya 13 günə hərəkət etməsi mümkün olur.

9- Cabir bin Abdullah Ənsari elə birinci ərbəində imamı ziyarət etmişdir. Ona görə də, onu imamın birinci zəvvarı hesab etmişlər. Əhli-beyt (ə) da Kərbəlanı ziyarət edərkən Cabirlə qarşıaşırlar və birlikdə əzadarlıq edirlər.

---

[1] "Ayine dər Kərbəlast".

10- Əsirlərin birinci ərbəində Kərbəlanı ziyarət etməsini inkar edən alimlər sonrakı əsirlərdə yaşamışlar. Əvvəlki əsrin alimlərləri isə ziyarətin birinci ərbəində baş verdiyini buyurumuşlar.
11- Bəzi aimlərin birinci ərbəini qeyd etməməsi ziyarətin birinci ərbəində baş tutmamasına dəlil ola bilməz.
12- Tarixi faktlar onu göstərir ki, əsirlər (Şamdan qayldarkən), Kərbəladan əvvəl Mədinəyə getməmişlər. Digər bir tərəfdən də, imam Səccad (ə) imam Hüseynin (ə) kəsik başını Kərbəlada dəfn etməli idi və onu özü ilə Mədinəyə apara bilməzdi.
13- Əgər Əhli-beyt (ə) ikinci ildə ərəbinə getmiş olsaydı, Ümmül- Bənin və digər Əhli-beyt aşiqləri də onlarla birlikdə ziyarətə gedərdilər, halbuki, heç bir mənbədə onların Mədinədən Kərbəlaya ziyarəti yazılmamışdır.
14- Tədqiqatçılardan olan Mehdi Pişvayi də ziyarətin birinci ərbəində baş tutduğunu yazmışdır.[1]

Bütün bunlar onu göstərir ki, Əhli-beyt (ə) birinci ərbəində Kərbəlanı ziyarət etmişdir. Nəticədə, birinci ərbəində ziyarətin olmasını inkar edənlərin düşüncəsi əsassızdır.

[1] "Məqtəli Cameye Şuhəda", 2-ci cild, Ərbəin bəhsi.

# İMAM HÜSEYNİN (Ə) QİYAM VƏ ŞƏHADƏTİNƏ AİD YAZILMIŞ ƏSƏRLƏR

| KİTABIN ADI | MÜƏLLİF |
|---|---|
| Məqtəlul-Hüseyn (ə) | Abdullah bin Məhəmməd Əbülqasim Bəğəvi, (vəfat: H.q. 317). |
| Məqtəlul-Hüseyn (ə) | Məhəmməd bin Yəhya Əbucəfər Qumi, (vəfat: H.q. 328). |
| Məqtəlul-Hüseyn (ə) | Əbdüləziz Cəludi, (vəfat: H.q. 332). |
| Məqtəlul-Hüseyn (ə) | Ömər bin Həsən Əşnani Bəğdadi, (vəfat: H.q. 339). |
| Məqtəlul-Hüseyn (ə) | Əbufərəc İsfahani, (vəfat: H.q. 356). |
| Məqtəlul-Hüseyn (ə) | Ziyad Tüstəri, (vəfat: H.q. 381). |
| Məqtəlul-Hüseyn (ə) | Şeyx Səduq, (vəfat: H.q. 381). |
| Məqtəlul-Hüseyn (ə) | Məhəmməd bin Əli Şəhriyar Əsğər, (vəfat: H.q. 381). |
| Məqtəlul-Hüseyn (ə) | Məhəmməd bin Əhməd Əbu Cəfər Əşəri, (vəfat: H.q. 4-cü əsr. |
| Məqtəlul-Hüseyn (ə) | İmarət bin Zeyd Həmədani, (vəfat, 450-ci ildən əvvəl). |
| Məqtəlul-Hüseyn (ə) | Şeyx Tusi, (vəfat: H.q. 460). |
| Məqtəlul-Hüseyn (ə) | Müvəffəq bin Əhməd Əbubəkr Xarəzmi, (vəfat: H.q. 568). |
| Məqtəlul-Hüseyn (ə) | Məhəmməd bin Əmir Nəcməddin Qusini, (vəfat: 585-ci ildən əvvəl). |
| Məqtəlul-Hüseyn (ə) | Seyid Mustafa Kehnəvi, (vəfat: H.q. 1323). |
| Məqtəlul-Hüseyn (ə) | Seyid Məhəmməd bin Seyyid Əvlad Əli Rəzəvi, (vəfat: H.q. 1324). |
| Məqtəlul-Hüseyn (ə) | Seyid İbrahim Miyanəci, (vəfat: H.q. 1332). |

| | |
|---|---|
| Məqtəlul-Hüseyn (ə) | Mirza Məhəmməd Əli Müdərris Çahardehi, (vəfat: H.q. 1334). |
| Məqtəlul-Hüseyn (ə) | Mirza Yusif bin Zeyniddin Daği Təbrizi, (vəfat: H.q. 1337). |
| Məqtəlul-Hüseyn (ə) | Şeyx Fətəli Zəncani, (vəfat: H.q. 1338). |
| Məqtəlul-Hüseyn (ə) | Mirza Həsən bin Əli Qəzvini, (vəfat: H.q. 1358). |
| Məqtəlul-Hüseyn (ə) | Fəzl Əli Qəzvini, (vəfat: H.q. 1367). |
| Məqtəlul-Hüseyn (ə) | Abdul-Ula Hacı Abbas Səd Diravi, (vəfat: H.q. 1367). |
| Məqtəlul-Hüseyn (ə) | Doktor muctaba Hüseyn, (vəfat: H.q. 1374). |
| Məqtəlul-Hüseyn (ə) | Əbdüzzəhra Kəbi, (vəfat: H.q. 1379). |
| Məqtəlul-Hüseyn (ə) | Şeyx Məhəmməd Hüseyn Al Kaşiful-ğita, (vəfat: H.q. 1382). |
| Məqtəlul-Hüseyn (ə) | Seyid Cavad Şübbər, (vəfat: H.q. 1384). |
| Məqtəlul-Hüseyn (ə) | Məhəmməd Təqi Bəhrul-Ulum, (vəfat: H.q. 1393). |
| Məqtəlul-Hüseyn (ə) | Seyid Müctaba Həsən bin Məhəmməd Diyar Bəkri, (vəfat: H. q. 1394). |
| Məqtəlul-Hüseyn (ə) | Seyid Məhəməd Adil Rəzəvi, (vəfat: H.q 1395). |
| Məqtəlul-Hüseyn (ə) | Rəfi Kəzazi, (vəfat: H.q 14-cü əsr). |
| Məqtəlul-Hüseyn (ə) | Məhəmməd Baqir Yəzdi, (vəfat: H.q. 14-cü əsr). |

# MÜNDƏRİCAT

ÖN SÖZ ........................................................................................1

İMAM HÜSEYNƏ (Ə) MATƏM SAXLAMAĞIN SAVABI ..............................4

İMAM HÜSEYNİN (Ə) QİYAMININ KÖKLƏRİ............................................6

AŞURA QİYAMININ BAŞLANĞICI ...........................................................8

İMAM HÜSEYNİN (Ə) MƏDİNƏDƏN ÇIXMASININ SƏBƏBİ ....................9

İMAM HÜSEYNİN (Ə) QİYAMA ÜSTÜNLÜK VERMƏSİ .......................... 10

İMAM HÜSEYNİN (Ə) ÖZÜNƏ AİD TƏDARÜKÜ................................... 11

MÜSLİM BİN ƏQİLİN QİYAMI ............................................................. 12

MÜSLİM BİN ƏQİL KİMDİR?................................................................ 13

MÜSLİM BİN ƏQİLİN ŞƏHADƏTİ ........................................................ 15

MÜSLİMİN MƏŞHUR KÖMƏKÇİLƏRİ .................................................. 16

MÜSLİMİN İKİ BALASI ......................................................................... 17

İMAM HÜSEYNİN (Ə) MƏKKƏDƏN KƏRBƏLAYA SƏFƏRİ................. 19

MƏKKƏDƏN HƏRƏKƏT EDƏRKƏN İMAMLA BİRLİKDƏ OLANLAR... 19

İMAM HÜSEYNİN (Ə) QARDAŞLARI ................................................... 19

İMAM HÜSEYNİN (Ə) ƏMİSİ OĞLANLARI ............................................ 20

İMAM HƏSƏNİN (Ə) ÖVLADLARI ........................................................ 21

İMAM HÜSEYNİN (Ə) ÖZ ÖVLADLARI ................................................. 22

İMAM HÜSEYNLƏ (Ə) BİRLİKDƏ MƏKKƏDƏN KUFƏYƏ SƏFƏR EDƏNLƏRİN ÜMUMİ SİYAHISI ............................................................. 23

İMAMIN YAXINLARINDAN SƏFƏRƏ ÇIXMAYANLAR ........................... 24

İMAM HÜSEYNİN (Ə) YOLBOYU DAYANDIĞI MƏNTƏQƏLƏR ............ 25
MƏNTƏQƏLƏRDƏ BAŞ VERMİŞ HADİSƏLƏR .................................... 26
İMAM HÜSEYN (Ə) KƏRBƏLADA ......................................................... 28
1-Cİ GÜN ................................................................................. 28
2-Cİ GÜN ................................................................................. 28
3-CÜ GÜN ................................................................................ 29
4-CÜ GÜN ................................................................................ 29
5-Cİ GÜN ................................................................................. 29
6-CI GÜN ................................................................................. 30
7-Cİ GÜN ................................................................................. 30
8-Cİ GÜN ................................................................................. 31
9-CU GÜN ................................................................................ 32
10-CU GÜN .............................................................................. 32
DÜŞMƏN QOŞUNUNUN SAYI VƏ ONLARIN KOMANDİRLƏRİNİN STATİSTİKASI ............................................................................................ 33
TASUA VƏ AŞURANIN STATİSTİKASI ................................................. 34
AŞURA GECƏSİNİNDƏ BAŞ VERƏNLƏR ............................................. 34
ÖMƏR BİN SƏD ................................................................................... 35
ŞİMR BİN ZİLCÖVŞƏN ........................................................................ 36
AŞURA SÜBHÜNÜN HADİSƏLƏRİ ....................................................... 36
İMAM HÜSEYNİN (Ə) NİFRİNLƏRİ ........................................................ 38
AŞURANIN İLK ŞƏHİDLƏRİ ................................................................. 39
OX ATILAN ZAMAN ŞƏHİD OLANLARIN ADLARI VƏ SİYAHISI ........... 39
MÜHARİBƏDƏ ŞƏHİD OLANLARIN SAYI VƏ ADLARI ......................... 43

İMAMIN DİZİ ÜSTƏ CAN VERƏN ŞƏHİDLƏR ........................................ 48
NAMAZ ŞƏHİDLƏRİ VƏ ZÖHRDƏN SONRAKI ŞƏHİDLƏRİN AD VƏ SAYLARI ........................................ 49
BƏNİ-HAŞİM ŞƏHİDLƏRİ ........................................ 50
BƏNİ-HAŞİM ŞƏHİDLƏRİNİN SİYAHISI ........................................ 52
İMAM HÜSEYNİN (Ə) KƏRBƏLADA ŞƏHİD OLDUĞU AN ........................................ 53
İMAMIN PALTARLARINI OĞURLAYANLAR ........................................ 56
İMAMIN MÜBARƏK BƏDƏNİNİN ÜSTÜNDƏN ATLARIN KEÇMƏSİ..... 56
İMAM HÜSEYNDƏN (Ə) SONRA ŞƏHİD OLANLAR ........................................ 57
İMAMIN YARALARININ SAYI ........................................ 58
BƏNİ-HAŞİMİN ƏLİ İLƏ ÖDÜRÜLƏN DÜŞMƏN ORDUSUNUN STATİSTİKASI ........................................ 59
DÜŞMƏN ORDUSUNDAN ÖLDÜRÜLƏNLƏRİN SAYI ........................................ 60
AŞURA QÜRUBUNUN HADİSƏLƏRİ ........................................ 61
AŞURA GÜNÜ BƏDƏNLƏRİNDƏN KƏSİLƏN BAŞLAR ........................................ 61
KƏRBƏLA ƏLİLLƏRİ ........................................ 62
KƏSİK BAŞLARIN QƏBİLƏLƏR ARASINDA BÖLÜŞDÜRÜLMƏSİ ....... 62
İMAM HÜSEYN (Ə) ON NƏFƏR ÜÇÜN XÜSUSİ NARAHATÇILIQ HİSSİ KEÇİRİB AĞLADI, ONLARA DUA VƏ QATİLLƏRİNƏ İSƏ NİFRİN ETDİ63
İMAM HÜSEYN (Ə) 7 ŞƏHİDİN BAŞI ÜSTƏ PİYADA GETDİ ................ 63
DÖYÜŞ ZAMANI 3 NƏFƏRİN BAŞINI KƏSİB İMAMA TƏRƏF ATDILAR63
KƏRBƏLADA 3 NƏFƏRİN BƏDƏNİNİ TİKƏ-TİKƏ DOĞRADILAR....... 63
KƏRBƏLADA 9 ANA ÖZ OĞLUNUN ŞƏHADƏTİNİ MÜŞAHİDƏ EDİRDİ64

KƏRBƏLADA HƏDDİ-BÜLUĞA ÇATMAYAN 5 AZYAŞLI UŞAQ ŞƏHİD OLDU ........ 64
KƏRBƏLADA PEYĞƏMBƏRİN (S) SƏHABƏLƏRİNDƏN 5 NƏFƏRİ ŞƏHİD OLDU ........ 64
İMAM HÜSEYNİN (Ə) 15 QUL VƏ XİDMƏTÇİSİ ŞƏHİD OLDU ........ 65
ƏSİRLİKDƏ ŞƏHİD OLANLAR ........ 65
ATALARININ HÜZURUNDA ŞƏHİD OLANLAR ........ 65
XEYMƏLƏRDƏN MEYDANA GƏLƏN QADINLAR ........ 66
KƏRBƏLANIN YEGANƏ QADIN ŞƏHİDİ ........ 66
KƏRBƏLA QİYAMINDA İŞTİRAK EDƏN QADINLAR ........ 66
KUFƏDƏN İMAM HÜSEYNİN (Ə) KÖMƏYİNƏ GƏLƏNLƏR ........ 67
AŞURADA İMAMA QOŞULANLAR ........ 67
KƏRBƏLA ƏSİRLƏRİNİN STATİSTİKASI ........ 68
Əsirlikdə olan Bəni-Haşim kişilərinin sayı 8 nəfərdir ki, onların əksəriyyəti azyaşlı idi ........ 68
Əsirlikdə olan Bəni-Haşim qadınları ........ 68
Əsirlikdə olan digər xanımlar ........ 69
KUFƏ CAMAATININ İBNİ ZİYADA ETİRAZININ İKİ SƏBƏBİ ........ 71
ABDULLAH BİN ƏFİFİN ŞƏHADƏTİ ........ 72
İMAM HÜSEYNİN (Ə) KƏSİK BAŞININ QƏRAR TUTDUĞU 5 MƏSCİD ........ 72
ŞAM SƏFƏRİNİN STATİSTİKASI ........ 74
MƏSİHİ RAHİB ........ 75
ŞAMDA BAŞ VERƏNLƏR ........ 77
YEZİDİN MƏCLİSİ ........ 79

ETİRAZ EDƏNLƏR ........................................................................ 79
ŞAMIN XƏRABƏSİ........................................................................ 80
XANIM RÜQƏYYƏNİN (Ə) ŞƏHADƏTİ................................................ 80
ŞAMIN 7 MÜSİBƏTİ İMAM SƏCCADIN (Ə) DİLİ İLƏ ............................ 81
İMAM SƏCCADIN (Ə) ŞAMDAKI XÜTBƏSİ ......................................... 83
ŞAMDAN KƏRBƏLAYA ..................................................................... 86
İMAM HÜSEYNİN (Ə) QİYAM VƏ ŞƏHADƏTİNƏ AİD YAZILMIŞ ƏSƏRLƏR
........................................................................................................ 89